Hər kəs ədalətli olacaq
ƏDALƏT

## Hikmət Hacıyevdən qadın istehkamçılarla bağlı paylaşım



**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycanın qadın istehkamçıları ilə bağlı paylaşım edib.**

Adalet.az xəbər verir ki, Prezidentin köməkçisi sosial şəbəkədə yazıb: "Azərbaycanın cəsur qadın istehkamçıları fiziki təhlükəsizliyini potensial riskə ataraq insanların həyatını xilas etmək, "ölüm toxumu"nun kökünü kəsmək və bu torpaqları uşaqlar, ailələr və icmalar üçün təhlükəsiz vəziyyətə gətirmək üçün Ermənistanın Azərbaycan ərazilərini çirkləndirdiyi minalardan təmizləmə əməliyyatlarında iştirak edirlər".

## DİN-dən vətəndaşlara müraciət: Hamısı yalandır!



**DİN-in mətbuat xidmətinin rəisi Elşad Hacıyev kiber-onlayn talamalarla bağlı vətəndaşlara müraciət edib.**

Adalet.az müraciəti təqdim edir: "Kimsə sizə "bank kartınızı göndərin, yardım edəcəm" desə, göndərməyin! Kimsə sizə satdığınız əşya, yaxud daşınmaz əmlakla bağlı "bank kartınızı göndərin, beh verim" desə, göndərməyin! Kimsə sizə "kampaniya var - ucuz məhsullar var, ünvana pulsuz çatdırılır, onlayn ödəniş edin" desə, etməyin! Kimsə sizə "onlayn iş füsrəti var, pul köçürmələrindən qazana bilərsiz" desə, qoşulmayın! Hamısı yalandır! Çağırış edirik, dəstək xahiş edirik. Vətəndaşları məlumatdırmalıyıq: Kömək edin!"

## İrəvan Qazaxın 7 kəndini Bakıya qaytarmağa hazır olduğunu açıqladı

**İrəvan sovet dövründə mövcud olan anklavları (Qazaxın 7 kəndi və Naxçıvanın Kərki kəndi - red.) Bakıya qaytarmağa hazırdır.**

Adalet.az xəbər verir ki, bu barədə Ermənistan parlamentinin spikeri Alen Simonyan bildirib. Simonyan qeyd edib ki, Ermənistan bunun müqabilində anklav formasiyasının tərkibində yerləşən Artsvaşen kəndini (Başkənd) də alır.

O, Ermənistan və Azərbaycan tərəflərinin bu məsələnin həllini tapacağına əminliyini ifadə edib: "Mən indi konkret heç nə deyə bilmərəm, lakin hüquqi əsaslar varsa, biz anklavları onlara qaytarmağa hazırıq və onlar bizim Artsvaşenimizi qaytaracaqlar".

## Yaşar Güler: "Qarabağ əbədiyyətə qədər Azərbaycanın ərazisi olaraq qalacaq"



**"Qarabağ əbədiyyətə qədər Azərbaycanın ərazisi olaraq qalacaq".**

Adalet.az xəbər verir ki, bu barədə Bakıda səfərdə olan Türkiyə milli müdafiə naziri Yaşar Güler azərbaycanlı həmkarı general-polkovnik Zakir Həsənovla görüşü zamanı bildirib.

Yaşar Güler Zakir Həsənovu Azərbaycanın 8 Noyabr - Zəfər Günü münasibətilə bir daha təbrik edərək, Qarabağın azadlığı uğrunda 44 gün qəhrəmancasına döyüşmüş şəhid və qaziləri rəhmətlə yad etdiyini vurğulayıb.

## Nazir müavini: "Yaxın gələcəkdə təbii fəlakətlərin sayı artacaq"



**"Təəssüflər olsun ki, son zamanlar inkişaf səviyyəsindən asılı olmayaraq ölkələrin iqtisadiyyatı iqlim dəyişmələri nəticəsində böyük zərər görür".**

Adalet.az xəbər verir ki, bunu ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva deyib.

Nazir müavini bildirib ki, alimlərin proqnozlarına görə, yaxın gələcəkdə təbii fəlakətlərin sayı və təkrarlanması artacaq. Bu da bütün ölkələrin qarşısında yeni çağırışlar qoyur.

## Laçında açıq səma muzeyi yaradılacaq



**Laçında "Laçının daş yaddaşı" adlı açıq səma altında muzey yaradılacaq.**

Adalet.az xəbər verir ki, Mədəniyyət Nazirliyi belə bir muzeyin yaradılması ideyasını bəyənib və dəstəkləyib.

Muzeydə nümayiş etdiriləcək daşlar rayonun kəndlərində toplanılaraq Laçın şəhərində yerləşən Yun zavodu adlanan əraziyə gətirilib. Daşları laçınlı ziyalılar Azər Məmmədov və Akif Binəyerli toplayıb.

"İzi itməkdə olan qədim qəbiristanlıqlarda olan 7-8 ədədi istisna olmaqla qalanı baxımsızlıq ucbatından və qızılaxtaranlar tərəfindən qazılaraq bir kənara atılıb. Dağ yamaclarına yuvarlanmış şəkildə qalaraq itib batmaq üzrə olan bu tarixi əsərlər Laçının mərkəzində açıq muzeydə qorunacaq. Həmin abidələrin elmi cəhətdən araşdırılması yolu ilə tariximizi öyrənmək mümkün olacaq", - A.Məmmədov bildirib.

Onun sözlərinə görə, kəndlərdən, meşələrdən, dağ yamaclarından, kolluqların içindən böyük çətinliklər hesabına 65 ədəd abidəni toplayaraq Laçına gətiriblər.

Ermənilərin vandalizmə məruz qoyduğu daşlar tezliklə Laçın şəhərinin mərkəzində açıq səma altındakı muzeydə üç dildə nümayiş olunacaq.

Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 46 (6039) 1 dekabr 2023-cü il | Qiyməti 40 qəpik

# "Ermənistan sülh müqaviləsinin mətnindən bəhanə kimi istifadə edir"



**"Ermənistan sülh müqaviləsinin mətnindən danışıqlar prosesini uzatmaq üçün bəhanə kimi istifadə edir".**

**Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 27-də ABŞ Dövlət katibi Antoni Blinkenlə telefon danışığı zamanı qeyd edib.**

**Bildirilib ki, sülh müqaviləsinin mətni ilə bağlı Azərbaycan tərəfinin 2023-cü il sentyabrın 11-də Ermənistana təqdim etdiyi təkliflər Ermənistan tərəfindən noyabrın 21-də cavablandırılıb. Beləliklə, Ermənistan öz cavabını 70 gün gecikdirib. Yetmiş günlük gecikdirmə bir daha nümayiş etdirir ki, Ermənistan sülh müqaviləsinin mətnindən danışıqlar prosesini uzatmaq üçün bəhanə kimi istifadə edir.**

## XİN: ABŞ, Almaniya və Fransa "Abzas media"nı qanunsuz maliyyələşdirib

**"ABŞ, Almaniya və Fransanın Azərbaycandakı səfirlikləri "Abzas media"nın qanunsuz maliyyələşdirilməsində iştirak edib"**

Adalet.az xəbər verir ki, bu barədə ABŞ-nin və Almaniyanın müvəqqəti işlər vəkilləri, habelə Fransanın fövqəladə və səlahiyyətli səfiri ayrı-ayrılıqda Xarici İşlər Nazirliyinə (XİN) çağırılarkən bildirilib.

Görüşlərdə, bu ölkələrdə qeydiyyatda olan təşkilatların iştirakı ilə "AbzasMedia" xəbər portalının qeyri-qanuni maliyyə əməliyyatları həyata keçirdiyi, eləcə də sözügedən ölkələrin səfirliklərinin də bu fəaliyyətə cəlb olunduğu diqqətə çatdırılıb və bu fəaliyyətə ciddi etiraz bildirilib.

ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin, FreedomNow, New Democracy Fund və digər təşkilatların qrant verilməsi qaydalarını pozaraq maliyyə resurslarının Azərbaycan ərazisinə qanunsuz yolla transferini həyata keçirdikləri, "AbzasMedia"nın fəaliyyətinə qanundan kənar töhfələr verdikləri qeyd olunub.

**Qrant fəaliyyəti və qrant müqavilələri haqqında Azərbaycan Respublikasının qanunvericiliyə əsasən qrant müqavilələrinin müvafiq prosedura uyğun olaraq dövlət qeydiyyatına alınmasının tələb olunduğu, qeydiyyatı həyata keçirilməyən layihələrə maliyyə ayrılmasının ölkə qanunvericiliyinin ciddi pozuntusu olduğu vurğulanıb.**

## MÜƏLLİMLƏRİ YENİCƏ MÜDAFİƏ ETMİŞDİK Kİ, TƏZƏ HOQQA ÇIXDI...



**Mən həmişə müəllimin tərəfində olmuşam, müəllim lap haqsız olsa da. İpə-sapa yatmayan övladlarımızdan adam düzəltməyə çalışan müəllimlərdir. Yazmışam, yenə yazıram - bu qədər az maaşla Azərbaycanın gələcəyi üçün ağıllı, tərbiyəli, savadlı vətəndaş yetişdirən müəllimlərin hamısı Milli qəhrəmandır.**

Bu yaxınlarda bir olay olmuşdu, bir məktəbin şagirdinin döyüldüyü haqda məlumat yayılmışdı. Sosial şəbəkələr partlayırdı, nə söz qalmadı müəllimlər haqqında yazılmasın.

Sonra Daxili İşlər Nazirliyi məsələyə aydınlıq gətirdi ki, şagird döyülməyibmiş, akt zalında başqa bir şagirdlə toqquşubmuş və sair və ilaxır. Aranın sakitləşməsindən heç iki gün keçmədi məlum oldu ki, Quba-Xaçmaz regional təhsil mərkəzinin rəhbəri məktəbdə bir oğlan uşağını saçı uzun olduğuna görə döyüb. Nəticədə istefa verməyə məcbur olub.

Mən də uzun saç saxlamağı xoşlayardım, amma buna görə müəllimlər məni döyməzdi. Hərdən mehribancasına başımı sığallayıb deyərdilər:

**-Bu saç sənə yaraşr, amma məktəbliyə yaraşmır.**

Mən də müəllimlərin sözünü yerə salmazdım, gedib saçımı kəsdirərdim və gözləyərdim ki, bir daha nə vaxt uzanacaq. Bu da bir-iki ay çəkərdi.

Layiq olmayan adamları yüksək vəzifəyə təyin edəndə nəticəsi də belə olar. Bu ərköyün müdir təkcə müəllim adına ləkə gətirməyib, böyük bir nazirliyin adına ləkə gətirib.

Şəkildən göründüyü kimi, yaraşıqlı gəncdir. Adamı vəzifəyə qoyanda yaraşığına görə yox, qabiliyyətinə görə qoyarlar.

Yaraşığa görə olsa Alen Delon ömürlük Fransanın prezidenti olardı.

## BİR TƏLXƏYİ DƏ PREZİDENT SEÇDİLƏR



**Argentina özünün yeni prezidentini seçdi - Xavyer Mileyi. Seçilən kimi də bilirsiniz ilk işi nə oldu: Təhsil və Mədəniyyət Nazirliyini ləğv elədi. ABŞ-ın keçmiş prezidenti Tramp da sevincindən atılıb-düşürdü.**

Şahlar və krallar təlxəkləri adətən ən ağıllı adamlardan seçərdilər. Çünki heç kəsin demədiyi həqiqətləri birbaşa şahın üzünə deyərdilər. Camaat da gülərdi, amma şah da hesabını götürərdi.

Necə ki "Vaqif" pyesində təlxək İbrahim xana deyir ey:

- Səndə kəmərdən qiymətli nə var?

"Qrafinya de Monsoro" filmində Şiko adlı çox müdrik bir təlxək var. Meşədə gedərkən başlayır ki, Allah, bunu belə elə (təbii ki, o, Allah demir, Tanrı deyir), onu belə elə, filan işi görsən çox yaxşı olar və sair və ilaxır.

Sonda da üzünü göyə tutub deyir:

- Allah, bağışla, mən də sənə məsləhət verirəm.

İndi təlxəklərin Allaha məsləhət verdiyi zamandı.

## Professordan təklif: "Qarabağ Universitetində təhsil fərqli olsun..."

Bax:səh-3

## SİZ ALLAH, FATEH TERİMİ GƏTİRMƏYİN



*Oxuyuram ki, Azərbaycan millisinə baş məşqçi vəzifəsinə gətirmək istəyənlərin arasında İmperatorun da adı var. Bacarıqlı, qətiyyətli və dünya səviyyəli məşqçidir, buna söz yox, amma gətirməyin. Əsəbləşəndə zəif oyunçuları basıb döyəcək. Və "Sabah"ın baş məşqçisi Murad Musayev kimi iki-üç oyundan bir qırmızı vərəqə alacaq. O da qırmızı vərəqəyə öyrəncəlidi.*

## "SUMQAYIT"LA "ZİRƏ"NİN OYUNUNUN GÖZƏLLİYİ NƏ İDİ?





**Maraqlı oyun idi. Hər iki komanda qələbə üçün özünü öldürürdü, amma oyun heç-heçə qurtardı.**

Oyunun gözəlliyi isə heç də futbol deyildi, stadiona yığışan və komandalarını sonadək dəstəkləyən azarkeşlər idi. Bütün tribunalar dolu idi. Dəfələrlə yazmışam və yenə yazıram, futbolun gözəlliyi azarkeşlərdi. Yoxsa azarkeşsiz futbol vodkasız xaş kimi bir şeydi.

## Peskov: "Qərb Qarabağ ətrafında sabitliyi pozmağa çalışır"



**"Bəzi Qərb ölkələri Qarabağ ətrafında sabitliyi pozmağa çalışır və regionda Rusiyaya qarşı açıq şəkildə mübarizə aparırlar".**

Adalet.az xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov "Rossiya-1" telekanalının efirində deyib. "Yəqin ki, 3, 4, 5 il əvvəl də oxşar mübarizə diplomatik maskalarla aparılıb. İndi bu maskalar çoxdan atılıb və mübarizə birbaşa baş-başa, açıq şəkildə aparılır. Həqiqətən də, bir sıra ölkələr hələ də Qarabağ ətrafında sabitliyi pozmağa çalışırlar. Yeri gəlmişkən, Azərbaycan tərəfi rəsmi şəkildə bəyan etdi ki, bu sayda dövlətlər çətin ki, hər hansı vasitəçi roluna iddia edə bilər. Çünki onlar öz öhdəliklərini birtərəfli yerinə yetirirdilər. Təbii ki, belə birtərəfli mövqe tutaraq nəyisə iddia etmək həm qeyri-mümkün, həm də yersizdir", - deyə Peskov bildirib.

## «Yeni il»də istirahət günləri açıqlandı

**31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il bayramı ilə əlaqədar Azərbaycanda 4 gün iş olmayacaq.**

Adalet.az xəbər verir ki, 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü və 1-2 yanvar Yeni illə bağlı bayram günləri elan edilib.

Müvafiq olaraq 2023-ci il 31 dekabr bazar gününə təsadüf etdiyindən Əmək Məcəlləsinə əsasən iş və istirahət günlərinin yeri dəyişdiriləcək, 2024-ci il 3 yanvar tarixi qeyri-iş günü olacaq.

**Beləliklə, Yeni ildə 4 gün ardıcıl qeyri-iş günü olacaq.**

## GÖRƏSƏN, BU TUALETLƏRİ NƏ VAXT AÇACAQLAR?



**Kimi və nəyi gözləyirlər?**

Bakı-Astara yolunu çox gözəl çəkiblər, adamın ruhu dincəlir. Yolun hər iki kənarında da çox yaraşıqlı və uyğun istirahət yerləri tikiblər. Mən Avropanı gəzmişəm, eləcə də Türkiyəni, orda da yolun kənarında istirahət yerləri var, amma Bakı-Astara yolundakılara çatmaz. Yəni yorulan adam yaydırsa açıq havada, qışdırsa örtülü məkanda çay da içə bilər, özünün yeməyini də yeyə bilər, çox rahatdı.

İstəsə tualetdən də istifadə edə bilər. Çox təəssüf ki, aradan üç il keçməsinə baxmayaraq, istirahət yerlərinə girib-çıxan yol lentlə bağlıdır, istirahət yerləri, tualetlər də bağlıdır.

Ona görə də tualetlik işi olan adamlar yolun kənarında kol dibi axtarmalıdır, yolun kənarı da dəmir torla tutulduğundan bu da mümkün deyil.

**Dostlar, yuxarıda dediyim kimi, kimi və nəyi gözləyirsiniz? Açın, heç olmasa bir-iki nəfər də işlə təmin olunar.**

Aqil ABBAS
aqilabbas@rambler.ru

## HEYDƏR ƏLİYEV XANKƏNDİNİ NECƏ AZƏRBAYCANLAŞDIRDI?



*Əvvəla, onu bildirmək istəyirəm ki, Xankəndi necə erməniləşmişdi? Xankəndi və Xanbağı Qarabağ xanlarının qışlağı idi. Xanbağı xanın iqamətgahı, Xankəndi isə nökər-naibinin, əsgərlərinin, at qaşovlayanlarının, sənətkarlarının, bazarçılarının yaşadığı yer idi.*

*Elə ki İbrahim xan məcburən Rusiya ilə müqavilə bağladı və Xankəndində mayor Lisaneviçin komandanlığı ilə Rusiya hərbi qarnizonu yarandı. Və bu qarnizonda yerləşən əsgərlərə və əsgər ailələrinə qulluq eləyənlər lazım idi - çəkməçisi, pinəçisi, at qaşovlayanı, donuz saxlayanı, aşpazı, dərzisi və sair, at ilxısı, köpək sürüsü. Və təbii ki, heç bir azərbaycanlı bu işləri görməyə razı olmurdu. Və Azərbaycanda təhkimçilik də yox idi ki, Xan kimlərisə bu işlərə vadar edəydi. Ona görə də ətraf sığnaqlarda yaşayan ermənilər həmişə olduğu kimi, yenə də nökərçiliyi öz üzərlərinə götürdülər və Xankəndinə axışmağa başladılar. Və beləlilklə, şəhər erməniləşməyə başladı. Sonra İrandan köçürülən ermənilər də Rusiya vasitəsilə məcburi şəkildə bu şəhərdə yerləşdirildilər.*

*Şəhərdə azərbaycanlılar da yaşayırdı, əsasən Xankəndinin yasamalı sayılan Kərkicahanda və bir də bazar-dükan azərbaycanlıların əlində idi.*

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ



Hidayət Elvüsalla Vəli Xramçaylı söhbət edirlər.

Hidayət müəllim:

**- Vəli, sən məhəbbətdən, sevgidən yazan şairsən. Səncə dünyada ideal cütlüklər var?**

Vəli Xramçaylı:

**- Bə nədi qağa, odey limonla araq, viskiylə koka-kola, pivəylə duzlu balıq, o qədər belə qəşəng cütlüklər var ki...**

## Əli Nağıyev İlham Əliyevə raport verdi



**Azərbaycan Prezidenti İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin yeni inzibati binalarının açılışında iştirak edib.**

Adalet.az xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısına məlumat verildi ki, inşasına 2021-ci ilin martında başlanmış inzibati binaların tikintisi bu ilin avqustunda yekunlaşıb. İnşaat işləri müasir standartlara uyğun aparılıb, binalar bütün zəruri avadanlıq və inventarlarla təmin olunub, burada əməkdaşların xidməti fəaliyyətlərini səmərəli həyata keçirmələri üçün hər cür şərait yaradılıb.

Əvvəlcə foyedə quraşdırılmış monitorda son illər ərzində Dövlət Təhlükəsizliyi Xidmətinin mərkəzi aparatında və ərazi orqanlarında aparılan əsaslı tikinti-quruculuq işlərindən bəhs edən videoçarx nümayiş olunub.

Bildirildi ki, binanın giriş hissəsində Ümummilli Lider, Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, bu orqanların inkişafında müstəsna xidmətləri olan Heydər Əliyevin barelyefi qoyulub, Ulu Öndərin arxiv sənədlərinin nümayiş olunduğu guşə və dahi şəxsiyyətin mənalı ömrünün 25 ilini həsr etdiyi təhlükəsizlik orqanlarındakı fəaliyyətini əks etdirən fotoşəkillərdən ibarət stend yaradılıb.

Sonra dövlətimizin başçısı xarici xüsusi xidmət orqanları ilə qurulan tərəfdaşlıq münasibətlərinin səviyyəsini və tarixini simvolizə edən muzeydə sərgilənən eksponatlara baxıb.

Qeyd edildi ki, binada Dövlət Təhlükəsizliyi Xidmətinin mərkəzi aparatının bəzi struktur bölmələrinin yerləşdirilməsi nəzərdə tutulur. Bina iş və iclas otaqlarından, rəhbər və şəxsi heyət üçün ikimərtəbəli yeməkxanadan ibarətdir.

Dövlətimizin başçısı xidməti otaqlarla və burada əməkdaşlar üçün yaradılan şəraitlə yaxından tanış olub.

Ali Baş Komandan İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı dəstəsinin istifadə etdiyi xüsusi vasitələrə, silahlara, avadanlıqlara, dron cihazlarına və xüsusi təyinatlı avtomobillərə də baxış keçirib.

Həmçinin Azərbaycan Prezidentinə digər inzibati binada yerləşən və ən son texnoloji yenilikləri özündə birləşdirən kriminalistika, əməliyyat və şəbəkə idarəetmə mərkəzləri təqdim olunub, cinayət işlərinin təhqiqatı və müvafiq əməliyyat tədbirlərinin həyata keçirilməsi istiqamətində bu mərkəzlərin imkanları barədə məruzə edilib.

Prezident İlham Əliyev şəxsi heyətin fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılmış və müasir idman avadanlıqları ilə təchiz edilmiş mərkəzlə də yaxından tanış olub.

Sonda Prezident İlham Əliyev şəxsi heyətə xidməti fəaliyyətlərində uğurlar arzulayıb, əməkdaşların öz vəzifələrini bundan sonra da layiqincə yerinə yetirəcəklərinə inamını ifadə edib.

## Prezident İlham Əliyevin Ərəb Əmirliklərinin Prezidenti ilə görüşü olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil olunacaq Dünya İqlim Fəaliyyəti Sammitində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərində səfərdədir.**

Dövlətimizin başçısının noyabrın 30-da Dubay şəhərində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşü olub.

## *Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Skopyedə görüşü planlaşdırılmır*

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla və Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Xarici İşlər Nazirləri Şurasının 30-cu iclası çərçivəsində görüşü planlaşdırılmır.**

Bunu Ermənistanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

"Ermənistanın və Azərbaycanın xarici işlər nazirlərinin Skopye şəhərində ATƏT-in Nazirlər Forumu çərçivəsində görüşü planlaşdırılmır", - Ermənistan XİN qeyd edib.

Qeyd edək ki, bu gün Azərbaycan və Ermənistan baş nazirlərinin müavinləri Şahin Mustafayev və Mqer Qriqoryan iki ölkə sərhədlərinin delimitasiyasını müzakirə edəcək.

Məlumata görə, baş nazir müavinlərinin görüşü Qazax-İcəvan sərhəddində keçiriləcək.

## *Azərbaycan BMT-nin İnsan Hüquqları şurasının universal dövri icmal prosesi üzrə hesabatını təqdim edib*



**Bir neçə gün əvvəl Azərbaycan BMT-nin İnsan Hüquqları şurasının universal dövri icmal prosesi üzrə hesabatını təqdim edib. Beş ildən bir təqdim olunan bu hesabat insan hüquq və azadlıqlarının icrası istiqamətində işləri özündə əks etdirir.**

Bunu "İnsan Hüquqları - 75 Bakı Konfransı: Qlobal və milli çağırışların həlli üçün universallığın və bölünməzliyin təşviq edilməsi" mövzusunda beynəlxalq konfransda Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Yalçın Rəfiyev deyib.

O bildirib ki, təqdim olunan hesabata reaksiya olaraq BMT-yə üzv dövlətlərin əksəriyyəti Azərbaycanda insan hüquqlarının müdafiəsi və təşviqi istiqamətində həyata keçirilən islahatları yüksək qiymətləndirərək davam etməyi tövsiyə edib.

Qeyd edək ki, Bakıda "İnsan Hüquqları - 75 Bakı Konfransı: Qlobal və milli çağırışların həlli üçün universallığın və bölünməzliyin təşviq edilməsi" mövzusunda beynəlxalq konfrans keçirilir. Konfrans Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının, BMT-nin Azərbaycan Nümayəndəliyinin və Vəkillər Kollegiyasının birgə təşkilatçılığı ilə baş tutur.

**Konfransda dövlət qurumlarının, beynəlxalq təşkilatların və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri iştirak edirlər.**

# Azərbaycan-Ermənistan delimitasiya komissiyasının iclası keçirilildi



**30 noyabr tarixində Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın beşinci görüşü keçirilib.**

XİN-dən Adalet.az-a verilən xəbərə görə, tərəflər delimitasiya məsələlərinin müzakirəsini davam etdirib, bir sıra təşkilati və prosedur məsələləri nəzərdən keçiriblər. Tərəflər Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiya arasında iclasların və birgə işçi görüşlərin təşkili və keçirilməsi Reqlamentinin mətnini ilkin olaraq razılaşdırıblar. Tərəflər Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırılması üzrə işin başlanılması barədə sövdələşiblər, həmçinin komissiyaların görüşlərinin keçirilməsinin intensivləşdirilməsinə dair razılığa gəliblər.

Tərəflər həmçinin Komissiyaların növbəti görüşünün keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

## XİN: "AHİM Ermənistanın dürüst olmadığını gördü"

**Avropa İnsan Haqları Məhkəməsinin (AHİM) bu yaxınlarda qəbul etdiyi qərar Ermənistanın daha əvvəl işğal altında saxladığı Azərbaycan ərazilərində nəzarətinin və ya yurisdiksiyasının olmamasına dair uzunmüddətli mövqeyini ifşa edib.**

Adalet.az xəbər verir ki, bu barədə xarici işlər nazirinin müavini Elnur Məmmədov "X" platformasındakı paylaşımında qeyd edib.

O bildirib ki, AİHM-in 17 oktyabr 2023-cü il tarixli "Hovhannisyan və Karapetyan Ermənistana qarşı" işi üzrə verdiyi hökmdə Ermənistan Respublikasının vətəndaşları R. Hovhannisyanın və A. Sarqsyanın 2009 və 2008-ci illərdə Ermənistan ordusuna çağırıldıqları və "Dağlıq Qarabağ silahlı qüvvələri"nin 36 535 saylı hərbi hissəyə göndərildikləri qeyd edilib.



Bildirilib ki, 2010-cu ilin iyulunda hər iki hərbi qulluqçu öz hərbçi yoldaşları tərəfindən daxili insident nəticəsində qətlə yetirilib və öldürülən hərbçilərin valideynləri təzminat üçün Ermənistanı məhkəməyə verib. Elnur Məmmədov qeyd edib ki, məhkəmə artıq digər işlərdə Ermənistanın sözügedən ərazi üzərində yurisdiksiyası məsələsini araşdırıb və müəyyən edib ki, Ermənistan Dağlıq Qarabağ və ətraf ərazilər üzərində effektiv nəzarət həyata keçirib.

Elnur Məmmədov qeyd edib ki, Ermənistan o zamanlar işğal altında saxladığı Azərbaycanın ərazilərində törədilən istənilən cinayətə görə dövlət məsuliyyətindən qurtulmaq məqsədilə uzun müddət bu ərazilər üzərində heç bir nəzarəti və ya yurisdiksiyası olmadığı mövqeyində olub.

"Diplomatik desək, AHİM Ermənistanın dürüst olmadığı qənaətinə görüb", - Elnur Məmmədov qeyd edib.

## Politoloq: "Ermənistan tərəfi bu kimi mövqeyində ədalətsizdir..."

**"Ümumiyyətlə, Azərbaycanla Ermənistan arasında aparılan danışıqlar zamanı hər iki tərəfdə saxlanılan əsirlər barədə də danışıqlar olacaq. Amma biz həmin ermənilərin hansı maddələrlə saxlanıldığını nəzərə almalıyıq"**

Bunu Adalet.az-a açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Politoloq daha sonra bunları əlavə edib:

"Azərbaycanda saxlanılan erməni hərbçiləri terrorçudurlar və onlar müharibədən sonra ərazilərimizə sızaraq terror təxribatı törətməyə cəhd ediblər və Azərbaycan da onları saxlayıb. Qaldı ki, separatçıların Bakıda saxlanılmasıyla bağlı Ermənistan bu məsələyə qarışa bilməz, çünki bu Azərbaycanın daxili işidir. Amma Ermənistanda saxlanılan iki Azərbaycan hərbi qulluqçusu göründüyü kimi fiziki cəhətdən zəif və yolu azmış hərbi qulluqçulardır. Ermənistan tərəfi onlara qarşı qeyri-qanuni işgəncə verərək azadlıqdan məhrum edib. Ermənistan iki əsgərimizi Azərbaycana qarşı danışıqlar predmetinə gətirib çıxarmaq istəyir. Məhz onları ona görə Azərbaycana təhvil vermədilər ki, onların hesab etdikləri erməni əsirlərini Azərbaycan geri versin.

Düşünürəm ki, Ermənistan tərəfi bu kimi mövqeyində ədalətsizdir, çünki Ermənistan tərəfi çox yaxşı bilir ki, əsgərlərimiz dumanlı havada yolu azıblar. Amma Ermənistan tərəfi göründüyü kimi ortaya bu cür qeyri-qanuni mövqe qoyub. Əsir mübadiləsini beynəlxalq müstəviyə çıxarıb Azərbaycana qarşı təzyiqlər etməyə çalışır. Ermənistanın əsl məqsədi Bakıda saxlanılan erməni terrorçularını hərbi əsir kimi təqdim etmək və onların dəyişdirilməsinə nail olmaqdır. Amma düşünürəm ki, Azərbaycan tərəfi qəti şəkildə bu məsələyə gedə bilməz. Bakıda saxlanılan terrorçulara artıq iş kəsilib və onların aministiyası əlbəttə ki, Cənab Prezidentin sərəncamındadır. Əgər Ermənistanla bütün məsələlər yolunda gedərsə, normallaşma prosesində Ermənistanın səmimiliyi aydın olarsa, Azərbaycan bir neçə erməni əsirinin azad olunması istiqamətində addım ata bilər. Amma hazırkı situasiyada Ermənistan tərəfi Azərbaycana qarşı ittihamlarla çıxış edirsə, bunu əsir mübadiləsi kimi qələmə verməyə çalışırsa, əlbəttə ki, Azərbaycan buna getməz deyə"-politoloq bildirib.

Qeyd edək ki, Ermənistanın baş naziri Nikol Paşinyan çıxışı zamanla Ermənistanda saxlanılan azərbaycanlı əsirləri Azərbaycanda saxılanılan erməni əsirlərlə dəyişdirməyə hazır olduqlarını bildirib.

**Vasif**

## "Ermənistan şantaja əl atıb və bildirir ki..."

**"Ermənistan belə düşünürdü ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) və orda ilk növbədə hərbi siyasi qüvvə olan Rusiya onların Qarabağ məsələsindəki mövqeyini müdafiə edəcək"**



Bunu Adalet.az-a açıqlamasında politoloq Zərdüşt Əlizadə deyib. Politoloq daha sonra bunları əlavə edib:

"Amma Rusiya bunu etmədi və əsası da odur ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv dövlətlərin qanuni ərazilərinə təcavüz olarsa, o üzv dövlətlərini müafiə edir. Qarabağ isə üzv dövlətin qanuni ərazisi deyil. Ona görə Rusiya bu işə qarışmır.

Ermənilər isə bu işdən incidi və başladılar Kollektiv Təhlükəsizlik Müqaviləsini (KTMT) gözümçıxdıya salmağa. Sonda da əməli olaraq onun iclasında iştirak etmədilər. Amma bu o demək deyil ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxacaq. Hələlik (KTMT) Ermənistan üçün onun təhlükəsizliyini təmin edən beynəlxalq hüquqi bir mezanizmdir. Ona görə onlar Rusiyaya və başqa dövlətlərə naz eləyirlər, amma KTMT-dən çıxmaq fikirləri yoxdur. Hələ bilmirlər ki, Rusiya-Ukrayna müharibəsinin sonu necə olacaq, kim qalib gələcək?! Sülh hansı əsaslarla bağlanacaq? Rusiyanın gücü çatacaqmı ki, Cənubi Qafqazda öz mövqelərini bərpa eləsin. Çünki Rusiya nüvə dövlətidir, heç kəsdən çəkinmir, özünü çox azğın və ötkəm aparır. Ermənistan siyasi oyun apararaq KTMT-nin işlərinə qarışmır, amma əməli olaraq bu təşkiların üzvüdür və belə də qalacaq. Ermənistan şantaja əl atıb və bildirir ki, mənim arzu və istəklərimi nəzərə alın ki, biz də bu iclaslara qatılaq. Ümumiyyətlə, Ermənistanın Rusiyadan ayrılıb Qərbə getməsi ona bənzəyir ki, dəmir qəfəsin içində olan Ermənistan iqtisadi, siyasi, təhlükəsizlik baxımdan Rusiyadan asılıdır və deyir ki, mən Qərbə gedirəm. Qəfəsin içində olduğu üçün isə Rusiya buna fikir vermir".

Qeyd edək ki, Ermənistan nümayəndə heyəti noyabrın 23-ü Minskdə keçirilən KTMT sammitində iştirak etməyib. Ermənistanın Baş naziri Nikol Paşinyan sammitdən bir müddət əvvəl Belarus Prezidenti Aleksandr Lukaşenko ilə telefon danışığı zamanı tədbirdə iştirak etməyəcəyini deyib. Bununla yanaşı, ölkənin XİN rəhbəri Ararat Mirzoyan da sammitə getməyib.

KTMT-nin Baş katibi İmanqali Tasmaqambetov isə açıqlaması zamanı Ermənistan nümayəndə heyətinin sammitdə iştirak etməsindən hər hansı bir nəticə çıxarmağın mənası yoxdur deyə bildirib.

**Vasif Əlihüseyn**

## Tənzilə Rüstəmxanlı: «Gənc gəlinləri yolundan çıxaran sosial media dələduzları...»

**"Bu hadisələrə Azərbaycanda yaxın tarixmizdə çox az təsadüf edərdik. Amma çox qəribədir ki, son dönəmlərdə qətl hadisələrinə tez-tez rast gəlirik. Düşünürəm ki, bunu sadəcə hüquq-mühafizə orqanları deyil, ümumiyyətlə millət olaraq ictimai rəydə bu hadisələri qınaq obyektinə çevirmək lazımdır"**

Bunu Adalet.az-a açıqlamasında Azəri-Türk Qadınları Birliyinin sədri Tənzilə Rüstəmxanlı qadın qətləri haqda danışarkən deyib. T.Rüstəmxanlı bu istiqamətdə maarifləndirici işlərin aparılmasının vacib olduğunu bildirib:

"Biz axı belə toplum deyilik, qadına münasibətimiz bir başqa olub. Bir az bu sosial medianın geniş yayılması, gənclərin bunun aludəçisi olması müxtəlif problemlər yaradır. Amma bunların heç bir gərək insan ölümünə aparıb çıxarmasın. Mənə elə gəlir ki, bunu yaradan səbəblər araşdırılmalıdır, təhlil edilməlidir. Onların ortadan qalxması üçün də tədbirlər görülməlidir.

Sizə bir misal deyim. Bu yaxınlarda bir dostumuzun toy məclisinə getmişdik. Masamızın çevrəsində demək olar ki, çoxusu gənc xanımlar əyləşmişdi. Hətta orta yaşlı nümayəndələr də var idi. Siz inanın ki, mən o məclisdə çox otura bilmədim. Bir saat müddətində gördüm ki, gənclərimiz telefondan başlarını qaldırmadılar. Ətrafa baxmadılar ki, gələn kimdi, burda nə baş verir. Yəni bu səviyyədə aludəçiliklər müxtəlif ailələrdə rahatsızlıqlar yaradır. Gənc gəlinləri bəzən



yolundan çıxaran sosial media dələduzları var. Ailələr dağılır. Bunların hamısı problemdir. Bu səbəblər ortadan qalxmalıdır, ictimai qınaq olmalıdır. Hüquq-mühafizə orqanları bu məsələlərdə də çox ciddi qanunauyğun, ədalətli qərarlar verməlidirlər. Bəzən qatilə o qədər yüngül bir cəza kəsilir ki, ortaya onun etdiyi əmələ haqq qazandırma predmetləri qoyulur.

Cəzasızlıq isə sonda cinayətə gətirir. Ona görə də inanın ki, bunlar mənə çox ağır gəlir. Bir təşkilat rəhbəri, qadınlarla işləyən biri olaraq da narahatam. Ümumiyyətlə, insanlarımızın maarifləndirilməsi çox önəmlidir. Qadına baxış münasibəti dəyişdirilməlidir. Qadını öldürmək, ona zəif məxluq kimi baxmaq yolverilməzdir. Zehniyyət dəyişməlidir. Bunun üçün isə təhsil çox önəmlidir. Bu hadisələr adətən cahil toplumlarda baş verir"- deyə Tənzilə Rüstəmxanlı bildirib.

Qeyd edək ki, bu gün Gəncədə Vətən müharibəsi iştirakçısı bacısını qətlə yetirib.

**Vasif Əlihüseyn**

*Aqil ABBAS*

## HEYDƏR ƏLİYEV XANKƏNDİNİ NECƏ AZƏRBAYCANLAŞDIRDI?

*Əvvəla, onu bildirmək istəyirəm ki, Xankəndi necə erməniləşmişdi? Xankəndi və Xanbağı Qarabağ xanlarının qışlağı idi. Xanbağı xanın iqamətgahı, Xankəndi isə nökər-naibinin, əsgərlərinin, at qaşovlayanlarının, sənətkarlarının, bazarçılarının yaşadığı yer idi.*

*Elə ki İbrahim xan məcburən Rusiya ilə müqavilə bağladı və Xankəndində mayor Lisaneviçin komandanlığı ilə Rusiya hərbi qarnizonu yarandı. Və bu qarnizonda yerləşən əsgərlərə və əsgər ailələrinə qulluq eləyənlər lazım idi - çəkməçisi, pinəçisi, at qaşovlayanı, donuz saxlayanı, aşpazı, dərzisi və sair, at ilxısı, köpək sürüsü. Və təbii ki, heç bir azərbaycanlı bu işləri görməyə razı olmurdu. Və Azərbaycanda təhkimçilik də yox idi ki, Xan kimlərisə bu işlərə vadar edəydi. Ona görə də ətraf sığnaqlarda yaşayan ermənilər həmişə olduğu kimi, yenə də nökərçiliyi öz üzərlərinə götürdülər və Xankəndinə axışmağa başladılar. Və beləlilklə, şəhər erməniləşməyə başladı. Sonra İrandan köçürülən ermənilər də Rusiya vasitəsilə məcburi şəkildə bu şəhərdə yerləşdirildilər.*



*Şəhərdə azərbaycanlılar da yaşayırdı, əsasən Xankəndinin yasamalı sayılan Kərkicahanda və bir də bazar-dükan azərbaycanlıların əlində idi.*

*Xankəndinin azərbaycanlılaşdırılması Ulu Öndər Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra başladı. Heydər Əliyev birinci olaraq Xankəndində Pedaqoji İnstitut açdı və bu institutda Azərbaycan bölməsi də yaradıldı. Qarabağdakı gənclər Bakıda deyil, ailələrinə və evlərinə əlçatan qədər yaxın olan Xankəndində oxumağı daha üstün tutdular. İnstituta ətraf rayonlarda çalışan yüzdən çox müəllim göndərildi, təbii ki ailələri ilə bərabər. Prorektor, dekanlar azərbaycanlılar təyin olundular. Texniki işçilər də demək olar ki, azərbaycanlılardan ibarət idi.*

*Tələbələrin dalınca valideynlər demək olar ki, hər gün Xankəndinə gedirdilər. Bəziləri öz övladlarını maşınla aparır və dərs bitənədək gözləyirdi. Hələ qızların ardınca gedən cayılları demirəm. Beləliklə, şəhərdə hara gedirdin hamı azərbaycanca danışırdı. Hələ erməni qızlarının dalınca gedən ağdamlıları, şuşalıları demirəm. Beləcə, şəhər getdikcə Azərbaycan şəhərinə çevrilirdi.*

*Yeri gəlmişkən bir hadisə yadıma düşdü. Georqov İsa bulağında azərbaycanlı yazıçı və şairlərə Vaqif poeziya günündən sonra qonaqlıq verirdi. Xankəndinin İcraiyyə Komitəsinin erməni sədri şair Ənvər Əhmədə dedi ki, bir qohumum var, bu il onu instituta götürərsiniz.*

*Ənvər Əhməd bir az qımışıb çəp-çəp İspalkoma baxdı və dedi:*

*- Niyə götürmürük, götürərik, amma pulunu gərək bəri başdan verəsən.*

*Hamını gülmək tutdu. Yəni onu demək istəyirəm ki, ermənilər bu institutda at oynada bilmirdilər.*

*Bundan başqa, Heydər Əliyev Xankəndində bir neçə zavod və fabrik açdı. Təbii ki, işçi qüvvəsi çatışmırdı, yaxın Azərbaycan kəndlərindən bu zavod və fabriklərə işçi axını artdı. Hətta məcbur olub Xankəndinin Malıbəyli istiqamətində fabrik və zavodlarda çalışan azərbaycanlılar üçün mikrorayonlar tikdilər.*

*Xankəndinin əhalisi, ermənilərin şişirtmə rəqəmlərini çıxsaq, təxminən 40-45 min idi ki, onun da 10-15 mini azərbaycanlılar idi.*

*Möhtərəm Prezidentimiz İlham Əliyev Xankəndində "Qarabağ Universiteti"nin yaradılması ilə bağlı çox vacib bir sərəncam imzalayıb. Bu universitetdə 5-10 min gəncin təhsil alması şəhərin yenidən canlanması üçün vacib rol oynayacaq. Və şəhərə daha böyük bir qayıdışın əsasını qoyacaq. Burda yaşayacaq adamlarla bərabər tələbə və müəllimlər şəhərin havasını isidəcək, hərarətini artıracaq.*

*18-ci əsrdə Rusiya burda hərbi qarnizon yaratmışdı, 21-ci əsrdə Möhtərəm Prezidentimiz İlham Əliyev tələbə qarnizonu yaradır.*

*İndidən gələcəkdə həmin universitetdə işləyəcək müəllimlərə və təhsil alacaq gənclərə uğurlar arzulayıram.*

*Və sonda. Xankəndi Pedaqoji İnstitutunun vaxtilə tələbəsi olmuş polkovnik Hikmət Cəmiloğluna da gözaydınlığı verirəm.*

## *BQXK Ermənistanda əsir saxlanılan hərbçilərimizə baş çəkdi*

**Noyabrda ayında BQXK əməkdaşları Ermənistanda saxlanılan Azərbaycanlılara yenidən baş cəkiblər.**

Adalet.az xəbər verir ki, bu barədə BQXK-nın Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova məlumat verib.

O bildirib ki, saxlanılan şəxslərlə təkbətək görüşlər keçirilib və onların ailələri ilə əlaqə yaratmaları üçün şərait yaradılıb.

"Mandatına uyğun olaraq BQXK, bu cür başçəkmələr zamanı saxlanılan şəxslərlə rəftarı və saxlanma şəraitini qiymətləndirir. BQXK həmçinin, şəxslərin ailələri ilə əlaqələrini bərpa etmək və ya davam etdirmək üçün şərait yaradır. BQXK-nın prosedurlarına uyğun olaraq, başçəkmələrlə bağlı müşahidələr və tövsiyələr yalnız saxlayan tərəflə paylaşılır və müzakirə edilir".

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan ordusunun itkin düşmüş əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu Ermənistan tərəfindən əsir götürülüb.

Aqşin Bəbirov və Hüseyn Axundov "Ermənistanın dövlət sərhədini qanunsuz keçməkdə, odlu silah və döyüş sursatı daşımaqda" ittiham olunurlar, onlar həbs edilib. Hüseyn Axundov "Zəngəzur mis-molibden kombinatının gözətçisini qətlə yetirməkdə" də təqsirləndirilir.

## *"Fələstin dövləti yaradılmalıdı"*

**Fələstin dövlətinin yaradılması, İsrailin təhlükəsizliyi üçün ən yaxşı tıminat ola bilər.**



Bu barədə Finicial Times qəzetinə bildirən Avropa xarici siyasət diplomatiyaslnın rıhnəri Jozep Borrelin fikirincə, Qəzza bölgəsinin nəzarət olunmayan silahlı birləşmələrin əlinə keçməməsi üçün, öz xalqını təmsil edən dövlət qurulmalıdır.

Borrel, həmçinin Fələstin administrasiyasının zəfiləməsindən qaçmaq lazım olduğunu vurğulayıb.

**Rüstəm Hacıyev**

## Professordan təklif: “Qarabağ Universitetində təhsil fərqli olsun...”



**”Xankədidə Qarabağ Universitetinin yaradılması şübhəsiz ki, böyük hadisədir. Bunun ən böyük əhəmiyyəti ondan ibarətdir ki, işğaldan azad olunmuş ərazilərdə böyük qayıdış proqramı əsasında bu yaradılır. Böyük qayıdış da o deməkdir ki, təkcə ora qayıdan insanlar deyil, yeni infrastruktur qurulur, insanların davamlı məskunlaşması üçün tədbirlər görülür və təhsil müəssisələrinin yaradılması da həmin tədbirlərdən biridir”**

Bunu Adalet.az-a açıqlamasında professor Qulu Məhərrəmli deyib. Q.Məhərrəmli daha sonra bunları əlavə edib:

”Qarabağ Universitetinin məhz Xankəndidə yaradılması, bundan əvvəl mövcud olmuş Xankəndi Pedaqoji Universitetinin ənənələri üstündə yaradılması, həm bir az yaddaşı təzələməkdi, həm də təhsil strategiyasına uyğundu, həm ora köçən əhalinin, həm də Azərbaycanın müxtəlif bölgələrində yaşayan bizim gənclərimizin həmin Universitetə daxil olması üçün belə bir baza yaradılır.

Amma mən arzularımı da bildirərdim ki, bu təhsil müəssisəsi başqa idarəçilik prinsipləri əsasında yaradılsın. Yəni onun idarəçiliyi, təhsilinin qurulması fərqli olsun. Məsələn, Bakıda vaxtilə Cümhuriyyət qurulanda Tiflisdən mütəxəssisləri çağırmışdılar, çünki Azərbaycanda ali təhsil qurmaq, idarə etmək ənənəsi həmin dövr üçün yox idi. İndi bizdə ali məktəblər var, amma bununla yanaşı, çox arzulayardım ki, bura xarici ölkələrdən mütəxəssislər dəvət olunsun. Sıfırdan başalayaraq Qarabağ Universiteti tamamilə yeni, əsl nümunəvi təhsil ocağı kimi yaradılsın və o cür də fəaliyyətə başlasın. İndi mən əminəm ki, qarşıdakı ildə Xankəndidəki Qarabağ Universiteti ilk tələbələrini qəbul edəcək”.

**Vasif**

## Lavrovun etirafı: “Heç kimin bizi sevmədiyi bir həqiqətdir”



**”Əslində heç vaxt Rusiyanı heç kim sevməyib, ondan situasiya koalisiyaları yaratmaq üçün istifadə ediblər və bu, faktdır”.**

Adalet.az xəbər verir ki, bunu bu gün ”Primakov oxunuşları” beynəlxalq elmi-ekspert forumunun doqquzuncu dəfə keçirilən konfransında Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib:”Bu bir həqiqətdir ki, bizi heç kim həqiqətən sevməyib. Situasiya koalisiyaları yaradaraq bizdən fransızlar, ingilislər, almanlar, avstro-macarlar tərəfindən istifadə olunması da faktdır”, - Lavrov bildirib. Qeyd edək ki, forum E.M. Primakov adına Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun təşəbbüsü ilə noyabrın 27-28 tarixlərində keçirilir.

***P.S.* Lavrovun üzülərək ”bizi heç kim sevmir” deməsi əslində rusları - Rusiyanı idarə edən hakimiyyətin son 30 ildə qonşularına və dünyanın bəzi dövlətlərinə və əhalilərinə qarşı apardıqları siyasətin süjetinə baxsalar, yəqin ki, bu qədər təəssüflənməzlər.**

**Əntiqə Rəşid**

# Azər Turanın 60 illik yubileyi qeyd edildi

**Tənqidçi, publisist, filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, ”Ədəbiyyat qəzeti”nin baş redaktoru Azər Turan Neftçala şəhərində yerləşən Heydər Əliyev adına Mədəniyyət Mərkəzində 60 illik yubileyi keçirilib.**

Tədbirdə Aqil Abbas, Çingiz Abdullayev, Nizami Cəfərov, Elnarə Akimova, Alqış Musayev və başqaları iştirak ediblər. Ziyalılar həmçinin, Azər Turanın atası məşhur ədəbiyyat adamı, ədəbiyyatşünas İmamverdi Əbilovun ev muzeyini də ziyarət ediblər.





Qeyd edək ki, Azər Turan yaradıcılığa 1980-ci illərin əvvəllərində başlayıb, 40-dan artıq kitabı nəşr olunub, Əli bəy Hüseynzadə və Hüseyn Cavid irsinin tədqiqatçısı kimi tanınır, əsasən, türk düşüncə tarixini, türk ədəbiyyatında modernizm cərəyanı və onun təzahür şəkillərini tədqiq edib.

**Emin**

# "Başkənd bizimdir" deyən Abramyanın 8 anklav etirazı

**Son 5 ildir izləyirəm. Ermənistanın siyasi simalarından olan ölkəsinin parlament deputatı, ”Şərəfim var” fraksiyasının katibi Tiqran Abramyan çox aktiv olanlardandır. Demək olar ki, iqtisadiyyatdan tutmuş xarici siyasətə qədər hər bir sahədə yeri gəldi, gəlmədi fikir bildirir, təklif verir, özünü ”oda-közə” vurur.**

O hətta bir dəfə açıqlama vermişdi ki, Ermənistan xarici siyasi vektorda dəyişiklik həyata keçirir, bu da geosiyasi intriqalara imkan yaradır:”Bölgədə intriqanı biz yaradırıq, sabitliyi biz pozuruq”. Növbəti dəfə Abramyan özü demiş, intriqa yaradır, sabitliyi pozmağa çalışıb. Abramyan açıqlamasında, Qazaxın 7, Naxçıvanın 1 kəndinin geri qaytarılmasını məqbul görmədiyini vurğulayır. Erməni mediası da deputaın ”yalan-palan”dan yoğrulmuş sönük, əsilsiz ”faktlar”ını bəh-bəhlə tirajlayır.

O , qeyd edib ki, Paşinyan 8 məşhur kəndin qaytarılmasından danışanda çoxları bunun hansı təhlükələr yaratdığını dərk etmir.

Deputat sonra başlayır söhbətin hansı ”təhlükələr”dən getdiyini sırası ilə deməyə: ”Birincisi, Azərbaycanın tələbləri qarşılıqlı razılaşmaları deyil, Ermənistana birtərəfli güzəştləri nəzərdə tutur”. Əvvəlcə deputatın 1-ci fikrinə iradımı oxucuların nəzərinə çatdırım:3 ildir, bütün savaş, təxribat, antiterror əməliyyatı və qarşıdurmalarda, eləcə də dəyirmi masalarda dəfələrlə uduzduqları elə bil heç umurlarında deyil. Sanki çalışırlar ki, qalib dövlətin səviyyəsində durub məsələlərin müzakirəsinə başlasınlar. Görəsən indiyənə qədər başlarına dəyən yumruqlar bunlara doğrudan təsir etməyib? Abramyan deyir: ”2-cisi Azərbaycanın nəzarətində olan ərazilər var, lakin Azərbaycan onları təslim və mübadilə üçün hazırlamır”.

Dəfələrlə qeyd etmişəm ki, bu haylar qədər həyasız toplum yer kürəsində yoxdur. Hayların yazdığı qondarma tarixə deyil, dünya tarixinə nəzər salsaq görərik ki, Rusiyanın təşəbbüsü ilə 1813-1828-ci ildə Azərbaycan torpaqlarına sürülən hayların Qafqazda bir qarış torpaqları olmayıb. Özəlləşdirdikləri ƏRMƏN -qıpçaq türk tayfalarının müsəlmanlığı qəbul etməmiş ağılsızlarını da özlərinə alət edib , torpaq davasına qalxıblar.

İddia etdikləri, Başkənd kəndi sırf azərbaycanlılara məxsus olub və çar Rusiyası erməniləri 1859-cu ildə Qarabağdan və Şəmşəddin rayonundan bura köçürüb və 90-cı illərin əvvəlinədək Ermənistanın Azərbaycan ərazisisində anklav formada yerləşən iri yaşayış məntəqəsi hesab olunub. Çəmbərək rayonun (Krasnoselo, Qırmızıkənd) tərkibinə verilib və adı da dəyişdirilərək Arsvaşen qoyulub. 1992-cü ilin avqustunda qüdrətli Azərbaycan ordusu ərazini ermənilərdən azad edərək, tarixi adını Başkəndə qaytarıb. Abramyan ”Azərbaycanın nəzarətində olan ərazilər” deyəndə məhz Başkəndi nəzərdə tutur. Araqarışdırıcı fikirlərinə davam edən ”şərəfi olmayan” deputat 3-cü fikrini də ortaya qoyur: ”Azərbaycanın məqsədi ”8 erməni kəndi”nə nəzarət etmək deyil, Ermənistanın strateji kommunikasiyalarına nəzarət etmək və ölkəmizin həyat qabiliyyətini sıradan çıxarmaqdır”.

İndi bu Hindistan tör-töküntüsünə necə başa sala bilərik ki, Qazax rayonunun 7 kəndi - Sofulu, Barxudarlı, Bağanis Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara, Aşağı Əskipara və Xeyrimli kəndləri Ermənistan tərəfindən işğal edilib. Kərki kəndi isə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun inzibati-ərazi vahidindədir.

1990-cı ilin yanvarında ermənilər tərəfindən işğal edilib. Hal-hazırda Ermənistanın işğalı altındadır. İndi burdan Abramyana xatırladaq ki, Ermənistan baş naziri Nikol Paşinyan bu il mayın 22-də keçirdiyi geniş mətbuat konfransında (Paşinyan həmin mətbuat konfransında Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazisinə Qarabağın da daxil olduğunu ilk dəfə etiraf etmisdi-S.H.) bildirmişdi ki, anklavlar Azərbaycanın ərazi bütövlüyünün bir hissəsidir. ”29,8 min kvadratkilometrlik Ermənistanın ərazi bütövlüyünə isə Artsvaşen daxildir. Anklavlar məsələsinin həlli üçün bir neçə variant var. Onlardan biri bu ola bilər: xəttin hər iki tərəfindəki anklav ərazilər yerləşdikləri tərəfin nəzarəti altında qalır. Digər variant isə odur ki, sülh müqaviləsi imzalandıqdan sonra Artsvaşen (Başkənd) Ermənistanın, qalan ərazilər isə Azərbaycanın suverenliyi altına qayıdacaq. Bu, siyasi nöqteyi-nəzərdən olan mövqedir, lakin hüquqi aspekt hələ də öyrənilməlidir”. T. Abramyan, Paşinyan dediyi kimi, Başkəndin ”hüquqi aspekt hələ də öyrənilməlidir”. Yəni öyrənildikdən sonra ortaya hansı mənzərə çıxacaq, bax onu da düşünməkdə fayda var!

***P.S.* Ermənistanda adi vətəndaşdan tutmuş ali vəzifədəki məmura qədər - hamısı o qədər xəstə təxəyyülə malikdirlər ki, bunları Məşədi İbad demiş yerə yıxıb ağzına-ağzına döyməkdən başqa çarə qalmır. Son olaraq, A.S.Qriboyedov Rusiya çarına göndərdiyi məktubda yazır: ”Əlahəzrət, ermənilərin mərkəzi rus torpaqlarında məskunlaşmasına izin verməyin. Onlar elə tayfadılar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlarki, bura bizim qədim dədə-baba torpaqlarımızdır”.**

***Ay sizin külünüz göyə üfürülsün, bu xəstələri hardan canımıza saldınız!***

**Əntiqə Rəşid**

*Elxan Şükürlü*

## Allah doğru yolda olanları həmişə qalib etsin



***50 gündür mühasirədə saxlanılan, döyüş meydanında tək-tənha buraxılan, köməyinə heç bir ordunun yetmədiyi HƏMAS-ın heyrətamiz mübarizəsi və ölümün özünü qorxutmağa başlayan Qəzza əhalisinin bənzərsiz dirənişi artıq bəhrəsini verir: İsrailin Netanyahu hökuməti ardıcıl olaraq, geri addım atır!***

***Bütün dünya görür ki, iradəsi sınan, mübarizə əzmi tükənən HƏMAS yox, körpələri, qadın və qocaları 50 gündür raket, bomba yağışına tutmaqla əhalini qorxutmağa, Qəzzanı təslim etməyə və boşaltmağa çalışan İsrailin Netanyahu hökumətidir!***

***Dünənədək HƏMAS-ı ”terror təşkilatı” sayaraq, onunla hər hansı təması qadağan edən, qəzzalılara təsilm olmaları üçün 24 saat vaxt verən Netanyahu hökuməti artıq, qismən də olsa, HƏMAS-ın şərtlərini qəbul etməyə başlayıb: Qətərin vasitəçiliyi ilə əldə edilən 4 günlük atəşkəs razılaşmasında HƏMAS əlindəki girovlardan 50-ni İsrail həbsxanalarında saxlanan fələstinli dustaqlardan 150-i ilə dəyişməlidir! 1 girova 3 fələstinli dustaq!***

***Artıq dünən dəyişmələrin bir hissəsi həyata keçirilib.***

***HƏMAS-ın ilk gündən istədiyi də elə bu idi: İsrail həbsxanalarında işgəncə çəkən fələstinilərin və bütövlükdə Fələstin xalqının problemlərinin beynəlxalq ictimaiyyətin diqqətinə gətirilməsi, sonda da müstəqil Fələstin Dövlətinin qurulmasına nail olunması!***

***Oktyabrın 7-dəki hücumu və ardınca 50 günlük misilisiz mübarizə örnəyi ilə HƏMAS ona nail oldu ki, artıq bütün dünya fələstinlilərin haqlı mübarizəsindən, İsrailin işğalından və Netanyahu hökumətinin vəhşiliyindən xəbər tutdu, müstəqil Fələstin Dövlətinin yaradılması isə artıq problemin ədalətli həllinin yeganə yolu kimi qəbul edilir!***

***HƏMAS və qəzzalılar bəşəriyyətə bir daha sübut etdi ki, haqlısansa, qorxaq deyilsənsə, imanlı və iradəlisənsə, savaşmaq əzmin varsa, sonda mütləq qalib gələcəksən!***

***Allah doğru yolda olanları həmişə qalib etsin, Ümmətimizi isə düşmənləri qarısında tək-tənha, çarəsiz qoymasın!***

## Təhsil eksperti: “Qarabağ Universiteti” ilə bağlı sərəncamın verilməsi...”

**”Xankəndidə ”Qarabağ Universiteti”nin yaradılması çox vacib, olduqca, lazımlı bir sərəncamdır. Bilirsiniz ki, biz neçə ildir ki, Qarabağ həsrətiylə yaşayırdıq, gözləntilərimiz var idi və bu 44 günlük Vətən müharibəsiylə öz həllini tapıb”**

Bunu Adalet.az-a açıqlamasında təhsil eksperti Nadir İsrafilov deyib. N.İsrafilov işğaldan azad edilən ərazilərimizdə təhsil müəssisələrinin yaradılmasının əhəmiyyətindən danışıb:

”Qələbədən öncə də torpaqlar işğaldan azad ediləndən sonra bu istiqamətdə orda infrastruktur yaradılması, əhalinin o ərazilərə köçürülməsi və ondan sonra ayrı-ayrı məktəblərin, universitetlərin açılması, Bakıda olan ali məktəblərin filialların orda yaradılması nəzərdə tutulmuşdu. İndi isə bu arzularımız gerçəkləşib. Artıq Şuşada məktəb tikilib, bir neçə rayonlarımızda məktəblərin təməli qoyulub. İnfrastruktur yaranandan sonra onun səhiyyəsi də, təhsili də olmalıdır. O ərazilərdə insanlarımız məskunlaşmalıdır.

”Qarabağ Universiteti” ilə bağlı sərəncamın verilməsi bir daha onu sübut etdi ki, Qarabağla bağlı biz qətiyyət göstəririk, bu istiqamətdə də dövlətimiz əlindən gələni edir. Qarabağın əvvəlki kimi elm, mədəniyyət, incəsənət mərkəzi kimi yenidəndirçəldilməsinə bu sərəncamın çox böyük təsiri olacaq”-deyə ekspert bildirib.

**Vasif Əlihüseyn**

# "8 ay müddətində şəhəri təhvil vermişik"

## “467 ailə 1801 nəfər Laçına qayıdıb”

*Parlament Jurnalistləri Birliyinin (PJB) bir qrup üzvünün səfər etdiyi Laçın şəhərində müsahibimiz ”Laçın Abadlıq” ASC-nin direktor müavini Elnur Abdullayevdir.*

**- Laçına nə qədər insan köçüb?**

- Laçında quruculuq-abadlıq işləri keçən ilin sentyabrında başlayıb. İlk ayda Bakı Abadlıq Xidməti tərəfindən mobilizasiya, yerdəyişmə aparıldı. 8 ay müddətində şəhəri təhvil vermişik. Qışda sərt soyuğa baxmayaraq, çox operativ işlər gedib. Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçına səfər etdi və 20 ailəyə evlərinin açarını təqdim etdi. Növbəti aylarda da bu proses davam edəcək. Demək olar ki, hər həftə köçümüz var. Hazırda Laçın şəhərində 346 ailə 1326 nəfər köçüb. Zabux kəndinə bu gün növbəti köç baş verib və 121 ailə 475 nəfər gəlib. Toplam 467 ailə 1801 nəfər Laçına qayıdıb.

**-Görülən işlər barədə ümumi məlumatınızı dinləmək istərdik.**

-Qeyd edim ki, işğaldan öncə Laçın şəhərində inzibati binalar istisna olmaqla 2020 fərdi, 29 ümumi yaşayış evi olub. İşğal zamanı 2020 evdən 1500-ü dağıntılara məruz qalıb. Laçın şəhəri təhvil verildikdən sonra dövlətin müəyyən qurumları tərəfindən inventarlaşma işləri aparıldı. Bu zaman təxminən 500-ə yaxın fərdi yaşayış evi və inzibati bina sağlam idi. Biz işə ilkin olaraq bunlardan başladıq. Sözügedən evlərin kimə aid olması ilə bağlı araşdırma aparıb, siyahı hazırladıq. Minadan təmizləmə işləri tam başa çatmadığına görə qismən yararlı evlərlə bağlı da işlərə başladıq. Laçın şəhərində ümumilikdə 333 min metrə qədər kommunikasiya işləri aparılıb. Biz relyeflə əlaqədar olaraq, ciddi çətinliklər yaşadıq. Magistral yolların daha geniş olmasını nəzərdə tutmuşduq. Lakin qayalıq, sərt relyef, həm də bəzi yerlərdə evlərə toxunmamaq üçün yolların genişləndirilməsi prosesini apara bilmədik. Şəhərin ara küçələrindəki bütün yolları bərpa etməyə başladıq ki, gələcəkdə sıxlıq yaşanmasın. Laçın kiçik ərazi olmasına baxmayaraq, artıq 60 kilometrə yaxın şəhərdaxili yollar çəkilib. Yeraltı magistral xətlərin hamısı çəkilib. Elektrik, təbii qaz, su ilə bağlı heç bir problem yoxdur. Şəhər içməli su ilə təmin olunub. Şəhər ərazisində 9 su anbarı, 3 yağış sularının toplanma deposu, bir ədəd çirkab sularının təmizləmə qurğusu fəaliyyət göstərir. Laçın şəhərinə Xırmanlar ərazisindən, dəniz səviyyəsindən 1800 metr hündürlükdən alternativ su kəməri istifadəyə verilib. Kəmər suyu təbii, bulaq sularından çəkilib. Uzunluğu 8900 metr olan kəmərin çəkilişində 20 min kub metrdən çox torpaq işləri görülüb. Kəmərin çəkilişini qısa müddətdə başa çatdırdıq. Açılış mərasimi Ulu Öndərin 100 illiyinə - may ayının 10-na təsadüf etdi. Başqa bir məqsəd bu dağda olan ərazinin daim yaşıl saxlanmasıdır. Bütün kommunikasiyalar tamamilə bitib. Noyabrın 7-si Laçın şəhəri və Zabux kəndinə mavi qazın verilməsi təmin edilib. Qazın layihə konseptində Füzuli tərəfdən Zəngilan istiqamətində qaz çəkilişi gözlənilirdi. İlkin olaraq 150 evdə qaz birləşmələri işləri aparılıb. Evlərin birləşməsi prosesi artıq 300-ü keçib. Bu da mərhələli şəkildə köçlə bağlıdır. Laçında 712 obyekt üzərində tikinti-quruculuq işləri davam etdirilir. Onlardan 75-i qeyri-yaşayış, 628-i fərdi yaşayış, 9-u ümumi yaşayış yeridir. 9 ümumi yaşayış massivi 144 mənzildən ibarətdir. Laçının soyuq iqlimini nəzərə alaraq, bütün evlərdə kombi istilik sistemi qurulub. Günəş şüalarının çox olduğu yerlərdə dam örtüklərində elektrik panelləri quraşdırılıb. Bu da alternativ enerji üçün istifadə olunur. Digər yandan Laçın şəhərinin özünü klassik xalq memarlıq üslubu var. Tikinti işləri qaya daşları ilə aparılıb. Biz ”Laçın olduğu kimi bərpa olunsun”, - deyə göstəriş almışıq. Buna görə də, maksimal olaraq xalq memarlıq üslubunu qoruyub saxlamağa çalışdıq. Buna da nail olduq. Laçın amfiteatr kimi olduğundan biz klassik xalq memarlıq üslubu ilə yanaşı, Şərq-Qərb memarlıq üslubunu da təyin etdik. Bu təkrarçılığın olmaması, fərqlilik üçün vacib idi. Tikinti işlərində standartlara uyğun materiallardan istifadə olundu. Müəyyən tarixi gözəllikləri olan obyektləri biz qoruyub-saxlamağa xüsusi diqqət göstərdik. Laçın şəhəri salınanda tikilən ilk obyektlərin hətta balaca bir hasarı qalmışdısa, onu dolğu ilə bərkitdik. Bayraq meydanına getdikdə, bunun şahidi olacaqsınız.

**-Bayraq meydanı nəylə seçiləcək?**

-Laçındakı Bayraq meydanı tamamilə fərqli düşünülüb: ”Bayraq meydanından baxdığımız ərazidə təxminən 22 evin olduğu ərazidə açıq hava işğal muzeyi tikilir. Burada məqsəd erməni vandalizmini təsvir etməkdir. Mərkəzi küçəni turistik ərazi kimi nəzərdə tutmuşuq. Burada nəqliyyat vasitələrinin hərəkəti qadağan olunur. Belə demək mümkündürsə, bura Bakının ”Tarqovi”si kimi olacaq. Bu küçənin sağ və sol hissəsində tarixi tikililər mövcuddur. Küçənin sonunda əvvəllər Laçın Mədəniyyət mərkəzi yerləşirdi. İşğal dövründə ermənilər onu dağıdıb. Biz onun yerində yeni konsert mərkəzi tikilib. Eləcə də teatr və gənclər mərkəzləri də inşa olunub. Bayraq meydanının yerləşdiyi küçənin yeni adı Ümummilli Lider Heydər Əliyevin adını daşıyacaq.

Laçındakı Konsert Mərkəzi 370 yerdən ibarətdir: ”Bu yerlərin 360-sı normal, 4-ü fiziki qüsurlu insanlar üçün nəzərdə tutulub. Teatr Mərkəzi açıq, qapalı, eləcə də aktyor-



luq mərkəzi olmaqla fəaliyyət göstərəcək. 1974-cü ildə Laçın şəhərində kinoteatr mərkəzi var idi. Ermənilər işğal dövründə onu dağıtmış, bir hissəsində kiçik təsərrüfat yaratmışdılar. O binaya baxış keçirəndə onun tam yararsız olduğunu gördük. Lakin Laçın sakinlərinin nostalji hisslər yaşaya bilməsi üçün oranı bərpa etməyi qərara aldıq. Mən deyərdim ki, kinoteatr Laçında olan tikililərin şah əsəridir. 230 yerdən ibarət olan kinoteatr ən son texnologiyalarla təchiz olunub. Bayraq Günü həmin teatrın açılışı oldu. Kinoteatr, Konsert Mərkəzi, Gənclər Mərkəzi olan küçə mədəniyyət küçəsi olacaq. Qədimliyi də qorumaq üçün Laçında yenilik olaraq 530 metrlik məsafədə tramvay xətti çəkmişik

**- Əhalinin məşğulluğu ilə bağlı hansı işlər görülür?**

- Əhalinin sosial durumunun artırılması üzrə dövlət proqramına uyğun olaraq, quruculuq işi başlayarkən ilk buna diqqət göstərmişik. Yanvar ayından başlayaraq Laçın sakinləri ilə görüşlər keçirməyə başladıq. Laçın şəhərinin 8 metrlik yaxınlığında Zeyirdi kəndi ərazisində olan 52 ha ərazidə Aqro və Sənaye Parkı inşa etdik. Parkda 46 müəssisəsinin fəaliyyət göstərməsi nəzərdə tutulur. 46 müəssisə üzrə 1169 vakansiya mövcuddur. Biz artıq 430 nəfər Laçın sakinini işə götürmüşük. 7 müəssisə fəaliyyətə başlayıb. Digər müəssisələr də öz fəaliyyətlərinə yaxın vaxtlarda başlayacaq. Toplam istehsal sahəsi 4800 kvadrat metr olan ”Aydınoğlu” mebel fabriki artıq qurulub. Mebel fabrikinin bütün texnologiyaları Türkiyə istehsalıdır və yeni standartlara cavab verir. Burada 54 nəfər işləyir. Onlardan ikisi Laçın şəhər sakinidir. Bununla yanaşı ayaqqabı istehsalı, tekstil, efir yağlarının istehsalı, seleksiya, istixanalar var. İstixanalarda nadir bitkilər yetişdirilir. Fəaliyyət göstərən istixana komplekslərinin sayı 12-dir. Artıq bu istixanalarda məhsuldarlıq da var. Laçın brendi yaradacağıq. Hələ ki, istixanalarda olan məhsullar Laçın sakinləri üçün nəzərdə tutulur. Lakin məhsullara daxili bazarda artıq tələbat yaranıb. Biz bu il bal və digər məhsulların istehsalına başlamışıq və qablaşdırmaya böyük əhəmiyyət vermişik. Belə deyim ki, məhsulun qiyməti qabından ucuzdur. Çünki biz gələcəkdə dünyaya çıxışı təmin etmək istəyirik. Bunun üçün marketinq işləri də aparılır. İnsanları işlə təmin edərkən onları müəyyən kurslara cəlb edirik. Elə sahələr var ki, onlar Laçında yoxdur. Neft-qaz sahəsini buna misal gətirmək olar. Laçına köçən şəxslər burada müəyyən sahədə çalışıb, pul qazanmalıdır. Vakansiyaları müəyyən etdikdən sonra insanlarla görüşür, kim hansı sahəni istəyirsə ona uyğun hazırlıq kursları keçirik. Darıkaha ərazisində peşəyönümlü kurslar açmışıq. Burada peşəyönümlü təhsil almaq mümkündür. Laçında investisya üçün qapılar açıqdır. Belə bir addım atılıb. Qapalı və açıq tipli yarmarkalar hazırlanıb. Burada sakinlər öz məhsullarını sata bilir. Buraya ətraf ərazilərdən mallarını satmaq, yaxud alış-veriş üçün gələnlərdən ötrü gecələmə yeri də var.



**- ”Laçında bahalıqdı”, ”qalma xərcləri artırılıb”,”sadə çay verilimir” kimi iddialar var. Bu barədə nə deyə bilərsiniz?**

- Bunlar hamısı cəfəngiyyatdır. İstənilən halda hər bir insan öz istəyinə uyğun hərəkət edə bilər. Məsələn, bəzi insanlar bir manatlıq çay içə bilərlər. Lakin insan da var ki 20-30 manatlıq çay seti də götürə bilər. Bunlar fərqli yanaşmalardır. Nəzərə almaq lazımdır ki, bura Bakının mərkəzi deyil. Bazalar başqa yerlərdən gəldiyi üçün daşıma xərcləri də var. Bunu da nəzərə almaq lazımdır. Ona görə də biz yerli istehsala önəm veririk. Artıq Laçında modul tipli xəstəxana, 2 nömrəli məktəb, aptek, market fəaliyyət göstərir. Məktəblərin servis avtobusları var. Ödənişsiz uşaqları evlərindən məktəbə, geriyə evlərinə aparır. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi ilə birlikdə elektron xəritə üzərində ictimai nəqliyyatın marşrutları müəyyən edilib. Zabux kəndindən Laçın şəhərinə, Laçın şəhər mərkəzindən Aqro və Sənaye Parkına, Darıkaha kəndindən şəhərdaxili üç istiqamətdə marşrutlar artıq təyin olunub.

**- Qəbristanlıqların dağıdıldığı ilə bağlı iddialar gündəmə gəlmişdi. Bu iddialarla bağlı nə deyə bilərsiniz?**

- Biri Darıkahada olmaqla ümumilikdə Laçın şəhərində 4 qəbiristanlıq var. Məsələn ən qədim qəbiristanlıqlardan biri Abdallar deyilən ərazidədir. Ancaq bu gün orada 5-6 məzar ya var, ya yox. Orada vəziyyət elədir ki, hətta insan sümüklərini görmək mümkündür. Digər məzarlıqları yabanı bitkilər örtmüşdü. Burada abadlıq işlərinin aparılması planımızda olmasa da, humanist addım atdıq. İnsanların qəbirləri ziyarət etməsini nəzərə alaraq yaşıllaşdırma qrupumuz ərazidə təmizləmə işləri apardı. ANAMA bu işdə bizə kömək etdi. Biz bu zaman dəhşətli faktlarla, vandalizmlə üzləşdik. Mərmər qəbir daşları sökülüb aparılıb, digər qəbirlər dağıdılıb. İnsanların gəlib dağıdılmış qəbirləri görməsinin yaxşı hal olmadığını nəzərə alaraq, qəbir daşlarının yenilənməsi istiqamətində qərar aldıq. Şəhər qəbiristanlığında 264 məzar müəyyənləşdirə bildik. 300 standart qəbir daşları sifariş etdik. Onların böyük qismi quraşdırılıb. Quruculuq-abadlıq işləri getdiyi, vətəndaşların portalla gəldikləri üçün sakinlərin iştirakı olmadı. Müəyyən qalıqları məzarların yanında saxladıq ki, insanlar gələndə tanıya bilsinlər. Qəbir daşlarının şəkil və ad yerlərini boş saxladıq.

**- Laçını hansı istiqamətdə genişləndirmək nəzərdə tutulub? Yaşayış mərtəbələri neçə mərtəbəli olacaq?**

- Laçında tikinti işləri zamanı şəhərin Baş planı üzrə hərəkət edilir. Bölünmüş ərazilər var. Təbii ki, şəhərdə bir sıra çoxmərtəbəli binalar olacaq. Laçın şəhəri 3838 ailə 13 122 nəfərdən ibarətdir. Geri dönən insanların sayını daha yüksək götürməyə çalışırıq. Şəhər 18 min insana hesablanıb. Bu sayda insan 2040-ci ilə qədər olacaq. Qayıdış zamanı rəqəm 14 minə çata bilər. Çünki işğaldan əvvəl Laçın qeydiyyatı olub, lakin daha sonra başqa rayonda qeydiyyata keçən şəxslər var.

Əsrlərlə qurulan şəhəri cəmi bir ilə bərpa etmək olmaz. Biz oktyabr ayında işə başlamışıq. İlk vaxtlarda burada işıq, qaz, su olmayıb. Biz bu ofisdə metlaxın üstündə yatırdıq. Bura işğaldan yeni azad olunduğu üçün normal ustaları tapıb gətirmək çox çətin idi. Laçınlıların öz evləri ilə bağlı xatirələri var. Ən yüksək standartlı, müasir evləri tikib həmin şəxslərə təqdim etsən onlar yenə də köhnə pəncərələrini axtaracaq. Bu gün evlərlə bağlı tələblər bitməz. Edilən müraciətləri də nəzərə alırıq. Haranı gördüm ev tikim söhbəti olmayıb. FHN əməkdaşları tikintiyə, bərpaya yararlıdır rəyi verdikdən sonra işə başlamışıq. Sosial şəbəkələrdə bəzi klaviatura qəhrəmanları var ki, gündəmdə qalmaq üçün belə narazılıqlar olduğunu irəli sürürlər.

**- Köç edənlərdən geri qayıdan olub?**

- İndiyədək köç edənlərdən tamamilə geri qayıdan olmayıb: ”İşi ilə əlaqədar geri qayıdan insanlar var. Lakin onların ailələri Laçında qalır. Bir neçə günlük işlə əlaqədar gedib, yenidən ailələrinin yanına qayıdırlar. Dənizdə, neft-qaz sənayesində, dövlət müəssisələrində işləyənlər var. Bütün dövlət qurumlarının hələ hamısının Laçında filialları yoxdur. Məsələn adam var ki, SOCAR-da işləyir və pensiyaya çıxmasına 7 ay var. O, 7 aydan ötrü pensiyadan məhrum olmaq istəmir. Lakin tamamilə geri qayıdanlar olmayıb.

**-Sizin Laçınlı kimi öz yurddaşalrınıza mesajınız nədir?**

-O vaxt laçınlılar işğalla əlaqədar olaraq Azərbaycanın 59 digər rayonlarına köçüblər: ”Orada müxtəlif qohumluq əlaqələri qurublar. Laçınlı ailələrin övladlar yeni bir mühitdə böyüyüblər. İstər-istəməz həmin ərazidə yaşayan toplumun mentalitetini götürüblər. Yəni Laçına 59 yeni mentalitet gələcək. Bu inkişaf deməkdir. Biz laçınlılar olaraq ən böyük qayıdış mədəniyyəti nümayiş etdirməliyik. İnsanların istəyinin bitməməsi normaldır.

**Müsahibimiz Laçında zəruri ərzaq məhsulları, dərmanların gətirilməsi ilə bağlı problemlərin olmadığını da qeyd edib:** ”Artıq Laçında marketlər var. Kənd təsərrüfatlarının satış məntəqələri var. Buraya hər şey gəlir”.

**Nicat Novruzoğlu**

# ÇİÇƏKLƏRDƏ CƏNNƏT ƏTRİ

**...Dünyanı gözəlləşdirən və onu min rəngə boyayan təkcə Günəş deyil, həm də bu dünyanın gülüdü, çiçəyidi, otudu, çəmənidi... Dünya onda gözəl olur ki, onun hər şeyi yerində, məkanında görünür. Bir şey yerində olmayanda sanki Yer üzünün gözəlliyi də, zərifliyi də, incəliyi də azalır. Və başqa sözlə demiş olsaq, nəsə çatışmır...**

...Dünyada yeri görünən həm də heç kimə bənzəməyən və heç kimə oxşamayan qeyri-adi insanlar, daha doğrusu, Şəhidlərdir. O şəhidlər ki, onlar tək döyüşüb, torpaqları işğaldan azad eləmirlər, həm də ölümləri ilə bir ölümsüzlük, bir əbədilik, bir dirilik qazanırlar... Onların hər biri Vətən olur. Burada Musa Yaqubun bir bənd şeiri yadımıza düşür:

*Bəlkə də borcundan çıxmadım, Vətən!*
*Ömür bahar deyil, bir də qayıtsın.*
*Ölsəm də qoynunda, qoy ölüm ki, mən,*
*Çürüyüm, bir ovuc torpağın artsın!...*

...Şəhidlər ölümləri ilə həm də Vətən oldular. Vətən olan bu şəhidlər bizim and yerimizə, sevgi yerimizə, ümid yerimizə çevrildilər. Bizim and yerimizdən, ümid yerimizdən biri də Şuşaya 17 km. qalmış qəhrəmancasına həlak olan Ülvi Şirin oğlu Hacıyevdir. Bu insanlar adi insanlar, adi gənclər olmayıblar. Onların çoxu Qarabağ torpağını da, Şuşanı da görməyiblər. Amma onlar Qarabağ, Şuşa uğrunda canlarından keçiblər. Keçiblər deyəndə elə çoxları döyüşə gedəndə and içiblər ki, anamız qədər çox istədiyimiz torpaqlarımızı erməni işğalından azad edəcəyik! Onlar anaları qədər çox istədikləri Cəbrayılı, Füzulini, Hadrutu, Qubadlını, Zəngilanı, Şuşanı, Ağdamı, Kəlbəcəri, Laçını... azad elədilər! Bu, 44 günlük II Qarabağ savaşında baş tutdu! Sonra isə 2023-cü il sentyabrın 19-u və 20-si ərəfəsində 23 saat 43 dəqiqədə cəmi Qarabağ yağılardan təmizləndi və ərazi bütövlüyümüz şükür Allaha ki, təmin olundu!

...Ona görə şükür Allaha deyirik ki, biz bu günü görmək üçün çox əziyyətlər çəkdik, çox göz yaşı axıtdıq və çox şəhidlər verdik. Ülvilərin qanı hesabına biz Qarabağı ermənilərdən azad eləyə bildik! O qan adi qan deyildi. O qan qıpqırmızı, tərtəmiz, dupduru idi. Onlar bu qanla torpağın üstündə "Vətən!" kəlməsini yazdılar və o kəlməni öpüb şəhadətə qovuşdular!...

...Bütün şəhidlər və şəhid anaları bir-birinə bənzəyirlər... Çünki onların hamısının mayası, iç dünyası Vətəndən yoğrulub. İç dünyası, mayası Vətəndən yoğrulan insanlar elə həmişə bir-birinə oxşayırlar. Mən çox şəhid ailəsində olmuşam və çox şəhid anası ilə görüşmüşəm, onların hamısında bir duyğunu, bir hissi, bir İlahi nişanəni görmüşəm: o nişanə Allahın onlara verdiyi nurdur! Allah bu nuru şəhid analarına ona görə verir ki, oğlanlarını öz dərgahına aparır və onlara da günəş kimi işıqlı olan bu nuru bəxş edir! Bəxş edir ki, o nura baxıb, o işığı görüb, oğlanlarının Allahın dərgahında yaşadıqlarını hiss etsinlər...





Şəhid Ülvi Hacıyevin anası Həmidə xanımla da görüşəndə, bax bu nuru gördüm.

Onun ağ saçları ilə çöhrəsindəki işıqlı nur bir-birini tamamlayırdı. Bir-birini tamamlayan həm də Allahın bu xanıma bəxş elədiyi qeyri-adi, gözlə görünməyən, amma hiss edilən səbrdir! Hər sözü, hər kəlməsində bir işıq, bir nur var! Dərdi, kədəri dünya boyda olsa da bunu qətiyyən onunla söhbət eləyən insana bildirmək istəmir. Əksinə o dərdi, kədəri, qəmi iç dünyasına çəkir və çöhrəsindən nur boylanır. Elə o nurun işığında da istər-istəməz Həmidə xanımın Ülvi ilə bağlı tükənib-bitməyən söhbətləri dil açır. Sanki bu söhbətlər həm də bir bulağın gözündən axan dupduru suya bənzəyir. O su insanın yanğısını söndürüyü kimi Həmidə xanımın söhbətləri də bax elə bulaq suyu kimi adamın ürəyini sərinlədir, kədərin və dərdin onun içində əridiyini hiss edirsən...

...Ağsaqqallıq yaşla deyil, ağılla, düşüncə ilə ölçülür. Ülvi də gənc olmasına baxmayaraq, çox müdrik, ağıllı, səbrli və düşüncəli bir insan olub. Bu barədə Həmidə xanım danışanda istər-istəməz elə bizim özümüz onu görməsək də, tanımasaq da o söhbətlərin iç dünyasına qayıdırıq. Qayıdırıq və orada Ülvini görürük, onun səsini, nəfəsini hiss edirik... Həmidə xanım deyir ki, atası Şirin kişi ən çətin anlarında Ülviyə üz tutardı, ona sığınardı. O da sonda elə bir ağıllı söz deyərdi ki, o söz bizi çətin vəziyyətdən çıxarardı...

...Bizim dünyada görmədiyimiz insanlar bəzən gördüyümüz insanlardan bizə daha çox yaxın olur. İnanın, o adamların, o qəhrəmanların yazdığı tarix elə bizim üçün ən böyük bir sevgidir desək, yanılmarıq.

Bu sevgini bizə verən, bu xoşbəxtliyi bizlərə ərməğan edən Ülviləri heç vaxt unutmaq mümkün deyil! Ülvi Azərbaycanı, Qarabağı çox sevirdi. Ülvi həm də mərdliyi, qüruru və Vətəni Allah qədər, Anası qədər çox istəyirdi. O, Vətənin hər çiçəyini, hər gülünü, hər otunu, hər yamacını qucaqlayırdı, öpürdü və bağrına basırdı...

...Onun Azərbaycan sevgisi dünya boydaydı. Bax, burada böyük Məmməd Arazın bir bənd şeirini xatırlamamaq böyük günah olar:

*Azərbaycan - çiçəklər içində bir qaya,*
*Azərbaycan - qayalar içində çiçək.*
*Mənim könlüm bu torpağı vəsf eləyərək,*
*Azərbaycan dünyasından baxar dünyaya.*

...Bax, Ülvilər bu gözəl Azərbaycanın hər qarış torpağını seviblər və onun yolunda da həlak olublar!!! Güllər, çiçəklər və çəmənlər hər yerdə olur. Amma şəhidlərin qanı tökülən yerdə bitən çiçəklərdən adi çiçək ətri gəlmir, çiçək qoxusu gəlmir! O güllərdən, o çiçəklərdən, o çəmənlərdən Cənnətin ətri, qoxusu gəlir! Daha doğrusu, Poladların, Mübarizlərin, Ülvilərin, Elçinlərin... ətri gəlir! O çiçəkləri mən yazda iylədim, qoxladım, bax onların, Allaha and olsun, ətrini duydum! Duydum ki, şəhidlərimiz həm də Qarabağda bitən çiçəklərdə, güllərdə, otlarda yaşayırlar...

Noyabrın 13-də Ülvinin ad günü olub. Bu yazını o vaxt qələmə ala bilmədik. Bu gün də noyabrın 29-da başqa bir şəhidimizin - Elçin Tehran oğlu Süleymanovun dünyaya göz açdığı gündür. Ülvinin anası Həmidə xanım və Elçinin anası Xalidə xanım bir-birinə oxşayırlar. Hər ikisinin övladı Qarabağ uğrunda şəhid olub və hər ikisinə də Allah-Təala nur bəxş edib. Onlar bir-birini tanımasalar da, amma taleləri və həyatları bir-birinə çox oxşayır; həm saçlarının ağlığı ilə, həm çöhrələrindəki nurla, həm də dərdləri və səbrləri ilə! Bu analar adi analar deyillər. Qəhrəman analardılar. Yuxularında oğlanlarını, igidlərini, şəhidlərini görüb bir az da Allaha yaxınlaşırlar. Ağ işıqda, ağ yolda oğlanlarını axtarırlar. Axtarırlar, axtarırlar və axırda ağ işıqla gedib çıxırlar Allahın dərgahına! Orada Ülviləri, Elçinləri görüb, qayıdıb gəlirlər və bir az toxtayırlar! Bax, bu oğullar Azərbaycanın ən uca dağı, qayası, zirvəsi, işığı, günəşi və ən nəhayət, tarixidi! Çünki onlar ölümə də əyilmədilər, ölmədilər, amma şəhid oldular! Xalq şairi Zəlimxan Yaqub çox gözəl deyib:

**...Dağa təpə deyilməz ki, deyilməz,**
**Sərt qayalar əyilməz ki, əyilməz!..**

**FAİQ QİSMƏTOĞLU**

# 3 müharibənin qalibi: İgidliyi genetik kodu olan bəy oğlu, General

**Azərbaycan dünyanın elə bir nöqtəsində yerləşir ki, oranı elə "dünyanın gözü" adlandırmaq olar. Sıx meşələri, büllur kimi bulaqları, şaqraq şəlalələləri, gur axan çayları, zirvəsi qarlı dağları, qışda da yamyaşıl olan dərələri-düzləri.**

Bəli, Azərbaycan dünyanın ən gözəl "gözüdür". Üstəgəl, min illərdir talanan, yağmalanan amma bitib tükənməyən təbii sərvətləri ilə hər zaman xain, ac gözləri özünə cəlb edib. Məsələn çoxumuz elə bilirik ki, Rusiya - ruslar Qafqaza - Azərbaycana 200-300 il əvvəl gəlib. Amma elə deyil, ruslar Azərbaycanın gözəlliyini, sərvətini 1079 il əvvəl kəşf etmişdilər .Bərdəni 944-cü il avqust ayının 24-də işğal etməsi də bunun sübutudur. Hələ başqa yadelli basqın və hücumları demirəm, təkcə bu gün də caynaqlarını Azərbaycandan çəkməyən Rusiyadan danışırıq. Odur ki, bu torpaqlarda doğulan oğullar istəsə də, istəməsə də gözünü dünyaya açandan hərb sənətinə meyilli olub. Ox atmaq, qılınc oynatmaq, çılpaq atla 4 nala çapmaq, uçurumlu qayalarda, sıx meşələrdə döyüş aparmaq sənətini özbaşına, amma mükəmmlcə bacarıblar. Cəsur olublar, döyüşkən olublar, cəngavər olublar.





Uzun sözün qısası, Azərbaycan tarixində adı məşhur olan igidlərdən, sərkərdələrdən tutmuş, tanınmayan, amma düşməni heyrətə gətirən, savaş meydanında yadelliləri məharətləri ilə heyrətə gətirən əsgərlərimizin bir çoxu haqqında çoxumuz heç nə bilmirik.Əsgər nədir, heç dünyanın hərb tarixində yeri, adı olan general mayorumuzu tanımırlar. Ötən gün qarşılaşdığım təxminən 10 nəfər azərbaycanlıdan Tərlan Əliyarbəyovun kim olduğunu soruşdum. Gənclər hansısa bir aktyor olduğunu, nisbətən böyüklər isə hansısa bəy oğlu olduğunu söylədilər. Sorğu keçirdiyimə peşman oldum və özümü də burda günahkar hesab etdim. Görəsən, biz jurnalistlərin bir çoxu "şou- biznes"in çirkin üzünü təbliğ edincə , niyə tariximizin qaranlıq səhifələrinə işıq salmağı, maarifləndirməyi, məlumatlandırmağı arxa plana atırlar? "Çox təəssüf edirəm" deyib, Tərlan Əliyarbəyov haqqında tapıb-topladığım məlumatları oxucularımıza təqdim edirəm.

### *Fəxrimiz olan Bəyoğlu*

1892-ci il noyabrın 28-də Şamaxı qəzasının Ağsu (indiki Ağsu şəhəri) kəndində Abdulla bəyin ailəsində bir oğul dünyaya gəlir. Adını Tərlan qoyurlar. Bəy oğlu olduğu üçün at çapmaq, ox atmaq, qılınc oynatmaq onun gündəlik əyləncəsi olub. Böyüdükcə , əyləncəsi hobbiyə, marağa dönüşüb, sonra taleyinin ayrılmaz hissəsinə çevrilib. 21 yaşında artıq o müharibənin ortasında idi. 1914-1918-ci illərdə düz 4 il Birinci Dünya müharibəsinin iştirakçısı olub. Şamaxı alayının tərkibində rota və batalyon komandiri kimi alman cəbhəsində döyüşüb. Onun istedadı diqqətdən yayınmayıb - tezliklə batalyona rəhbərlik rota komandiri Əliyarbəyova həvalə olunub.

Uzaq Azərbaycanın gözdən uzaq bir kəndinin yetişdirdiyi gəncin məğlubedilməzliyi, cəsurluğu, xüsusən ölümdən zərrə qədər qorxmaması Qərb cəbhəsinə yayılır və 1916-cı ilin mayında Əliyarbəyov qılınc və kamanla III dərəcəli Müqəddəs Stanislav ordeni və "İgidliyə görə" yazısı olan IV dərəcəli Müqəddəs Anna ordeni ilə təltif edilir. Oxucularımıza bildirim ki, belə gənc yaşda bir müsəlman olaraq, bir türk olaraq Rusiya İmperiasının belə bir ordeninə layiq görülmək möcüzə hesab olunur. Amma Tərlan bəy cəsur olduğu qədər də vətənpərvər olub.Azərbaycan Xalq Cümhuriyyəti ordusunun formalaşması zamanı qazandığı ordenlərdən keçərək, Azərbaycan ordusunun quruculuğunda iştirak edib. 1918-1919-cu illərdə Tərlan Əliyarbəyov Müsavat ordusunun alay komandiri, Bakı şəhəri rəisinin müavini olmuş, orduya çağırış zamanı baş vermiş qanun pozuntularının qarşısının alınması və s. ilə məşğul olur. Təəssüf ki, xain və ac gözlər Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoyur. Azərbaycanda sovet hökuməti qurulur. Hərbi işlərdə böyük təcrübəyə malik olan komandir könüllü olaraq Qızıl Ordu sıralarına daxil olur. Bəlkə də o çox istəyib ki, Azərbaycanlıların hərb sahəsində səriştəsiz, amma igid oğullarına hərbin incəliklərini öyrətsin, vətəni peşəkarlıqla qorumağın sirlərinibaşa salsın. Elə olmasaydı, ordunu da Azərbaycanı da tərk edərdi, onun təcrübəsinə ehtiyacı olan istənilən Avropa ölkəsinə mühacirət edə bilərdi. Bir yandan da Qarabağda dinc əhaliyə qarşı ermənilərin terrorçu hərəkətləri onu orduda, Azərbaycanda saxlayır. 1920-ci ildə Qızıl Ordu sıralarına daxil olan Bəyoğlu dərhal Şuşa ətrafında ov edən daşnak dəstələri ilə mübarizəyə göndərilir. İki il ərzində, 1920-ci ildən 1922-ci ilə qədər onun komandanlığı altında bir neçə quldur birləşmələri ləğv edilir. (Təəssüf ki, T. Əliyarbəyovun Qarabağda fəaliyyəti ilə bağlı tarixçilərin heç bir geniş, ətraflı araşdırma yazısına rast gəlmədim-red-Ə.R.)

1925-1931-ci illərdə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvlüyünə namizəd seçilir. Azərbaycan SSR Ali Sovetinin (2-ci çağırış) deputatı olur, 1927-ci ildə M.V.Frunze adına Hərbi Akademiyada Ali Komanda heyəti kursunu bitirdikdən sonra Bakıya qayıdan Əliyarbəyov hərbi istedadını milli hərbi kadrların yetişdirilməsinə sərf edir.

Böyük Vətən Müharibəsi illərində Tərlan Əliyarbəyov yenidən hərbi xidmətə qayıdıb və 416-cı atıcı diviziyaya komandanlıq edib, 402-ci diviziyanın komandiri, 79, 88-ci alayın komandiri və 58-ci diviziya komandirinin müavini təyin edilir. Məlumatlara görə, onun komandanlığı ilə demək olar ki, Ukraynada 300 km olan məsafə almanlardan xilas olunub Tərlan bəyin hərbi xidmətlərini nəzərə alaraq 1944-cü il fevralın 9-da Sovet komandanlığı ona general-mayor rütbəsi verir.

1946-1948-ci illərdə Azərbaycan SSR maarif nazirinin müdafiə işləri üzrə müavini işləyir. Azərbaycan SSR Ali Sovetinin (2-ci çağırış) deputatı olur. 1948-ci ildə istefaya çıxır.

Generalın nəvəsi Aygün Əliyarbəyova mediaya bildirib ki, xidmət illərində Tərlan bəy dəfələrlə təltif edilib, amma çoxu bundan xəbərsizdir: "General Tərlan bəy Əliyarbəyovun sinəsini Çar Rusiyasının "Müqəddəs Georgi" ordeninin 4 dərəcəsinə və "Müqəddəs Stanislav" ordeninin 3-cü dərəcələri, Sovet İttifaqının Lenin ordeni, Qırmızı Bayraq, Qırmızı Ulduz ordenləri və çoxlu medallar bəzəyirmiş. Qeyd edim ki, 1769-cu ildə Rusiya imperatoru II Yekaterina tərəfindən təsis olunmuş "Müqəddəs Georgi" ordeni Rus imperiyasının süqutuna qədər dövlətin ən ali hərbi ordeni sayılırmış. "Əla xidmət və cəsurluğa görə" devizini daşıyan "Müqəddəs Georgi" ordeninə yalnız "fövqəladə, xüsusi rəşadət, mərdlik, əla əsgəri qəhrəmanlıq göstərən" hərbi qulluqçular layiq görülürdülər. Bu orden 4 azərbaycanlıya təqdim edilib: Fərrux Ağa Qayıbov, Tərlan bəy Əliyarbəyov, Teymur Ağa Novruzov, Qalib bəy Vəkilov".

General-mayor Tərlan bəy Əliyarbəyov 1956-cı il fevralın 15-də vəfat edib.

### *Genetik KOD: İGİDLİK*

***P.S.** Vətən Müharibəsində şəhid olan qəhrəman əsgərlərimizdən biri Rüstəmov Rövşən Orxan oğludur. O, Azərbaycan Milli Ordusunun yaradılmasında fəal iştirak etmiş məşhur sərkərdə, general-mayor Tərlan bəy Əliyarbəyovun nəticəsidir. Generalın nəvəsi Aygün Əliyarbəyova bildirib ki, şəhidimiz Tərlan bəy Əliyarbəyovun qızı Yavər xanımın nəvəsi olub:"Yavər bibim Füzulidən olan Rüstəm bəylə ailə həyatı qurub.*

*Rövşən bibim oğlu Orxanın iki övladından biri idi. O, iki il olardı ki, hərbi xidmətdən qayıtmışdı. İşlə əlaqədar anası ilə birgə Gəncədə yaşayırdı. Əslində yaşayış yeri Bakı idi. Döyüşlər başlayanda dərhal hərbi komissarlığa getmişdi. Tərtərdə döyüşlərin ən qızğın çağında vuruşurdu. Rövşən Tərtərin Talış kəndində şəhid oldu.*

*Hər iki igidimizin, hər iki fəxrimizin yeri cənnət olsun!*

**Əntiqə Rəşid**

# Ermənistan və Rusiyanın 3,7 milyard dollarlıq ticarət əlaqəsi: "Viski" 5-ci yerdə

**İçi mən qarışıq bir çox soydaşlarımız gözləyirdi ki, Ermənistanın Baş naziri Nikol Paşinyanın son aylar Rusiyaya və KTMT-yə sərgilədiyi münasibətin nəticəsi ağır olacaq, Ermənistan cəzalanacaqdır.**

Adalet.az Rusiya KİV-nə istinadən xəbər verir ki, bu tip gözləntilər yanlışdır və Ermənistan- Rusiya arasındakı ticarət əlaqələri günü-gündən çiçəklənməyə doğru gedir. Beləki, bu il Ermənistan Rusiyaya 5,6 milyon dollar həcmində viski idxal edən ölkələr siyahısında İspaniyanı qabaqlayaraq 5-ci yerdə olub.



2023-cü ilin doqquz ayında Rusiya 262,5 milyon dollar dəyərində viski idxal edib. Bu da əvvəlki ilin yanvar-sentyabr aylarında idxalın həcmindən təxminən dörd dəfə çoxdur.

Ümumi həcmdə böyük payı yenidən Latviyanın payına düşüb, Baltikyanı respublika 190,6 milyon dollarlıq məhsul verib. Üstəlik, ötən illə müqayisədə tədarük 6 dəfədən çox artıb. İkinci yerdə olan Litva da tədarükünü əhəmiyyətli dərəcədə artıraraq, keçən illə müqayisədə 28,9 milyon dollar dəyərində viski göndərib. İlk beşliyə Böyük Britaniya (10,4 milyon dollar, ötən illə müqayisədə 18% azalıb), Fransa (7 milyon dollar, 1,5 dəfə artıb) və daşımaları 2,5 dəfə artıran Ermənistan da (5,6 milyon dollar) yer alıb. İspaniya üçüncü yerdən altıncı yerə enərək ən böyük təchizatçılar siyahısından olmayıb.

Qeyd edək ki, 2023-cü ilin ilk yeddi ayı ərzində Ermənistanla Rusiya arasında ticarət dövriyyəsi 3,7 milyard dollar təşkil edib.

Erməni rəsmiləri bildirib ki, ticarətin ümumi həcminin 2 milyard dolları Ermənistandan, 1,7 milyard dolları isə Rusiyadan ixrac edilib:"Bu, keçən illə müqayisədə 70% çoxdur və ötən il 2021-ci illə müqayisədə dövriyyəmiz ikiqat olub. Yəni, ticarət kifayət qədər sürətlə artır, lakin biz görürük ki, bu, hədd deyil və biz müxtəlif sahələrdə əməkdaşlığımızı artırmaq niyyətindəyik".

**Əntiqə Rəşid**

# "Müqəddəs" Baqratdan çağırış: "Qarabağın itirilməsi ilə barışsaq..."

**"Qarabağın itirilməsi ilə barışsaq, nə həqiqət, nə ədalət, nə də sülh əldə edəcəyik".**

Adalet.az xəbər verir ki, bu sözləri erməni Apostol kilsəsinin arxiyepiskopu , Tavuş yeparxiyasının lideri Baqrat Qalstanyan öz xütbəsində deyib: "Əminəm ki, sahib olduqlarından asılı olmayaraq, ən pisindən ən ucasına qədər hər kəs Qarabağ dövlətimizin itirilməsi ilə ürəyində dərin ağrılar yaşayır. Və təəssüf ki, çox vaxt o, ağrını ifadə etməməklə, ağrını özündə saxlamaqla, onu bir növ kompensasiya etməklə sağaltmaq istəyir. Vəziyyətin normala döndərmək üçün susur və bu itki ilə barışır".

Keşiş Qarabağı könüllü olaraq tərk edən ermənilərə müraciət edərək onları mübarizəyə çağırırb: " Bir fəlakət oldu, dəhşətli fəlakət, vətənini itirdin. Əgər bilmirsinizsə, sizə deyirəm, siz vətəninizi itirmisiniz! İstəsəniz də, istəməsənizdə heç nə olmamış kimi davransanız, davamlı olaraq təhqir olunan, alçaldılan, haqları tapdanan, diz çökdürülən, məsxərəyə qoyulan, bir kütlə olacaqsınız". Oxucularımıza bildirək ki, erməni kilsə xadimləri ekstrimizm, terror, separatçı meyillər, qatı milliyətçilik təbliğatı apararaq hər zaman qanlı olaylara imza atıblar. Fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səlimovun bir araşdırmasından bir parçanı xatırladırıq:"1993-cü ilin sentyabr ayında Livandakı iki erməni kilsəsində erməni partiyalarının, həmçinin PKK və ASALA terror təşkilatları rəhbərlərinin iştirakı ilə 150 nəfər erməni gənci ilə görüş keçirilmişdir. Həmin tədbirdə bildirilmişdir ki, Ermənistanın ərazisi Azərbaycanın Dağlıq Qarabağ regionundakı döyüş əməliyyatları nəticəsində genişlənir və "qədim erməni torpaqlarının azad olması üçün" Ermənistana xaricdən mənəvi, maliyyə və texniki dəstək gücləndirilməlidir. Qeyd edilmişdir ki, Türkiyənin ərazisini parçalayaraq onun bir hissəsində kürd dövləti yaratmalı, digər hissəsi isə Ermənistana birləşdirilməlidir. 2002-ci ildə Rumıniyadakı erməni dini mərkəzində keçirilən tədbirdə də ermənilər təcavüzkar planlarını müzakirə etmiş, Azərbaycana və Türkiyəyə qarşı yeni terror aktlarının həyata keçirilməsini qərara almışdılar. Bundan əlavə, dünyanın bir çox ölkələrindəki erməni ictimai birlik və fondlarının fəaliyyətlərinin əlaqələndirilməsində də erməni kilsəsi yaxından iştirak edir.Erməni kilsəsi bir tərəfdən erməniləri dünyaya məzlum görkəmdə tanıtmağa səy göstərir, digər tərəfdən başqa dövlətlərə qarşı ərazi iddialarının irəli sürülməsinin, türk-müsəlman əhalisinə qarşı qanlı terror aktlarının həyata keçirilməsinin təşəbbüskarı kimi çıxış edir. Erməniçiliyin faşizmi təbliğ edən tezisləri də erməni katolikosları tərəfindən hazırlanır".



***P.S.** Uzun sözün qısası, Tavuş yeparxiyasının lideri Baqrat Qalstanyan "qaşınır"*

**Əntiqə Rəşid**

# «Ukrayna ərazilərinin itirilməsiylə barışmalıdı»

**ABŞ-ın beynəlxalq əlaqələr şurasının eks prezidenti Riçard Xaas, CNN telekanalına müsahibəsində bildirib ki, Ukrayna ərazilərinin itirilməsini qəbul etməlidir, çünki bu ərazilərin geri qaytarılması artıq mümkün olmayacaq.**

"Hazırda Rusiyanın öz ərazilərinə birləşdirdiyi Ukraynanın 20 faiz torpaqlarının geri qaytarılması ideyası çox cüzidir və bu əraziləriin hazırda geri qaytarılacağı mümkün deyil"- deyə amerikan diplomatı bildirib. Xaas, Ukraynaya diqqətini əlində qalan ərazilərə yönəltməyi təklif edərək bildirib ki, Ukrayna hərbi qüvvələrinin cəbhədə nailiyyətlər qazana bilməməsinə görə, Qərbin dəstəyi getdikcə azalmaqda davsm edəcək.

Daha əvvəl isə, ABŞ Konqressi, Nümayəndələr pakatasının kəşfiyyat üzrə xüsusi komitəsinin sədri Mayk Terner bildirmiişdir ki, Vaşinqtin 2023-cü ilun sonunadək Ukraynanı yeni yardım paketindən məhrum edəcək.

O, bunu hazırda ABŞ-Meksika sərhəddində təhlükəsizliklə bağlı yaşanan vəziyyətlə əlaqələndirib.

**Rüstəm Hacıyev**

# 1700 erməni TIR-ını sərhəddindən buraxmayan Rusiyadan BƏHANƏ

**Ermənistanı Rusiya ilə birləşdirən Gürcüstanın Yuxarı Lars hərbi yolu yenə bağlanıb və 1700-dən çox erməni yük maşını buradan keçmək üçün növbəsini gözləyir.**

Adalet.az xəbər verir ki, məlumatı Ermənistanın Rusiyadakı səfirliyinin gömrük attaşesi Vaan Akopyan açıqlayıb:"Təxminən 800 nəfər Gürcüstan ərazisində, 900 nəfər isə Rusiya tərəfində gözləyir".



Qarşı tərəf bununla bağlı açıqlama verib. Rusiyanın Baytarlıq-Sanitar Nəzarəti Xidməti ("Rosselğxoznadzor"-red.) Ermənistandan bitkiçilik məhsullarının tədarükü zamanı tez-tez pozuntulara yol verilməsindən narahatlığını bildirib və bu, Ermənistandan bəzi məhsulların tədarükü ilə bağlı problemlərin yaranmasına səbəb olub.

Xidmətin rəsmi saytında dərc edilmiş məlumatda qeyd edildiyi kimi, 2023-cü ildə "Rosselxoznadzor"un ərazi idarələri Ermənistan Respublikasından gələn gül və meyvə-tərəvəz məhsullarında karantin tətbiq olunan zərərli orqanizmlərin olması ilə bağlı 72 fakt aşkarlayıb. Üstəlik, noyabr ayında qanun pozuntularında kəskin artım qeydə alınıb:"Yalnız noyabrın 24-dən 26-dək olan dövr ərzində müvafiq qurumlar tərəfindən verilmiş fitosanitar sertifikatları ilə əldə edilmiş 36 xəstə gül, xiyar, quru meyvə, üzüm, gül kələm, pomidor, bibər, badımcan, alma, armudun idxalı ilə bağlı 36 fakt aşkar edilib. Bitki mənşəli məhsullarda müxtəlif virus, xətəlik və mikroblar aşkar edilib".

Bundan başqa, bildirilir ki, noyabr ayı ərzində Ermənistandan gətirilən pomidor, çiyələk, alma və üzümdə pestisid qalıqlarının icazə verilən maksimum həddən artıq olması ilə bağlı 5 fakt qeydə alınıb ki, bu da istehsalçılar tərəfindən pestisidlərin tətbiqi qaydalarının pozulmasını göstərə bilər:

"Bu vəziyyəti nəzərə alan "Rosselxoznadzor" Ermənistana rəsmi məktub göndərərək, yoluxmuş məhsulların Rusiyaya daşınmasının qarşısının alınması üçün dərhal kompleks tədbirlərin görülməsini və bununla bağlı aparılan işlər barədə Rusiya departamentini məlumatlandırmasını xahiş edib".

Eyni zamanda bildirilir ki, bütün bunlarla yanaşı, sərhəddə fitosanitar nəzarəti normal rejimdə aparılır və Ermənistandan çıxan yüklərin yoxlanılması və tərtibi qaydalarında heç bir dəyişiklik baş verməyib.

**Əntiqə Rəşid**

# Vanqanın 2024-cü il üçün proqnozları - Bioloji silah xəbərdarlığı

**Proqnozları ilə son illərdə tez-tez gündəmdə olan və "Balkanların Nostradamusu" kimi tanınan Baba Vanqanın 2024-cü il proqnozları yeni il yaxınlaşdıqca yenidən gündəm mövzusuna çevrilib.**

1911-ci ildə anadan olan Baba Vanqa 12 yaşında olarkən qum fırtınası nəticəsində kor olub. Amma Baba Vanqanın bu itkisi həm də yeni istedadın yolunu açdı.

Baba Vanqa "gələcək haqqında səslər" eşitməyə başladı. Baba Vanqanın sözlərini şərh edən mütəxəssislər məşhur görücünün illər əvvəl çox şey bildiyini bildirərək, məşhur görücünün proqnozlarının 5079-cu ilə qədər davam etməsinin mümkün olduğunu vurğulayıblar.

11 sentyabr 2001-ci il hücumlarını, Barak Obamanın ABŞ prezidenti seçilməsini, 2022-ci ildə Covid-19 epidemiyasını, Kursk fəlakətini və su böhranını proqnozlaşdıran Baba Vanqa sağ ikən bir çox siyasi və məşhur adları ziyarət edib.



1996-cı ildə vəfat edən Baba Vanqa Yerin orbitində dəyişiklik gözləyir.

Günəş sistemindəki cisimlərin orbitləri onların cazibə qüvvəsi ilə müəyyən edilir və zamanla dəyişə bilər. Mütəxəssislər bu cür dəyişikliklərin uzun müddət ərzində baş verəcəyini bildirsələr də, bunun Yer kürəsinə təsirini "iqlimin pisləşməsi və radiasiya səviyyəsinin artması" kimi şərh etdilər.

Baba Vanqanın başqa bir peyğəmbərliyi isə "böyük ölkə"nin bioloji silahlardan istifadə edəcəyidir. Baba Vanqa "Böyük bir ölkə bioloji silahları sınaqdan keçirəcək və ya bioloji silah hücumu edəcək" deyə proqnozlaşdırmışdı.

Süni intellekt texnologiyalarının son inkişafı ilə maşın öyrənmə sistemləri də güclənib.

Qərb mediası Baba Vanqanın bu məsələdə də irəliləyiş gözlədiyini yazıb.

Baba Vanqanın başqa bir iddiası isə insanların laboratoriya mühitində inkişaf etdiriləcəyi və onların genetikasının manipulyasiya ediləcəyidir. Baba Vanqa, uşaqların valideynlərin istəyinə uyğun olaraq xüsusiyyətləri ilə doğula biləcəyini iddia edirdi.

Bunun gələn il baş verə biləcəyi gözlənilsə də, ekspertlər doğum texnologiyalarının yaxşılaşa biləcəyini bildirirlər.

**Baba Vanqanın 2024-cü il üçün söylədiyi ən əhəmiyyətli peyğəmbərlik ölümcül bir xəstəliyin müalicəsinin gələcəyidir. Baba Vanqa xəstəliyin "dəmir zəncirlərlə" yox olacağını söyləyir. Bu xəstəlik xərçəng xəstəliyidir.**

**Eminquey**



*Vaqif TANRIVERDİYEV*

# DİPLOM, YOXSA İŞLƏMƏK ÜÇÜN SINAĞA BURAXILIŞ QƏBZİ...

## *Bu barədə düşünməyə dəyər*

**Son vaxtlar diplomun əhəmiyyəti və əhəmiyyətsizliyi barədə söhbətlər tez-tez səslənir. Diplomun adi bir "karton parçası" kimi dəyərsiz olduğu barədə fikrlər səslənir. Diplom nədir? Hələlik əlimizdə olan sonuncu ensiklopediyada maraqlı tərifi var, qısacası yunan sözü olub ikiqat bükülmüş sənəd deməkdir. Çox maraqlıdır, bu gün cəmiyyətimizdə diplomun oynadığı rolu, verdiyi hüququ nəzərdən keçirəndə görürsən ki, orada deyildiyi kimi, "ikiqat bükülmüş sənəd" tərifi, əslində "boynu bükük karton parçası" mənasına daha yaxındır. Niyə, bu barədə bir az sonra...**

**Diplom vaxtilə ali təhsili təsdiq edən sənəd kimi çox qiymətli idi və çox da uca tutulurdu. Cəmiyyətin ən qürurverici sənədi idi, ailələr evdəki diplomların sayı ilə fəxr edər, onun haqqında qürurla danışılar, şerlər yazılar, mahnılar qoşulardı. Valideynlər uşaqlarına öyüd-nəsiət verəndə nümunə kimi qonşunun diplomlu uşağını misal gətirər, ona oxşamağı, ali təhsil alıb diplom sahibi olmağı böyüməkdə olan övladı üçün ən yüksək ləyaqət kimi dəyərləndirərdilər.**

**Xalq yazıçısı Gülhüseyn Hüseynoğlunun ibrətamiz əsəri olan "Mücrü" mənsur şerini bilmirəm, oxumusunuzmu. Diplom, onun ailəyə gətirdiyi sevinc, xoşbəxtlik mənsur şerin dili ilə əsl həyat simfoniyası kimi tərənnüm olunur. Tənha ananın tələbə övladlarıının maddi və mənəvi ehtiyacınlarını ödəmək üçün bazara "ayaq açan" nişan zinətləri, ər hədiyyələri diplom sevinci ilə qayıdır anaya... İlk diplom ailəyə ilk sevinc kimi gədəm qoyur. Sonra ikinci..üçüncü...dördüncü..beşinci diplom boşalan mücrünün ən qiymətli saxlanğıcına çevrilir.**

**"Ana oxşadı mücrünü. Gözünün qabağına çox şeylər gəldi, çox şeylər! Mücrünü öz yerinə qoyanda anaya o, indi ağır, əvvəlkindən qat-qat ağır gəldi. Ana yanılmamışdı. O sərvət hara, bu sərvət hara?!"**

**Bəli, ana üçün diplom hər cür zinətdən, qızıl-gümüşdən uca tutulur.**

**Bəs, nə dəyişib, diplom niyə nüfuzdan düşüb, işə düzəlmək üçün köməkçi vasitə rolu oynayır. Elə ki, işə qəbul zamanı test yoxlamaları, sınaqları tətbiq olunmağa başlandı, diplom da qiymətdən düşdü. Bu gün ali məktəbi hətta çox yüksək qiymətlərlə bitirən gənc üçün diploma maraq azalıb, sanki ikinci dərəcəli bir sənədə, adi bir "karton parçasına" çevrilib. Bu ifadəni mən bir vaxtlar ali məktəbdə dərs deyərkən tələbələrin dilindən eşitdim, diploma münasibətlərində gördüm. Təhsilin səviyyəsinə, əla oxumağa etinasızdırlar, deyirlər ki, işə girmək üçün onsuz da sınaq imtahanına hazırlaşacağıq. Adi korton parçası qədər dəyərsizləşdirilən diplom yalnız sınaq imtahanına buraxılış hüququ verir.**

**Bəzi tələbələr utanmadan bir az da irəli gedir, zarafatla deyirlər ki, diplom içtimai hamamlarda çimmək üçün pul verib aldığın çek kimidir, yoxsa "içəri" buraxılmırsan. Pulunu ödə, buraxılış qəbzini al, imtahanını ver ...**

**Test imtahanları, onun doğurduğu əks-səda bununla bitmir, durğun suya atılmış daş kimi dalğavari yayılaraq təhsilin səvyyəsində, uşaqlarda hərtərəfli dünya görüşünün formalaşmasında, hətta valideynlərun ailə büdcəsində əks-səda tapır.**

**Beləliklə, uşaqlar ali təhsilə hazırlaşarkən yalnız test üzrə cavab verəcəyi fənlərə diqqəti yönəldirlər. Yönəldirlər sözü bir az yumşaq səslənir. Testə daxil olmayan fənlər tamamlə unudulur, uşaqlar yalnız test imtahanına düşəcək elmlər haqqında tutuquşu kimi ötürlər.**

**Fakt budur, diplom hələ işləmək üçün tam hüquq verən sənəd deyil, işə girmək üçün sınaq imtahanı da verməlisən. Ona hazırlıq, əlavə xərclər ailə büdcəsində çox çətinliklər yaradır. Valideynlər bunun da ən asan yolunu sınaq imtahanına düşəcək fənlər üzrə 3-4 repetitor tutmaqda görürlər.**

**Ümumi xərc isə ayda ən azı 300-400 manat edir. Bu da nisbətən aztəminatlı ailələr üçün maddi sıxıntılar yaradır. Elə valideynlər var ki, ailə büdcəsi imkan vermədiyi üçün repetitorların gücündən istifadə etmək imkanı olmur. Bu sıxıntını təkcə valideyn yox, uşaq da hiss edir. Bu da izsiz keçmir, övlad-valideyn münasibətlərinə kölgə düşür. Maddi sıxıntı üzündən uşağı repetitorun yanına göndərə bilməyən valideyn övlad yanında gözü kölgəli olur. Xeyli əlavə xərc, həyəcan, sıxıntı və stres yaranır. Ən başlıcası isə diplom adi "karton parçası" qədər dəyərsizləşdirilir.**

**Bəli, həqiqət belədir, diplom adi "karton parçası" kimi dəyərsizləşdirilib. Bu vacib məsələ təhsil ekspertlərinin, valideynlərin və məzunların gündəlik qayğısına çevrilib. "Doğrudanmı günümüzdə adi karton parçası qədər dəyərsizləşdirilən bir diplom üçün bu dərəcədə qəlizləşdirməyə, məzun və onların valideynləri üçün bu qədər əlavə problem və ən başlıcası isə həyəcan və stress yaratmaq vacibdir".**

**Haqlı narahatçılıqdır. Yaxşı olar ki, işə qəbul üçün sınaqlar pedaqoji ali məktəblərin buraxılış imtahanlarında tətbiq edilsin. Məzunların ixtisas seçimi buraxılış imtahanı verərkən nəzərə alınsın və fənlərin qiymətləndirilməsi həmin qrupun tələblərinə uyğunlaşdırılsın...**

**Bu barədə düşünməyə dəyər.**

**Gəncə**

---

# *"Əgər bu lokallaşdırılmasa, bütün ölkəyə..."*

## Pediatr qızılcayla bağlı həyəcan təbili çaldı...



**Xəbər verdiyimiz kimi ölkəmizdə son zamanlar qızılca xəstəliyi uşaqlar və tələbələr arasında geniş yayılmaqdadır.**

Adalet.az-a açıqlamasında pediatr Vaqif Qarayev qızılca xəstəliyinin yayılma səbəblərindən danışıb:

"Qızılcadan qorunmağın yeganə yolu peyvənddir. Əgər bu xəstəliyə kimsə yoluxursa, deməli peyvənd olunmayıb. Bu bütün dünyada belədir. Əgər peyvənd yoxdursa, o ərazidə insanlar qızılcaya yoluxacaq. Bu xəstəlik lokal bir yerdə yayılıbsa, orda tələbə yaşlı gənclərdə bu xətəlik varsa, deməli onlar da peyvənd olunmalıdır. Peyvənd altına düşən yoluxucu xəstəliklərdə yeganə qorunma yolu peyvənddir. Əgər bu lokallaşdırılmasa, bütün ölkəyə yayılacaq. Əslində qızılca xəstəliyi pandemiyadan əvvəl də var idi və onda daha çox idi. Amma indi təcrid başlandı, məktəblər bağlandı deyə xəstəliyin qarşısı alındı. Pandemiyadan sonra isə xəstəlik yenidən geniş yayılmağa başladı. Hələ təkliflər var ki, məktəblər bağlansın".

Qeyd edək ki, bu gün Kürdəmirdə 7 məktəbdə şagirdlər atasında qızılca yayılıb və 9 nəfər xəstəxanaya yerləşdirilib.

**Vasif Əlihüseyn**

---

# «Kommunist» qəzetinin şöbə müdiri, Türkiyəni «Nairi ölkəsi» adlandıran Yegişe Çarents

**Ötən əsrdə ermənilərin bir şairi , yazıçısı və ictimai fəalı olub. Adı Yegişe Çarents! Sağlığında Ermənistanın gözəlliklərini vəsf edib, xalqlar dostluğu barədə şeirlər yazıb. Şair bir müddət Bakıda çap olunan ermənicə "Kommunist" qəzeti redaksiyasında ədəbiyyat və incəsənət şöbəsinə başçılıq edib.**

Kommunizmin əvvəllər tərəfdarıydı, Çarents hətta bolşevik partiyasının üzvü olub. Lakin Stalinin terrorçu qaydaları, repressiyalar onu tədricən sıxmağa başlayıb. Stalinizmə qarşı məyusluğu və etirazı artıb və 1937-ci ildə öldüyü deyilir.

Maraqlıdır, o vaxt sovet hökumətinin ən yüksək vəzifələrində ermənilər oturmuşdu və hansı səbəbdən Yegişeni xilas etmədilər?

Ümumiyyətlə, Yegişenin günahı nə idi? - Azərbaycana hörmət?

Araşdırmaya başladım və maraqlı nüanslarla qarşılaşdım. Deməli, ermənilərin Qaregin Njde adlı qatil və ideoloqu olan bir "erməniataları" var. Njde Zəngəzurda, Göyçədə və digər ərazilərdə əhalinin kütləvi qətli ilə məşğul olub, 1920-ci ildə "Dağlıq Erməni Respublikası"nı yaradıb.

Daha sonra Qərbdə mühacirətdə yaşayanda nasistlərlə əməkdaşlıq edir, onları Türkiyəyə hücum etməyə çağırır. Njdenin yaradıcısı olduğu "tsexakronizm" ideologiyasına və "ali erməni kimliyinə2 vurğun olub. Njde və Ayk Asatryanın 1930-cu illərdə yaratdığı ideologiyaya əsasən fərd üçün ən yüksək dəyər onun mənsub olduğu millətdir və o, bundan kənarda natamamdır. Və ideologiyanın əsas məqsədi erməni xalqının tarixi vətəni ərazisində erməni dövləti çərçivəsində birləşməsdir. (Sonda isə sovet hərbi əks-kəşfiyyatı onu həbs edir və 1955-ci ildə Vladimir şəhərinin həbsxanasında ölür). Uzun illər ermənilərlə



bir yerdə yaşamış soydaşlarımızdan İlahə Səfərovanın mediaya verdiyi məlumatlarda deyilir ki, Yegişenin ölümü bir başa ermənilərin əli ilə həyata keçirilib: "Bir vaxtlar məşhur erməni şairi Yegişe Çarents yalnız "tsekakron"u qəbul etmədiyi üçün təqib olundu. Daşnakların əleyhdarları bunu "klan ibadəti" hesab edirlər.

Çarentsin İrəvandakı həbsxana hospitalında ölmədiyi, daşnaklar tərəfindən öldürüldüyünə dair fikirlər var. Bu fikirləri əsaslandırmaq mümkün deyil, amma düşünürəm ki, belə idi".

Axı, bütün ermənilərin qəbul etdiyi bir ideologiya niyə Yegişeyə təsir etməyib?

Gəlin ,Yeğişe Çarentsin "Qrakan tert" (Ədəbiyyat qəzeti, 10 yanvar, 1935, №1. ) məqaləsini oxuyaq:"Zaqafqaziya və Azərbaycanın tanınmış dramaturqu Cəfər Cabbarlının vəfatını bilib dərindən kədərlənmişəm. Bu tanınmış insanla bir neçə görüşümdən sonra mənə aydın oldu ki, onun şəxsində nəinki təkcə Azərbaycan, habelə bütün Zaqafqaziya ədəbiyyatı və teatrını ümumittifaq miqyasında tanıdan sənətkarımız vardır. Zaqafqaziya ictimaiyyəti içərisində ön cərgədə gedənlər-39 dən biri olub, bizim beynəlmiləl bolşevikmübarizəsi və qələbəsini təsvir, tərənnüm edən sənətkar, qabaqcıl dramaturq, böyük zəka sahibi idi." Bu erməniləri əsəbləşdirən "türkə sevgi"ni təsdiq edən sözlər idimi?

Bəlkə bu erməni şairin erkən ölməsinə səbəb yaşa dolduqca anladığı həqiqətləri dilinə gətirməsiydi?

Məlumatlara görə, Yegişe məhz Njdenin məlum ideologiyasından sonra , yəni kamilləşdiyi dövrdə nifrət edib və o ideologiyaya tapınan ermənilərə də yaxşı münasibətdə olmayıb. Yəqin ki, şair məşhur "Biz ermənilərdə ikiüzlülük ana bətnində ikən yaranır. Ermənilər rus çarlarının təşəbbüsü və dəstəyi sayəsində Qərbi Azərbaycan torpaqlarında yaradılmış Ermənistan adlı dövləti də "drevnyaya Armeniya" adlandırmaqdan utanıb qızarmırlar"- kəlamını həmin illərdə dilə gətirib.

Qeyd edək ki, Yeğişe Çarents (Yeğişe Abgar oğlu Soqomonyan) 13 mart 1897-ci ildə Qarsda, Qars qalasının altındakı Sukapı məhəlləsində doğulub böyüyüb.

Çarents də 1915-ci ildə erməni könüllü birləşmələrinə qoşulub vətəni uğrunda döyüşüb. Şair Van gölünün şimalındakı Təpəriz dağı üzərində geri çəkilərkən soyqırımına məruz qalmış erməni qocaların, uşaq və qadınların indi soyuq olan meyitlərini öz gözləri ilə görür. Bu obrazların təsiri ilə Çarents sonralar "Dante əfsanəsi" əsərini yazır.

Bu əsər qondarma erməni soyqırımını təsvir edən ilk əsərlərdən biridir.

Erməni yazıçının "Nairi ölkəsi" əsərində erməni xislətinə sadiq qalaraq doğulduğu əraziləri "böyük Ermənistan torpaqları" adlandırır və onu oxucusuna aşılamağa çalışır..

**1935-ci ildən sovet hökumətinin Yeqişe Çarentsə qarşı təzyiqləri dərinləşməyə başladı və onu Yazıçılar İttifaqından qovdular. Stalin rejiminin davam etdirdiyi təqib siyasəti nəticəsində şair həbs olunur və 1937-ci ildə - 40 yaşında həbsxanada ölür.**

**Əntiqə Rəşid**

---

*Eminquey*

# *Az qalmışdı ki, Cavanşir Məmmədov olum...*



***Yuxuda görürəm ki, saqqalım-zadım yoxa çıxıb, bircə dənə seyrək bığım var, saçlarım isə tökülüb, and içməklik qalıb.***

***Axı mən bu deyildim?!***

***Bu nə qırmızı pencəkdir?***

***Kiməm mən?***

***Firuzə İbadova niyə mənim yanımdadır? Harada tanış olmuşuq?***

***Deyəsən, qarmon ifaçısıyam.***

***Yox e, müğənni.***

***Əşşi, hər nə isə.***

***Məni ATV-də səhər verilişinə dəvət ediblər. Əlimdə bir topa qızıl xalqa göstərirəm.***

***Yuxunun bu yerində içimdən qəribə bir üşütmə keçdi, tez sinəmi yoxladım, dedim, bəlkə sinəm yarılıb, gördüm yox. Sonra kürəyimi yoxladım, orda da hər şey qaydasındadır. Bəs bu...***

***(tez zəng edib işyoldaşımdan soruşuram:***

***- Əntiqə, yadımdan çıxıb, "skvaznyak" bizim dildə necə idi?***

***- Yelçəkən)***

***... yelçəkən hardandır?***

***Aparıcıya üzükləri göstərirəm:***

***- Bunu rəhmətlik sənətkarımız İlhamə Quliyeva bağışlayıb. Bax, bunu filankəs müəllim. Bunu da bəhmənkəs.***

***Aparıcı məndən soruşur:***

***- Bunları satmazsınız?***

***Qamətimi şux tutub deyirəm:***

***- Heç vaxt. Bunlar dəyərli hədiyyələrdir.***

***Sonra üzümü turşuduram:***

***- Əşşi, siz mənim sənətimlə maraqlanın e, qır-qızılı neynirsiniz?***

***Aparıcı susur.***

***- Mən el sənətkarıyam, el sənətkarı!***

***Qəfil anam dümsükləyib oyadır məni.***

***- Dur, bala, işə gecikirsən, dur!***

***Yuxudan oyanıb görürəm ki, ATV-də Cavanşir Məmmədov əlində bir topa qızıl xalqa göstərib deyir ki...***

***Anam:***

***- Aynur kitab istəyib, 10 manat da verib, imzalayarsan.***

---

# *Dirisi də, ölüsü də Azərbaycana ziyan verən qatil: Goru çatlamış Monte Melkonyan*

**Uzun müddət "çər dəymiş" başı Azərbaycan ictimaiyyətini 2 yerə bölmüş terrorçu, qatil, türkə nifrəti ilə seçilən Monte Melkonyanın doğum günüdür.**

Əvvəlcə onun haqqında geniş məlumat verim, sonra "baş" məsələsinə dönəcəyəm.

Məlumata görə Monte 1957-ci il noyabrın 25-də Türkiyədən köçüb ABŞ-ın Kaliforniya ştatının Visaliya şəhərində məskunlaşan erməni ailəsində anadan olub . 1969-1970-ci illərdə o, ailəsi ilə birlikdə Avropa və Yaxın Şərqin 41 ölkəsinə səyahət edib, əslən Hindistandan olan ulu babalarının sığındığı türk torpaqlarının- xəstə xislətləri ilə adını "Qərbi Ermənistan" qoyduqları Türkiyə ərazilərini dəfələrlə gedib gəzmiş elə burda son nəfəsinə qədər türklərə qarşı döyüşəcəyinə and içmişdir. Erməni müəlliflərinin yazdığı kimi, bu yaşda o, ilk dəfə erməniliyini dərk etdi.

1972-ci ilin yayında on beş yaşlı Monte Melkonyan orta məktəbi bitirdi. Yeni orta məktəb tədris ili başlamazdan əvvəl məktəb direktoru Devid Qraymsın təklifi ilə ölkənin ən nüfuzlu məktəbi olan "Tokyo Kamata Liseyi"ndə təhsilini davam etdirmək üçün Yaponiyaya yola düşür.

Monteni Yaponiyaya göndərmək qərarı təsadüfən verilməyib. O, uzun müddət karate üzrə ən yaxşı idmançı idi və Kaliforniya ştatının 14 yaşadək gənclər arasında çempion olmuşdu, yapon dili dərsləri də daxil olmaqla Yapon mədəniyyətini öyrənib.

İlyarımda Yaponiyanın Osaka şəhərində məktəbi bitirdikdən sonra buddist



rahibdən təhsil almaq üçün Cənubi Koreyaya gedib. Sonra Vyetnama gedir , müharibə əməliyyatlarının şahidi olur. Yapon dilini və karate döyüş sənətini tam mənimsəyərək Amerikaya qayıdır. Amma bütün bunlar qatil xislətli caninin dünyagörüşünü dəyişdirməyib , "türkə nifrət" prinsipini sağaltmayıb

20 yaşında Berkli Kaliforniya Universitetini arxologiya bölümünə daxil olur. Geniş bacarığına görə, dörd illik kursu ikili adla bitirərək "Arxeologiya və Asiya tarixi üzrə mütəxəssis" sertifikatları alır. Universitetdə oxuyarkən artıq içində dərindən kök salmış "türkə nifrəti" "əməli işi "ilə ortaya qoymalı olur. "Erməni Tələbə Birliyi" qrupunu yaradır, saxta erməni soyqırımına həsr olunmuş sərgi təşkil edir.

Montenin diplom işi 1978-ci ildə müdafiə etdiyi Van Krallığının qayaüstü qəbirlərinin tədqiqinə həsr olunur . Sizcə, ermənipərəstlər içərisində bir erməni başqa bir mövzu seçərmi? Xeyir.

**Haşiyə:** Van krallığı və yaxud Urartu dövləti e.ə. IX -VI əsrlərdə mövcud olmuş, əsasən Anadolu yaylasının bir hissəsini, Cənubi Qafqazın qərb rayonlarını, Van, Urmiya və Göyçə gölləri arasındakı ərazini əhatə edirdi. Özlərinə aid olmayanı mənimsəmək cəhdlərindən əl çəkməyən ermənilərin uydurma yollarla sahib çıxmağa və erməniləşdirməyə çalışdıqları növbəti dövlətdir Urartu.

Qeyd olunan dövlətin ermənilərlə heç bir əlaqəsi olmayıb.

1978-ci ildən Livanda gedən vətəndaş müharibəsində, sağ xristian qüvvələrin tərəfində döyüşür. Bundan sonra Türkiyə ordusuna qarşı PKK-nın həyata keçirdiyi əməliyyatlarda iştrak edir. 24 sentyabr 1981-ci ildə Melkonyan Parisdəki Türkiyə səfirliyinə hücum təşkil edir. Həmin ilin noyabrında Fransa polisi onu həbs eedir, həbsi zamanı üstündən saxta sənədlər aşkar olunur. Melkonyanın həbsinə cavab olaraq ASALA bir neçə terror hadisəsi törədir və sonda Fransa hökuməti Melkonyanı Livana deportasiya edir, lakin bir müddət sonra o saxta sənədlərlə yenə də Fransaya qayıdır. Bu müddət ərzində o fələstinli azadlıq döyüşçüsü Əbu Nidal ilə sıx əlaqə saxlayır.

1983-cü ildə Melkonyan Parisdəki Orli hava limanında, Türk hava yolları şirkətinin kassaları qarşısında partlayış təşkil edir. Nəticədə 8 nəfər(8 nəfərdən cəmi 2-si türk idi.) həlak olur, 55 nəfər müxtəlif dərəcəli bədən xəsarəti alır. 1985-ci ildə o Fransa polisi tərəfindən yenidən həbs olunur və terror aktının təşkilində günahkar bilinərək 6 il müddətinə azadlıqdan məhrum edilir, lakin Melkonyanın cəzaçəkmə müddəti müəmmalı şəkildə azaldılır və o 1989-cu ildə azadlığa buraxılaraq Fransadan Yəmənə deportasiya edilir.

1990-cı ildə Melkonyan Ermənistana gəlmiş və Azərbaycanın Dağlıq Qarabağ ərazisinə gedir. Azərbaycanın Xocavənd rayonunun işğalı zamanı Ermənistan ön cəbhə dəstələrinin birinin komandiri olur. Şaumyan (Goranboy) rayonu, Manaşid, Erkeç, Buzluq kəndləri uğrunda döyuşlərdə, bu dəstənin aktiv üzvü kimi fəaliyyətə başlayır. Xocalı qatili Monte Melkonyan Xocalı soyqırımı zamanı əsir düşmüş azərbaycanlılara da işgəncə verilməsində çox aktiv iştirak edirdi.

Markar Melkonyan qardaşı Montenin "qəhrəmanlıqlarına" həsr etdiyi "Qardaşımın döyüş yolu" kitabında Avo adını almış bu terrorçunun dəstəsinin əməllərindən yazır:"1990-cı ilin noyabrında Keçəl (Arabonun döyüşçüsü) sərhədin o tayındakı kənddən Azərbaycan xalq cəbhəsinin gənc fəalını oğurlayır. Gənc azərbaycanlı Səid Yerevan yaxınlığındakı bir bağ evində divara zəncirlənmiş vəziyyətdə bir ay qaldı. İlin sonunda Keçəl bir neçə yoldaşı və yerli polis zabiti ilə birgə Səidi Yeraplura yüksəkliyində yerləşən qəbiristanlığa apardı (Yerevan yaxınlığında). Orada onlar Səidi onların ölmüş dostu Xarut adında döyüşçünün məzarı qarşısında diz üstə qoydular. Sonra üç uşaq atası olan Keçəl Səidin boğazını küt bıçaqla kəsməyə başladı. Əvvəl Səid qışqırırdı, lakin sonra qışqırıq inilti ilə əvəz olundu. Sonda Ardaq bıçağı Səidin sinəsinə vuraraq buna son qoydu, onlar Səidin qanının dostlarının məzarına axıtdıqdan sonra ordan getdilər."





Melkonyanın əxlaqsız həyat tərzi, homoseksual olması, onun bir zamanlar "sevgi" macərası yaşamış kişilərin sosial mediada və sosial şəbəkələrdə etirafları Ermənistanın "milli qəhrəmanı" ilə bağlı yeni-yeni faktların ortaya çıxmasına rəvac verir. Məlumatlarda bildirilir:" Melkonyanın ilk sevgilisi ona "Abu Sindi" ləqəbini vermiş Livan ermənisi olub. Həmin ölkədəki vətəndaş müharibəsində iştirak etmiş Monte o illərində gecələr homoseksual həyat tərzi keçirir, gündüzlər isə "kişi"ləşərək döyüşürmüş. Onun Livandakı sevgilisinin kimliyi açıqlanmasa da, bu "eşq macərası"nın livanlı batalyon komandirinin öldürüldüyü günə qədər davam etdiyi bildirilir.

Beləcə, 1991-ci ildə Monte Dağlıq Qarabağa gələrək burda döyüşür. Və ... köməkçisi ilə yeni sevgi macərasına başlayır...Bu faktı isə hazırda Fransada yaşayan erməni veteranı Ruben Siropyan söyləyib. O, Monte Melkonyanın kişi sevgilisinin Seyran Arutunyan olduğunu təsdiqləyib. "Qəhrəman komandir" nüfuzdan düşməmək üçün təcili evlənmək qərarına gəlir. O, Seda Qpranyanla 3 avqust 1991-ci ildə evləndilər, toy mərasimi Ermənistanda, Gegard monastırında oldu.

Montenin ölümündən bir müddət sonra Montenin valideynlərinin təkidi ilə Seda evlənir. İkinci əri Montenin uşaqlıq dostu, irland-alman əsilli Coel Kindendir. İkinci evliliyindən sonra Seda Seda Qpranyan-Melkonian-Kendyn soyadını daşıyır. Joel və Sedanın oğlu Monte-Saro adını daşıyır.

İndi də gələk, "Montenin kəsilən başı" məsələsinə!

Düz 2 gündür bütün erməni mənbələrini araşdırıram. Orada bu qatilin ölümü ilə bağlı "Muğanlı kəndində öldürülüb" deyə bir cümləyə rast gəlmədim. Ermənistanın rəsmi məlumatına görə, Monte 1993-cü il iyunun 12-də döyüş yoldaşları ilə birlikdə kəşfiyyat məqsədilə Ağdam rayonunun Mərzili kəndinə səfər edərkən azərbaycanlı zirehli maşının atəşə tutulması nəticəsində həlak olub.

Məsələyə Musavat.com saytında aydınlıq gətirən polkovnik Xətai Baxışov bildirir:"Bütün məsuliyyəti ilə bildirirəm ki, İbad Hüseynovun Monte Melkonyanı məhz onun öldürməsi haqqında versiyası yalandır və saxtakarlıqlar əsasında qurulub. Həm də bu yalan daim "təkmilləşdirilir". Amma gəlin ardıcıllıqla gedək.

Bir neçə il əvvəl İbad Hüseynov (həmin vaxt özünü Vüqar Həsənov adlandırırdı) iddia edirdi ki, Melkonyanı təsadüfən Xocavənd rayonunun Muğanlı kəndində erməni qərargahının yaxınlığında görüb və onun başını kəsib. Bu zaman o, qətlə yetirdiyi şəxsin kim olduğunu bilmirdi, bunu yalnız 12 iyun 1993-cü ildə Moskvadan "Vremya" verilişində yoldaşları ilə birlikdə Melkonyanın Qarabağda qətlə yetirildiyini eşitdikdə başa düşüb.

Və həlak olan şəxsin şəkli göstərildikdə İbad və yoldaşları kimin başını kəsdiklərini anlayıblar. "525-ci qəzet"in 23 iyul 2005-ci il sayında məhz bu versiya təqdim edilib.

Lakin bir neçə il sonra İbad Hüseynov haqqında film çəkilib. Bu filmdə tamamilə başqa versiya irəli sürülüb. Burada deyilir ki, ermənilərin Avo adlı komandiri olması haqda kəşfiyyat məlumatı var idi və İbadın qrupunu xüsusi olaraq onu aradan qaldırmaq üçün göndəriblər. Avonu görən İbad və silahdaşları onu tanıyıblar və hücuma keçməyi qərara alıblar, deyə filmdə bildirilir.

Bundan başqa filmdə 2005-ci ildə olmayan yeni personajlar ortaya çıxır. Bu, guya fəaliyyəti təshih edən, kəşfiyyat məlumatları alan və döyüş əməliyyatları aparan hissə komandiri, habelə guya bu əməliyyatları təshih edən MTN əməkdaşı idi.

Hərbçi olaraq qeyd etmək istərdim ki, sözügedən döyüş əməliyyatları zonası müntəzəm hissələrin nəzarəti altında idi və bu, bizim briqadamız idi. Heç kim bizimlə razılaşdırmadan hər hansı əməliyyat həyata keçirə bilməzdi və filmdə bəhs edilən əməliyyat əslində olmayıb.

Bu zonada həmçinin yerli özünümüdafiə dəstəsi fəaliyyət göstərirdi. Bu dəstə 1993-cü ilin avqustunda hərbi hissəyə göndərildi. Lakin filmdə bu bölmənin komandiri 1993-cü ilin iyun ayından danışır!"

Bundan başqa bu zonada ayrıca kəşfiyyat rotasına rəhbərlik edən Tofiq Cəfərov (Rafiq) təsdiq edir ki, 1992-93-cü illərdə İbad Hüseynov və ya başqa kimsə hələ Avonun aradan qaldırılması üzrə tapşırıq almırdı və əməliyyat həyata keçirmirdi".

"Melkonyanın 1993-cü il iyunun 12-də Mərzili kəndi uğrunda gedən döyüşlərdə 708-ci briqadanın ikinci motoatıcı batalyonunun döyüşçüləri tərəfindən məhv edilməsini təsdiqləyən materiallar vaxtilə toplanaraq sistemləşdirilib. Əminəm ki, bu faktı təsdiqləyən sənədlər indiyə kimi Müdafiə Nazirliyinin Kəşfiyyat İdarəsindədir" Bu fikirləri də Müdafiə Nazirliyinin Kəşfiyyat İdarəsinə rəhbərlik edən, müharibə illərində ordunun 708-ci briqadasının komandiri olan Talib Məmmədov deyib.

Bəli, ermənilər Melkonyanın öldüyünü dərhal açıqlamayıblar və onu ayın 19-da dəfn etdilər. Həm də də minlərlə erməninin onlarla kameranın gözü qarşısında. Diqqət etmisinizsə, Montenin alnında sarğı var. 708 əsgərlərinin "dəldiyi" yer sarğı ilə örtülüb.

Nəhayət bir nüans:Monte Melkonyanın Dağlıq Qarabağla bağlı belə bir fikri vardı: "Əgər Qarabağı itirsək, erməni tarixinin sonuncu vərəqini qapatmış olacağıq". O deyirdi ki, əgər Azərbaycan erməniləri Qarabağdan vurub çıxartsa, onlar daha sonra Zəngəzurda və Ermənistanın digər regionlarında üstünlük əldə edəcəklər. Ermənistanın uzun müddətli əmin-amanlığı həlledici şəkildə Qarabağın taleyindən asılıdır".

**İnşallah, o günləri də görərik!**

**Sonda bir daha Azərbaycan Orduşuna və Ali Baş Komandana dərin təşəkkürümü bildirirəm. Böyük qürur hissi ilə düşmənin özünün məhv olmuş, arzularının isə gömülmüş günündən yazıram!**

**Əntiqə Rəşid**



*Əbülfət MƏDƏTOĞLU*

# Özgə havasına oynayan qollar...

## *Ürəyimdəkiləri kağıza köçürmək cəhdi*

**İllərin axarında əlimi günlük edib baxıram. Və baxa-baxa da düşünürəm. Arxada qalan bu illər mənə, çevrəmə nələr verdi və məndən, çevrəmdən nələr aldı. Əslində həm də mənim özümlə etdiyim sorğu-sualdı. Bu sorğu-sualın ikinci iştirakçısı da illər, yəni zamandı. Bax, bu zamanın məhəng daşı o qədər ağır, həm də dürüstdür ki, onu sallaşıb, çəkib nə əymək mümkündü, nə də nizamını pozmaq. Deməli, elə mizan-tərəzi anlayışı da heç təsadüfi deyilmiş. Onun da canında-qanında bax elə həmin o zaman daşının hökmü varıymış. Mən də həmin o hökmün qarşısında susmağa çalışıram. Çünki başqa bir addımı atmağa, müqavimət göstərməyə nə gücüm yoxdu, nə də o güc olsa belə axına qarşı üzmək divara baş vurmaqdı. Bunu bir az da çılpaqlasam, deyə bilərəm ki, lap iynə ucu boyda ağlı olan kəs də başını divara vurmaz. Təbii ki, dəlidən və intihar etmək istəyəndən başqa...**

**Hə, söhbət dəlilikdən düşmüşkən... Bununla bağlı mənim dünya görüşüm Məcnun sayaqdı. Ona görə də hərdən özümü lap Məcnundan da Məcnun sayıram. Şair demişkən, özümü yeni əsrin Məcnunu kimi hiss edirəm.**

**Və bu məcnunluğu da vurğulamaqda məqsədim odur ki, dəliliklə məcnunluğun kökündəki eyniliklə fərqliliyin barəsində imkan olduqca birlikdə düşünək. Məncə düşünmək heç vaxt gec də deyil, ziyanlı da deyil.**

**Əksinə, düşündükcə, qarşında yeni çalarlar, yeni mənzərələr açılır. Həmin mənzərələrin də özünün ifadəsi, özünün təqdimatı adamın ruhunu da çəkir, ürəyini də çəkir. Bir də görürsən ki, nə qədər yeniliklə üz-üzəsən, baş-başasan. Və...**

**Bəli, bütün bu dediklərim təbii ki, zamanın içərisində əriyən ömrün özünün daxilində baş verir. Bunu bir sən bilirsən, bir Allahın bir də səni dəli edən, Məcnuna çevirən. Doğrudur, belə bir fikir var ki, iki adamın bildiyi heç vaxt sirr olmur. Ona görə də Allahın sənin və ikinci şəxsin bildiyi təbii ki, sirr donundan çıxıb sevgi donuna bələnir. Və yaxud da nifrətə bürünür.**

**Deməli, bütün bu prosesin başvermə proseduru, cərəyan etmə anları da zaman məsələsidi. Bu da yenə zamana, əriyən ömrə hopur. Yekun olaraq belə bir məntiq ortaya çıxır: baş vermişlər, olanlar və olacaqlar zamanla ömrü, yəni insanı gah paralelləşdirir, gah qarşı-qarşıya qoyur, gah da yollarını ayırır.**

**Hə, mən də ömrün elə nöqtəsindəyəm ki, bu daha çox yol ayrıcını keçməkdi. Kəsişən yollardan ayrılan yollara olan məsafə də həmin o illərin yaddaşındakı ömür payımdı. Adətən payın azlığı, çoxluğu önəmli olmur. Normal insan üçün adının anılması, qapısının döyülməsi, varlığının xatırlanması bütövlükdə diqqət göstərilməsi özü-özlüyündə artıq ən böyük paydı, ən böyük mükafatdı. Bu mükafat da anlayışlı olana kifayət edir. Ona görə də:**

***Sən bir ümid, bir güvən***
***Əllərindən tutmuşam...***
***Sənə sığınan andan -***
***Dünyanı unutmuşam...***

***Gözümün göz gəzməsi***
***Bəbəkdə közərməsi...***
***Dolaraq gözləməsi -***
***Deyir ki, buludmuşam!..***

***Ruhum odda, həm buzda***
***Odda ərimir buz da...***
***Kipriklərimi duzda -***
***Isladıb qurutmuşam...***

***Haqdan halal olanı***
***Sevdim, qəlbə dolanı!..***
***Ömür adlı solanı -***
***Xərcləyib qurtarmışam...***

***

**Heç vaxt kiminsə haqqına göz qoymadım, müdaxilə etmədim, əl uzatmadım. Heç vaxt da Allahımı və Allahım qədər sevdiyimi yadımdan çıxarmamışam. Ona görə də gördüyüm sayğısızlıq, etinasızlıq, qarşılaşdığım haqsızlıq və ən vacibi diqqətsizlik mənə ən ağır yara, ən kəskin xəncər kimi sancılıb həmişə. Onun ağrısını sinirə bilməmişəm, həzm etməyi bacarmamışam. Nə qədər unutmaq istəsəm də, meymun kimi həmişə gözümün önündə olubdu. Və anlamışam ki, yaşadığım bu illərin, doğranan kəsilib üst-üstə yığılan bütün ağrılı hissəsi məhz mənim öz günahlarımdı, mənim hamı kimi ola bilməməyimdi. Təklənmək, təkliyə çəkilmək, özün, Allahın və sediyinlə birgə olmaq sən demə bu cəmiyyətin, bu zamanın yemi deyilmiş, ona uyğun gəlmirmiş. Uyğun gəlməyənlər də həmişə sıxılır və zaman ləpəsi onu sahilə qovur. Mənim üçün indi həmin o uzaq sahillər addım-addım yaxınlaşır. Bəlkə də ləpə-ləpə. Qoy bir az poetik olsun. Bu yerdə mən o ləpələrin pıçıltısına qoşulmaq, o pıçıltının ruhuna uyğun olaraq mən də ruhumun səsinə qulaq asıram. Ruhum deyir ki:**

***Ruhum elə göynəyir***
***Elə bil dağ basılıb...***
***Isa kimi çarmıxdan -***
***Dipdiri sağ asılıb...***

***Gözlərim də qıyılır***
***Əhvalım da sıyılır...***
***Nəsə, nəsə duyulur -***
***Od üstdən yağ asılır...***

***Qəfil tutuldum, doldum***
***Sən gəlib-gedən yoldum...***
***Bəylə bostançı oldum -***
***Çiynimdən tağ asılıb...***

***Ümid bitir içimdən***
***Allandım bu biçimdən...***
***Yatağımın küncündən -***
***Üç arşın ağ asılıb...***

**Bu şeir ruhun pıçıltısı idi. Onu necə ifadə etdim, necə araya-ərsəyə gətirdim, heç xəbərim olmadı. Amma bir balaca nəfəsim genəldi. Ona görə ki, "üç arşın ağ" söhbəti həyat gerçəkliyidi. Doğrudur, o bəzən hamıya nəsib olmur. Amma bütün hallarda nəticə eynidi, istəyir zəlzələdən, istəyir vəlvələdən olsun...**

**... Yazının bu məqamında ovqatıma soğan doğrayan bir hal yaşadım. Onu yaddaşın bir küncünə atıram. Qoy qalsın orda... Həyatdı, onsuz da soğansız-sarımsaqsız da keçinmək olmur. Özü də indiki pandemiya şəratində. Axı bu virus söhbəti çıxanda marketlərdə sarımsağın, zəncəfilin qiyməti kəllə-çarxa qalxmışdı. İndi bir az özünə qayıdıb. Bu "özünəqayıdış" böyüklük demək deyil. Sadəcə, öz yerinə dönməkdi. Bu mənada düşünürəm ki, mənim kimi düşünənlərin özündən çıxıb getməsi yoxdur, biz elə öz yerimzidəyik. Öz yerində olanlar da özünü sevdiyindən artıq Allahını sevir. Çünki onun yerində qayim-qədim edən elə Allahıdır!..**

**Və bir də unutmaq lazım deyil ki, hər şeyin başlanğıcı, sonu olduğu kimi, qaranlığın da aydınlığı, gecənin də səhəri var. Çalışıb hər ikisinin havasına öz havanı qata biləsən. Öz simində, öz sazında çalasan havanı. Özgə havasına oynayanın qollarının göydə qaldığını o qədər görmüşəm ki.**

# BİR İŞIQ ADAM DA KÖÇDÜ DÜNYADAN



*Sona Çərkəz,*
*Bakı Dövlət Universitetinin müəllimi*

**Yer üzünün əşrəfi olan İNSAN yarandığı andan Səs və Söz də yaranıb. Deməli, Səs və Söz insanla yaşıddı. Bu da o deməkdi ki, İnsan bir varlıq olaraq özünü səsdə və sözdə tapmaqla bərabər, həm də ifadə edib... Eyni zamanda bunlar İnsanın özünümüdafiəsi üçün silah da sayılıb. Yəni, Səs və Söz qılıncdan kəsərli, gülldən ağrılı olub. Elə ona görə də bu silah naşı dildə paslı, küt xəncər, ustad, duyğulu, məntiqli, yanımlı, təəssübkeş, xüsusən kamil şəxsiyyət dilində isə bülövlənmiş, daşı da bir neçə yerə parçalayan xəncər olur... Toplum halında yanaşanda isə, İnsanlıq üçün söz həm böyük qüvvət, həm də mənəvi dayaq kimi də qəbul edilir.**

Çox təəssüf ki, həyatda elə hadisələr, günlər və anlar olur ki, söz də həmin yerdə acizləşir... və sən nə deyəcəyini, necə deyəcəyini bilmirsən... Şəxsən mən, az-çox söz adamı kimi, çox yaxşı tanıdığım adam haqqında söz deməkdə həmişə çətinlik çəkirəm, çünki çox fikir söyləmək və düşüncələrimin hamısını ifadə etmək istəyim alınmır... Nəticədə isə yenə ürək dolu düşüncələr pələsəngi və pəjmürdə - ağrılı qalır... İllah da ki, haqqında söz açmaq istədiyim insan qəflətən-vaxtsız bu dünyadan köçüb gedirsə... Bax onda o acının, o həsrətin və o nisgillərin fonunda söz də acizləşir... heç nə edə bilmir! Bu günlər mən məhz həmin durumdayam... Ürəyim ağrı ilə vuruşur, qələmim həmin ağrını bütünlüklə ifadə edə bilmir... Ona görə ki, mənə çox əziz olan Aydın müəllimin yoxluğu ilə barışa bilmirəm... Özüm özümlə danışırmış kimi ona üz tuturam:

- Əzizim Aydın müəllim! Yoxluğunuzu qəbul etmədən xatirə yazıram, çox çətindir bu məqamda sizdən yazmaq ... Keçmiş zamandan ayrılmaq, oradan sizə üz tutmaq, sizsiz sizdən danışmaq inanın ki, çətindir, qardaşım!

Yaranışdan üzü bəri məlumdur ki, dünyaya gələnin bir gün bu dünyadan getməsi var, lakin bunu bilə-bilə heç bir Allah bəndəsi bu həqiqəti qəbul edə bilmir. O da ola, bu həyatın çətinliklərindən, ömür yolunun sınaqlarından üzüağ və alnıaçıq çıxmağı bacaran, nəcib insani keyfiyyətlərə yiyələnərək, ətrafındakıların, el-obanın, qohum-əqrəbanın - doğmaların ürəyində özünə əbədi yurd-yuva quran işıqlı insan - Aydın Mirzəməmmədov...

Azərbaycan Kooperasiya Universitetinin Tədris şöbəsinin rəhbəri, iqtisad elmləri namizədi, dosent Aydın Mirzəməmmədov... Aydın müəllim, Sizi tanıyan vaxtdan, yəni nəvəm Çərkəzin o universitetə qəbul olduğu vaxtdan - 2014-cü ildən bu günə qədər elə bilirəm ki, 3 qardaşım yox, 4 qardaşım olub. Həqiqətən bu belədir, mən çox şanslı insan idim ki, bu hisslər qəlbimdə kök salıb, yuva qurdu.

Ailəniz indi doğmalarımdır... Ailə başçısı kimi, ömür-gün yoldaşı kimi, ata kimi, övlad kimi, baba kimi necə möhtəşəm idinizsə, dost kimi də eləydiniz... Sizi tanıyan andan bütövlüyünüz, böyük şəxsiyyət olaraq müəllimliyiniz, dərin bi-



liyə, düşüncəyə, ədəb-ərkana sahib olmanız məni valeh etdi. Sizinlə ünsiyyətdə olmaq, mehriban çöhrənizə yaraşıq verən təbəssümünüzə, istiqanlılığınıza, diqqətliliyinizə, mədəniyyətinizə, söhbətlərinizə, ən əsası da iş yoldaşlarınıza olan yüksək insani münasibətinizə heyran olmamaq mümkün deyildi... Sizi tanıyanlar, elm adamları, BDU-dan olan dostlarınız, həmkarlarınız hər biri sizin böyük ürəyinizdən elə hey söz salır, xatırlayır və insanlığın ən yüksək zirvəsini fəth etmənizdən qürur duyurlar. Unudulmayan, yaddaşlarda ucalığı və paklığıyla əbədi məskən salan əvəzsiz insan... Məhəmməd Peyğəmbər (s.ə.s.) deyir ki, "Pisliyə öyrənmiş şəxs insanların pisidir, yaxşılığa öyrənmiş insan və alim şəxs isə insanların ən yaxşısıdır". Əziz qardaşım, səmimiliyiniz və etibarınız, ziyalılığınız və təəssübkeşliyiniz barədə nə qədər yazsam və danışsaq, azdır, bitməyən və tükənməyən alicənablığınızla insanlığa şərəfsiniz, xeyirxahlığınız bu dünyadan çox böyük idi... Elm, təhsil sahəsində də, cəmiyyətdə də Sizin kimi insanlar tapıntı sayılır... İnsanlığa ucalıq gətirən, qarşısındakına hörmətlə yanaşan, anlayan, duyarlı, mərhəmətli və əxlaqlı olan sizin kimi insanların üzünə durub dayanır bu dünya, əziz insan.

Nə qədər bu həyatda təmiz və gözəl sözlər varsa, Aydın müəllim, Sizə ünvanlana bilər...

Fikirlərim çox qarışır, zaman gah keçmişə aparır məni, gah da bu yazını yazdığım bu günə, bu saata, gah da yoxluğunuza inamımdan düşüncələrim önündə acizliyimə qaytarır. O uzaq olmayan keçmişdəki, ilk görüşdüyümüz gün nəvəm Çərkəz də yanımda idi... Yarım saatlıq söhbət ərzində qəlbinizin nə qədər təmiz, geniş, ürəyinizin nə qədər böyük olduğunu dərk edə bildim... Və onda düşünmüşdüm ki, adlar onu daşıyan insanın üzünə izini sala bilirmiş...

İşıqlı insan! O gün sizin üzünüzü daxilinizi aydın göstərən güzgüyə bənzətmişdim... Sizinlə söhbət edən hər bir kəs o aydınlıqda özünün də hərəkətlərinə və sözlərinə əl gəzdirməli olmasını dərk edə bilərdi - deyə düşündüm. Hətta yaşca Sizdən çox böyük olsam da sözünüzü kəsməyə cürət etmək iqtidarında deyildim. Allah Sizi mükəmməl və möhtəşəm xarakterlə, biliklə, ağılla, əxlaqla ərməğan etmişdi bu həyata - sizi sevənlərə...

Siz, həm də çox ciddi insan idiniz, yorulmadan çalışmaq, ətrafınızda olanlara yararlı olmaq, kömək etmək ən ümdə məqsədiniz idi... Bu fədakarlıq Aydın müəllimin qanına, canına hopmuş xüsusiyyətlərdən biri və ən nəhayətsizi idi. Onu tanıyanlar, onunla bir ali məktəbdə işləyənlər əminəm ki, mənim bu fikirlərimlə razılaşarlar ki, Aydın müəllim yüksək mədəniyyətli və çox mərd insan idi. Bütövlükdə şəxsiyyət idi - bir sözlə, mötəbər Allah adamı idi... Bəlkə o üzdən Allah onu tələsib, yanına apardı...

Mən onunla 4 il ara-sıra telefonda, bir neçə dəfə də iş yerində görüşüb söhbət eləyə bilmişdim... Nə xoş ki, övladının toyunda da məni unutmamışdı... O günlər heç kəsin ağlına gəlməzdi ki, belə tez ayrılar Aydın müəllim öz sevdiyi - əzizlədiyi balalarından, nəvəsindən və onun yoxluğundan çox sarsılan, sağlığında ikən çox dəyər verib sevdiyi ömür-gün yoldaşı Afaqından - cəfakeş xanımından... Bu yazını qələmə alanda xatırladım ki, Aydın müəllim Türkiyədə müalicə alarkən ona zəng elədim, çox rahat və təmkinli səslə cavab verib, dedi: - "Sona xanım narahat olmayın, yaxşıyam, Afaq hər an yanımdadır, Nərmin də, mənim qoruyucu mələyim də buradadır. Onu da deyim ki, mən Davudu bu xəstəlikdən əvvəl uşaq bilirdim, sən demə o əməlli-başlı böyük kişidir".

Qızı Simanı, ailəsini, nəvəsini hələ onları görmədən mənə tanıtmışdı Aydın müəllim.

Nə yazıq ki, bu yazımda da adəti üzrə, gah keçmişə, gah bu günə dönərək pərakəndəliyə yol verdim yenə... Yoxluğuna inanmadan bir insanın yoxluğundan yazmaq çətindir...

Ürəklərimizə köçən Aydın qardaşım çox güvənli insan idi, daha dəqiq desəm, güvənc yeri sayılan insan idi...

**Göylərdən bizi görən insan - qardaşım, ruhun şad olsun!**

# İbadət yeri - poeziya



*Şahnaz Şahin*

**Söz, onun dəyəri, bədii səviyyəsi, təsir dairəsi haqqında böyük şəxsiyyətlər, məşhur söz sərrafları zaman-zaman qiymətli fikirlər söyləmiş, sözü lazım olduğu ucalıqda qoruyub saxlamağa çalışmışlar. Söz yerini bilməyənin öz yeri də olmaz. Sözün qüdrəti böyükdür, əsas məsələ onu lazım olduğu yerdə lazımi formada işlətməkdir. Sözü su ilə müqayisə edən dahi Nizami də israfçılıqdan uzaq olmağı məsləhət görürdü. Söz bəzən bir ordunun işini görər, qılınc demədiyini söz deyər...**

Tarixin bütün mərhələləri neçə-neçə unudulmuş, yaddan çıxmış imzalarla doludur. M. Fizuli,"Ver sözə ehya ki, tutduqda səni xabi-əcəl,

Edə hər saət səni ol uyqudan bidar söz... " deyəndə şairin cismani ölümündən sonrakı həyatını düşünürdü. Çünki fiziki ölüm faciə deyil, əsil faciə unudulmaqdır... Hər söz, söz deyənin daxili aləmi, düşüncəsi, dünya görüşü ilə həmahəng təşkil edir, bir növ sahibinin güzgüsü olmaqla həm də oxucunun düşüncələri ilə ya düz ya da tərs mütənasib olur.

Poeziya sözlə işləmək sənətidir, az sözlə çox mətləblərə nüfuz etmək məhz poeziyanın üzərinə düşür. Bu üzdən şairlərin işi elə də asan deyil...

Onu çoxdan tanıyırdım, həm də tanımırdım. Tanışlığımızın tarixi bir neçə il öncəyə söykənsə də, nə yaxın tanış deyə bilərdim ona, nə də dost. Dilində doğulub böyüdüyü bölgədən gələn şirinlik var, şeirlərində o yerlərin dağ havası. Şairlik vergidir, amma gərək zəhmət çəkəsən, sözü dindirməyi bacarasan, Göy üzü kimi ucalıqdan çəkib gətirə də biləsən.

Söz ki, şairin ürəyində şimşək kimi çaxmadı, ondan şeir "düzəlməz"... Elə oxuyan da baxıb keçəcək, bəlkə heç sonadək oxumayacaq da...

Heca və ya guya sərbəst vəzndə "basmaqəlib" şeirlərin meydan suladığı zamanda yaşayırıq. Hər şeir yazanın da şair olmadığını hər kəs bilir. Belə mənasız söz yığını ilə indiki oxucunu aldatmaq asan məsələ deyil. Bazara çıxarılan bu qədər "məhsul"un arasından lazım olanı tapıb götürmək də eləcə...

İndiyə qədər sözü tütyə hesab edən, bərəkət bilib öpərək gözü üstə qoyan şairlərdəndi Gülayə Könül. Bu gün onun bir şeiri haqqında fikirlərimi sizinlə bölüşməklə sözə ehya vermək istəyirəm. Gülayə xanım öz daxili səsi ilə yazıb yaradan şairdir. Zəhmətinə qarşılıq aldığı ödüllər də var. Amma çox adamın havasına uçduğu belə mükafatları yaradıcılıqdan üstün hesab eləmir...

Şeiri özünə məxsus intonasiya və şirinliklə söyləyir. Elə söhbətimi üstündə quacağım bu şeirini də öz səsində dinləyib sevdim...

Şeirdə insanlara sevginin ən əvvəl fədakarlıq olduğu təlqin edilir. Şeirin qəhrəmanı ucuz hisslərdən, etiraflardan," saçyoldu" məhəbbət oyunlarından uzaqdır. Öz sevgisini özündən də, sevgilisindən də uca tutur, bu yolda çəkdiyi əzab və iztirabları Tanrı mərhəməti deyə qəbul edir...

***...Qoy bir yana qalsın fədakarlığım,***
***sənsiz almışamsa tək bircə nəfəs.***
***Baxışım, gülüşüm, bütün varlığım,***
***Yalandı, yalandı bu haray, bu səs...***
***Sevmişəm, mən səni, yalan sevmişəm...***

Şeir həm də təkliyə, bütün göz və baxışlardan uzağa çəkilib yazılan sevgi məktubuna bənzəyir. Burda məktubu kimin yazdığının fərqi yoxdu, bu gənc qız da ola bilər, cavan oğlan da, gecikmiş eşqini etiraf edən yaşlı insan da. Əsas olan bu saf duyğulara məskən olan ürəkdi... Barmaqlar qələmi zorla tutur, həyəcandan titrəyən əllər sözə baxmır, məktub söz-söz artır, arada onun qələmi qoyub əllərini necə ovuşdurduğunu, nəfəsilə qızdırmağa çalışdığını da görürəm... O, heç kimi sevgisinə inandırmağa çalışmır, sadəcə öz qəlbini vərəqlərə açır,pak hisslərini ağappaq kağıza köçürməyə çalışır.., qalanı oxuyanın boynuna... İlahidən qəlbinə dolan məhəbbəti günah adlandırmaqdan da çəkinmir və "suç"unu sevgilisinin əllərində ölməklə yumağa hazırdır, axı həqiqi aşiqlər ölümdən daha güclüdür. Ona görə də bu sevgidə geriyə yol yoxdur, bütün yollar ölümə aparır və həm də ölümsüzlükdən keçir...

***Bağlıdır əfv yolu, barışıq yolu,***
***Yoxdur bəraəti bil, bu günahın.***
***Səbəbi mənəmsə, Allah eşqinə***
***Öldür, ölümümlə sil bu günahı,-***
***Sevmişəm mən səni, yalan sevmişəm.***

- deyir.

Qarşımızda özünə inanan, sevgisinə əmin bir ürək sahibi var. Özünü məhəbbətdə Leylidən güclü, Məcnundan dəli, Şirindən etibarlı, Fərhaddan qətiyyətli hesab edən və oxucunu buna inandıran şair...

O, elə həmin qətiyyətlə də əgər "sözüm yalandırsa deməli heç yaranmamışam, yoxam, yalanam" deyə öz "daxili mən"ini üzə çıxarır...

Sevgi həm də dəniz kimidir, onun fırtınası, sunamisi, daşıb sahilləri aşması, ölümü öldürməyi var. O da su kimi güc-



lüdür, təlatümlüdür, dəlisovdur, təhlükəlidir... Dənizin qəhrini, əzab və ağrısını sahil çəkdiyi kimi, burda da aşiq elə sahil kimi sədaqətlə dənizin fırtına və təlatümünü qarşılamağa hazırdır...

***Yoxdursa fırtınam, ya fəlakətim,***
***Yoxdursa zülm evim, zindan əzabım.***
***Yoxsa əzabına dözmək əzabım..,***
***Sevmişəm, mən səni, yalan sevmişəm...***

Şair, aşiqin timsalında and içir, qəsəm edir, özünün eşqini bütün vasitələrlə sübuta yetirməyə çalışır, axı Arximedin söylədiyi kimi, sevgi, hər gün isbat edəcəyin teoremdir... Daşan sular hikkəsiylə gəlib çölü, düzü bürüyür, budur, qəzəbi soyuyan sular artıq aramla nəfəs alır, sarı qumlar üzərində sərilib dincəlir. Sularla birgə qumluğa atılan balıqlar çabalayır, suya can atır... Şair də eynən ölümün özünə də meydan oxuyur, ölümün özünü də qorxuya salır və cismani yoxluqla əbədi varlığa yüksəlməyi bacarır...

***Yoxdur bəraəti ölümün belə,***
***Keçmə günahımdan, demə keçmişəm.***
***Eşitsən ölmüşəm, inanma, əsla***
***Həqiqi aşiqlər çətin ki, ölə..,***
***Mən ölsəm, deməli, yalan sevmişəm...***

- deyə məktuba son nöqtəni qoyur.

Sevgi hər kəsin çəkə bilməyəcəyi dərddir, keçə bilməyəcəyi sərhəddir, daşıya bilmədiyi kədərdir. Sevinci yaşamağa, bölməyə nə var ki.., bacarırsan dərdini böl, dərdini al, dərdinə qal... Sevgi susuzluq kimi, aclıq kimi tamamlanmamış hisslər toplusudur. Sevgi od kimi, buz kimi yaxar, hava kimi, külək kimi əsib içinə dolar. Göylərdən gələn və göylərə dönəndir, sevgi, odur ki, Gülayə xanım:

***...Yerlə yeksan olum..,***
***yer götürməsə,***
***Bük məni ahına, göylərə göndər..,***
***Sevmişəm, mən səni, yalan sevmişəm***

- deyə haray çəkir...

...Əsl məhəbbət haqqında çox yazılıb və yazılacaq da. Bəzən, "Sevgi varmı?" deyə sual edənlər də olur. Əlbəttə, sevgi, məhəbbət nə əllə tutulan, nə yeyiləndir, nə alınan, nə də satılandır. Yeganə var-dövlətdir ki, onu gizlətmək də, oğurlamaq da mümkün deyil. Çünki məskəni İnsan qəlbidir. Sevginin varlığına şübhə edənlərə bolluca ədəbi sitatlarla, poeziya nümunələrilə cavab vermək olar.

Elə Fransız yazıçısı Fransua De Laroşfuko da hər ürəyin eşqə yurd ola bilmədiyinə əmin olduğundandır ki "məhəbbət xəyala bənzəyir, hamı onun haqqında danışır, lakin çox az adam onu görüb" deyir...

**Sizə isə bütün qəlbinizlə sevməyi arzulayıram, bir-birinizi sevin, çünki dünyada sevgidən daha dəyərli bir şey yoxdur...**

# Şəhidim

**Torpaq ucsuz-bucaqsız, nəhayətsiz məkandır. Və torpaq şəhid qanına boyananda bu qanla yoğrulanda adı Vətən olur. Şəhidlərin isti qucağında üz tutduğu, sığınmağa tələsdiyi Torpaq-Vətən!**

Şəhidlər doğulanda elə şəhid ruhu ilə dünyaya göz açırlar. Və Vətən torpağı nə qədər böyük olsa da, ürəyi Vətən eşqi ilə alışıb-yanan qeyrətli oğul üçün o, kiçikdir. Odur ki, vətənpərvər, torpaqsevər oğul içinin alt qatından gələn vicdanının səsini dərindən dinləyib ölümün üstünə gedir. O, ölümü yıxır, onun üstünə çıxır. Vətən torpağını öz nəşi ilə bir qarış da olsa böyütmək istəyir. Vətənə, doğma torpağa olan əsl oğul məhəbbəti onun gənc, yaşam eşqi ilə döyünən ürəyini bu torpaq üçün fəda etməyə səsləyir. Çünki şəhidik ürəyi yumruq boyda yox, elə Vətən boydadır:

***Yanıb***
***külə dönsəm,***
***Nə dərdim.***
***Vətən torpağını***
***Bir ovuc***
***Böyük edədim.***



ŞƏHİD
ƏLİZADƏ TUNCAY NİCAT oğlu

...Ağlına daman başına gəldi Tuncayın. Orduya getməzdən düz bir il əvvəl dostları ilə söhbətində qətiyyətlə bildirdi ki, o Vətən yolunda şəhid olacaqdır.

Ordudan tərxis olunmağa üç ay qalmış evə qayıtmağa hazırlaşan əsgər yoldaşına söyləyir ki, mən evimizə tələsmirəm. Ağlima damıb, mən şəhid olacağam. Oldu da...

24 saatlıq Vətən torpağını qarı düşməndən təmizləmə əməliyyatında Tuncay əbədiyyatın zirvəsini fəth etdi.

Şəhid oldu, torpağın qucağına getdi. Getdi ki, Vətən övladları azad nəfəs alsınlar. Vətənimizin gələcəyi olan körpələr beşikdə şən, qayğısız qığıldasınlar. Və bir də doğma torpağın hər yerində güllər-çiçəklər açsın, qoxusu hər tərəfə səpələnsin.

...İndi doğmaları, yaxın və uzaq yerlilərin hər gün məzarını ziyarət edir, gül camalına baxıb minbir fikrə qərq olurlar.

Şəhid qanından rəng alan qirmizi qərənfillər məzarından əskik olmur, hər gün görüşünə gəlir, ayağına döşənirlər.

Vətənin doğma qoynunda rahat uyu Şəhidim, Tuncayım! Hamı qədrini bilir, heç kim səni unutmur. Başda Vətən olmaqla, Şəhidim:

***Qaşlarının arasından öpürəm,***
***Tellərinin qarasından öpürəm,***
***Ürəyinin yarasından öpürəm,***
***Son nəfəsdə bayraq olan şəhidim.***

**Adıl Misirli**

# Texnologiya əsri uşaqlarda çəki artımına səbəb olur

**Mütəxəssislər rəqəmsallaşmanın geniş tətbiqi ilə ekran qarşısında qalma müddətinin artmasının oturaq həyata keçməsi ilə yanaşı, piylənməni də tətiklədiyini, insanların, xüsusən də böyük şəhərlərdə yaşayanların sağlam olmayan qidalar yediklərini ifadə ediblər.**

Adalet.az xəbər verir ki, rəqəmsal dövrün oturaq həyat tərzinə səbəb olmasının bir çox insanda, xüsusən də uşaq və gənclərdə nizamsız çəki artımına səbəb olduğu qeyd olunub. Qidalanma pozğunluqları, nizamsız qidalanma, fast food, planşet, kompüter, televizor və oyun konsolları kimi texnologiyaların bütün fəaliyyətlərin onlayn şəkildə həyata keçirilməsinə imkan verdiyini, oturaq həyata keçirməyə və çəki artımını tətiklədiyini ifadə edir.

Doktor Mehtap Ertürk isə açıqlaması zamanı bunları deyib: "Yaxın gələcəkdə gənclərdə və uşaqlarda piylənmənin artacağı qaçınılmaz görünür. Kök uşaq və gənclər müxtəlif növlərlə yanaşı, sümük və oynaq ağrıları, yuxu apnesi kimi sosial, sağlamlıq və psixoloji problemlərlə üzləşə bilərlər. Ətraflarında zorakılıq və özünə inamsızlıq. Arıqlama prosesində müxtəlif müalicə üsullarından istifadə edilir. Və pəhrizlər faydalı deyilsə, indi texnologiya ilə hazırlanmış innovativ həllərə üstünlük verilir. Məktəblərdə idman dərslərinin azalması uşaqların idmanla tanışlıq və müntəzəm idman vərdişlərinə yiyələnmə şanslarını azalda bilər. Mütəxəssislər deyirlər ki, valideynlər bu mövzuda şüurlu olmalı və övladlarını texnologiyanın zərərli təsirlərindən uzaq tutmalıdırlar. Mütəxəssislər uşaqları qorumaq üçün aşağıdakı tövsiyələri valideynlərə məsləhət görüblər: Balanslı Qidalanma: Mütəxəssislər uşaqların balanslı və sağlam qidalanmalarının lazım olduğunu vurğulayırlar. Fast food və şəkərli içkilərin istehlakını məhdudlaşdırmaq vacibdir.

Fiziki fəaliyyət: Uşaqlar gündə ən azı 1 saat fiziki fəaliyyətlə məşğul olmalıdırlar. Ailələr uşaqlarına idmanla məşğul olmaq vərdişini qazandırmalı, birgə fəaliyyətlər təşkil etməlidirlər. Ekran vaxtının məhdudlaşdırılması: Mütəxəssislər uşaqlara gündəlik ekran vaxtını məhdudlaşdırmağı tövsiyə edir. Bu, həm fiziki aktivliyi artıra, həm də sağlam yuxu rejiminə kömək edə bilər.

Ailə daxilində qarşılıqlı əlaqə: Ailələr texnologiyadan istifadəni balanslaşdıraraq uşaqları ilə daha çox vaxt keçirməlidirlər. Paylaşılan yemək vaxtları və açıq ünsiyyət uşaqlara sağlam vərdişlər inkişaf etdirməyə kömək edə bilər.

**Mütəxəssislər bununla bağlı valideynlərin üzərinə düşən vəzifələri vurğulayır və uşaqların sağlam böyümə və inkişaf proseslərinin dəstəklənməsinin vacibliyini bildirirlər.**

**Vasif Əlihüseyn**

# Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

№ 46 (2370) 1 dekabr 2023-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# DÜNYADA AZADLIQDAN ŞİRİN ŞEY YOXDUR

**İnsan dünyaya gələndə çox şey istəyir, çox şey arzulayır, istəyir ki, yaxşı yaşasın, yaxşı dolansın və yaxşı ev-eşiyi olsun. Təbii ki, bu, hər bir insanın, hər bir adamın arzusudur. Amma bu arzunun içində başqa bir istək də var: o da insanın azadlığı, müstəqilliyi və düşüncə sərbəstliyidir! Əgər bir ölkədə insanların həyat tərzi yaxşıdırsa, dolanışıqları normaldırsa, amma orada azadlıq, demokratiya, fikir pülrealizmi və düşüncə azadlığı yoxsa, həmin insanlar həmişə özlərini çox narahat hiss edəcəklər. Sanki balığı sudan çıxaranda boğulduğu kimi, insanlar da söz və fikir azadlığı olmayanda özlərini belə pis vəziyyətdə hiss edirlər. Hiss edirlər ki, onların hər şeyi var, lakin əsas şeyləri yoxdur. Bu isə cəmiyyətin bir mənalı olaraq çatışmazlığı, qüsuru və nöqsanlarıdır.**

Azərbaycan müstəqil dövlət olandan sonra bütün sahələrdə olduğu kimi, söz, mətbuat, fikir pülrealizmi və düşüncə sərbəstliyi sahəsində də böyük işlər görməyə başladı. Aydındır ki, əgər bir ölkədə demokratik quruluş yaradılıbsa, onun əsas şərtlərindən biri də, söz və mətbuat azadlığıdır. Söz və mətbuat azadlığı olmadan heç bir ölkədə demokratik dəyərlərdən və insan hüquqlarından danışmağa dəyməz. Üstəlik də Avropa ölkələri hansısa bir dövlətlə əlaqə qurmaq istəyirsə, ilk növbədə onların əsas tələblərindən biri cəmiyyətdə söz və mətbuat azadlığı, demokratik prinsiplərə əməl edilməsidir. Heç şübhəsiz, bütün bu dəyərlər, dünyəvi dəyərlər hesab olunur və bu istiqamətdə hər bir ölkə öz üzərinə düşən missiyanı, vəzifəni yerinə yetirməyə borcludur!

Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycanda bütün sahələrdə yenidənqurma, demokratik prinsiplərə yiyələnmə, söz və mətbuat azadlığına önəm verilməsi birmənalı olaraq əsas vəzifə sayıldı və bu əsas vəzifə onu deməyə şərait yaradırdı ki, ölkədə mətbuat, televiziya və radiolar və eləcə də müstəqil fəaliyyət göstərən sayıtlar fəaliyyətə başlamalı idi. Bunun üçün Azərbaycanda hər bir şərait vardı. Eyni zamanda, jurnalistlər üçün mövcud olan senzura qısa zaman kəsiyində ləğv edildi. Bununla yanaşı, istər iqtidar mətbuatı, istərsə də müxalifət mətbuatı çox rahat fəaliyyət göstərdi. Hətta müxalifət mətbuatlarında ölkəmizdə mövcud olan nöqsanlar açıqlığı ilə tənqid olunur, yüksək vəzifəli məmurlar gündəmə gətirilir və onlara nöqsanları aradan qaldırmaq tövsiyə edilirdi.

Eyni zamanda, ölkədəki neqativ halları Ulu Öndər Heydr Əliyev də gündəmə gətirməkdən çəkinmirdi. Təbii ki, əgər dövlət başçısının dəstəyi olmasaydı, nə iqtidar mətbuatı, nə də müxalifət mətbuatı hansısa naziri və yüksək vəzifəli məmuru tənqid atəşinə tuta bilməzdi. Bütün bunlar ona dəlalət edirdi ki, Azərbaycanda söz və mətbuat azadlığının inkişafına Ulu Öndər Heydər Əlieyv tərəfindən "yaşıl işıq" yandırılıb. Üstəlik də, bütün qəzetlərin "Azərbaycan" Nəşriyyatına olan borcları Prezident Heyər Əliyev tərəfindən bağışlanıldı və qəzetlər rahat nəfəs aldı. Əgər o borclar ləğv edilməsəydi, əksər mətbuat orqanları çapını mütləq dayandırmalı və müəyyən problemlərlə üzləşməli idi. Amma Ulu Öndər həmin dövrdə birmənalı olaraq Azərbaycan mətbuatına arxa durdu, kömək göstərdi. Heydər Əliyev bu addımı ilə bir daha sübut etdi ki, o, ən böyük demokratdır və Azərbaycanda söz, mətbuat, pülrealizm və düşüncə azadlığına lazımi şərait yaradır. Onu da qeyd edək ki, Ulu Öndərin bu nəcib hərəkətləri Azərbaycan mətbuatı tərəfindən çox yüksək qiymətləndirildi. Və dəfələrlə Heydər Əliyev "Mətbuatın ən yaxın dostu" mükafatına layiq görüldü.



Ölkəmizdə söz və mətbuat azadlığına diqqət Prezident İlham Əliyevin hakimiyyəti dövründə də daha çox artırıldı. Yəni, cənab Prezident dəfələrlə yerli media nümayəndəli ilə görüşmüş, onların çətinlikləri, problemləri və digər məsələləri ilə maraqlanmış və çox böyük köməklik göstərmişdir. Məhz bu köməkliyin nəticəsidir ki, hər il dövlət tərəfindən Azərbaycanda 30-a yaxın media və sayıt maliyyələşir və onlara yardım edilir. Əgər bu yardımlar və Prezident tərəfindən lazımi dəstək olunmasa, indiki iqtisadi çətinlik və sosial problemlər dönəmində çap mətbuatını yaşatmaq və inkişaf etdirmək qətiyyən mümkün deyil. Dünyanın heç bir ölkəsində mətbuata, xüsusən də çap mətbuatına bizim ölkədə olduğu kimi dövlət tərəfindən belə yüksək qayğı və diqqət göstərilmir. Heç şübhəsiz, dövlətin mətbuata dəstəyi Azərbaycan jurnalistləri tərəfindən də diqqətsiz qalmır. Belə ki, dövlətçiliyə, ölkənin sosial-iqtisadi inkişafına və eləcə də, məmləkətimizdə vətənpərvərlik ideyalarının təbliğ olunmasına ayrılmış layihələrin həyata keçirilməsində çap mətbuatı önəmli rol oynayır. Hətta bir faktı qeyd edək ki, işğaldan azad olunmuş bütün rayonlarımıza gedən abadlıq, quruculuq və tikinti işlərindən bir qayda olaraq, bütün Azərbaycan mediası mütəmadi müxtəlif janırlı yazılar hazırlayır. Çünki dövlət və dövlətçilik elə demokratiyanın, söz-mətbuat azadlığının əsas prinsiplərindəndir. Əgər dövlət yoxdursa, həmin ölkədə söz və mətbuat azadlığından, düşüncə sərbəstliyindən söhbət gedə bilməz. Dövlət o vaxt güclü olur ki, o demokratik prinsiplərə, dünyəvi dəyərlərə və bəşəri duyğulara söykənir. Bu bəşəri duyğular istər-istəməz həmin dövlətin dünyada nüfuzunu və gücünü daha da artırır.

Bu gün Azərbaycan sözün həqiqi mənasında dünyanın hər yerindən və hətta ən ucqar ölkəsindən görünən bir ölkədir. Çünki bu ölkə 30 ildən sonra öz ərazi bütövlüyünü tamamilə bərpa edib və müstəqilliyini qoruyub saxlayıb. Üstəlik də bu gün ölkəmizə dünya dövlətlərinin marağı daha da artıb. Ən azından ona görə ki, Azərbaycan dünyəvi dəyərələrə sahib olan demokratik bir məmləkətdir və bu demokratik məmləkətdə söz, mətbuat, fikir sərbəstliyi, pülrealizm, düşüncə azadlığı həmişə ön plana çəkilib və çəkilir. Çünki dünyada ən şirin şey söz azadlığıdır. Bizcə, bundan şirin heç nə yoxdur!

**Sözsüz ki, bütün bu dəyərləri və bəşəri hissləri qoruyub saxlamaq və inkişaf etdirmək ölkəmizin əsas vəzifəsidir. Bu vəzifəni təkcə dövlət, xalq, millət deyil, hər bir Azərbaycan vətəndaşı öz amalı hesab etməlidir. Hesab etməlidir ki, o, bir vətəndaş kimi, bir insan kimi, bu dövlətə, bu ölkəyə hansı bir xidməti göstərib. Əgər insanlar qanunlara əməl edirsə, demokratik prinsiplərə hörmətlə yanaşırsa, söz, mətbuat, fikir azadlığından sui-istifadə etmirsə, bax, bunun özü də müsbət haldır!**

**FAİQ QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



# Bu da 65...



***Vaqif İsaqoğlu***

**Ürək hələ sevinclə döyünür. Axı bu Müzahimin ürəyidir.**

Ömür mənalı, şərəfli yaşandığına görə öyünür. Axı bu Müzahimin ömrüdür.

70-də də belə olacaq...

80-də də belə olacaq...

Mən hələ 90-nı, 100-ü demirəm. Hələ onu da demirəm ki, 65 yaşlı Müzahim özünü 50 yaşlı Müzahim kimi hiss eləyir. 15 il öncə "Ömrün ekvator xətti" kitabını oxuculara təqdim eləmişdi və oucular da onun 50 yaşının tamamına inanmaq istəmədilər.İndi də inanmırlar. Axı Müzahim özünü 30-35 yaşlarında olduğu kimi hiss eləyir. Enerjilidir, qüvvətlidir, cəlddir, çevikdir, həyat sevgisi, yaşamaq eşqi tükənməzdir. Gözə gəlməsin! Ancaq neləyəsən ki, hər kəsin doğum tarixi var. Müzahimin doğum tarixi 1958-ci ilin 5 dekabr gününə təsadüf eləyib. Yox. Bu, təsadüf deyil. Tanrının istəyidir. Tanrı yer üzünün yaxşı adamlarla daha çox olmasını istədiyinə görə Müzahimi də bu dünyaya bəxş elədi. Və bu dünya həm də onun çiyinlərində durmağa başladı. Və həm də dünyanın ritminin pozulmaması üçün Tanrı onun kimi ziyalılara, mərd kişilərə, işıqlı insanlara böyük ehtiyac olduğunu bizlərə anlatdı.

Bu da 65...

Və 65 ildir ki, Müzahim ürəklərə sevgisini və səmimiyyətini paylayır. Və o, 45 ildən çoxdur ki, sözlə nəfəs alıb sözə nəfəs verir. Sözü sanki dirilik suyudur, ruhun dərmanıdır, sözü anlayanlar üçün mənəvi qidadır.

Müzahim sözlə Tanrının ona verdiyi missiyanı şərəflə yerinə yetirir. Onun kitablarını yüz ildən sonra da açıb oxuyan oxucu sözlərin nəfəs aldığını, diri qaldığını, sətirlərin, misraların tərpəndiyini görəcək və deyəcəklər: - Müzahim İsmayılzadənin ruhu şeirlərində, hekayələrində, povest və romanlarında yaşayır. Məhz ona görə də o da Allah və sevgi kimi öz əsərlərində yaşayacaq.

Hər bir əsərini ədəbiyyatımıza, mədəniyyətimizə ən dəyərli bir hədiyyə kimi təqdim edən Müzahim İsmayılzadənin hər zaman, günün istənilən vaxtında adına üz tuta, qapısını döyə, könül süfrəsinin ətrafında əyləşib dərdini, qəmini unuda bilərsən, çünki o, şirin söhbətləri, müdrik fikirlərilə, Dədə Qorqud öyüdlərilə, öz qəlbi, ruhuyla səni tamamilə başqa bir dünyaya çəkib aparacaq və sən də o sirli-sehirli dünyada mənən rahatlıq tapacaqsan.

Bu da 65...

Bu yaşda da qəlbinin uşaqlıq təravətini qoruya bilmiş Müzahim İsmayılzadə öz şeirlərinə daha çox oxşayır. Şeirləri ruhumuzu gözqamaşdıran bir işığa bələyir. Bu işıqda saflaşırıq, təmizlənirik, haqqa üz tuturuq, halallığa qovuşuruq.

Müzahim elin-obanın qeyrətini çəkən əsl türk kişisidir.

O, həm də sözün qeyrətini çəkən şairdir, qələmilə möcüzələr yaradan yazıçıdır, nəsrdə külünk çalan ən parlaq imza sahibidir.

Bu da 65...

65 yaşlı Müzahim bir örnəkdir. Yurda bağlılığı, dostluğu, ziyalılığı ilə bir örnəkdir.

Sözü ilə əməli bir olmağın, yaxşı ata, mehriban baba, gözəl ailə başçısı olmağın örnəyidir. Oxuculara gözəl əsərlər, cəmiyyətə ləyaqətli övladlar bəxş etmiş bir ata kimi, vətəndaş kimi, əsl insan kimi, Vətən sevdalısı kimi bir örnəkdir.

Əgər Müzahimin yaradıcılığını uca bir zirvəyə bənzətsək, başqa bir zirvə isə onun şəxsiyyətidir. Şəxsiyyət olmaq hər kəsin alnına yazılmayıb. Müzahim hələ gənc yaşlarından özünü həm də şəxsiyyət kimi təsdiq eləyib.

Bu da 65...

65 yaşlı Müzahimdən ziyalı ömrünün, yazıçı ömrünün, şair ömrünün ətri gəlir. Onun mənalı ömrünə baxan, onun şərəfli həyatına az-çox bələd olan hər kəsin qəlbində bu dünyada ləyaqətlə yaşamaq arzusu oyanır.

...Müzahim 65 yaşına hamar və asan yolla gəlib çatmayıb. Onun çətin və keşməkeşli yoluna sərt düyünlü kötüklər atanlar da çox olub və o, bu sərt düyünlü kötükləri heç kimin köməyi olmadan yara



bilib, yoluna çəkilən sədləri söz silahı ilə dağıdıb və inamla irəliləyərək qarşısına qoyduğu hədəfə yetişib. Qədim türk yurdu Gədəbəydən - İsmayıl müəllimin halal ocağından özüylə gətirdiyi közü Bakıda da sönməyə qoymayıb. O, həmişə bu közün istisinə qızınıb, bu közün "sehrindən" güc alıb, ürəyi bu közün hənirindən isinib və o, öz isti ürəyilə neçə-neçə ürəkləri də isidib. Ata ocağının halallığını, ucalığını bu gün də ləyaqətlə yaşadan, cənnət Gədəbəydən özüylə gətirdiyi közdən heç vaxt sönməyən bir ocaq qalayan Müzahim İsmayılzadə bu ocağın közüylə çox sayda ocaq da qalayıb ...

Müzahim İsmayılzadə tanıdığım yeganə qələm adamlarından biridir ki, ata yurduna ən qırılmaz tellərlə bağlanıb. Bu da unudulmaz İsmayıl müəllimin aşıladığı yurd sevgisindən, torpaq sevgisindən irəli gəlir.

Müzahim İsmayılzadə həyatda nə qazanıbsa özü qazanıb. Heç kimi onun əlindən tutub heç kimin qapısını döyməyib, heç kəsin himayəsinə sığınmayıb. İndiki Bakı Dövlət Universitetinin tarix fakültəsinə də pulla yox, öz biliyilə qəbul olunub. 1986-cı ildə universiteti uğurla bitirib həyatın qoynuna atılıb. Dərin biliyi, zəkası, təfəkkürü, istedadı onu addım-addım irəli aparıb. İsmayıllı rayonunda müəllim işləyəndə də, indiki Texniki Universitetin "Ziya" adlı çoxtirajlı qəzetində müxbir kimi fəaliyyət göstərəndə də,

"Ədəbiyyat" "Həyat", "Respublika" qəzetlərində qələmilə vətənə, millətə xidmət eləyəndə də özünə, sözünə və istedadına güvənib. Onun sözünün gücünə, dəyərinə heç vaxt söz olmayıb. O, sözüylə insanın içini silkələyən, ürəyini yerindən oynadan şeirləri, hekayələri, povest və romanları ilə yüzlərlə, minlərlə oxucunu heyrətləndirməyi bacarıb.

Müzahim İsmayılzadə həm də tanıdığım yeganə ziyalılardan biridir ki, heç kimin qarşısında gözükölgəli deyil.

O, şairdir. Şair kimi poeziya qarşısında gözükölgəli deyil.

O, yazıçıdır. Yazıçı kimi yazdığı romanların, povest və hekayələrin qarşısında gözükölgəli deyil.

O, jurnalistdir. Yazdığı yüzlərlə məqalələrin, oçerklərin, reportajların... qarşısında gözükölgəli deyil.

O, əsl ziyalıdır. Və bir ziyalı kimi nəfsini heç nəyə qurban verməyib. İmkan verməyib ki, içində əyləşən mələyin yerində şeytan əyləşsin.

Bu da 65...

65 yaş nədir ki? Hələ ömrün günortasıdır. Ən gözəl, ən xoşbəxt aylar, səadət dolu illər hələ qarşıdadır. Hələ qarşıda neçə-neçə uğurlar, nailiyyətlət, neçə-neçə yazılmamış kitablar, dünyaya göz açacaq nəticələr...Müzahimi gözləyir. O, hələ bu dünyaya sözünü deməyib.Şair-yazıçı sözü tükənərmi?

Və ən nəhayət, demək istəyirəm ki, Müzahim İsmayılzadə kimi bir ziyalını, bir dağlar oğlunu, insanlığı yaşadan əsl insanı görmək üçün bu dünyaya gəlməyə dəyərmiş.

100 yaşa, qardaş!

**70 yaşında, 80 yaşında da sənin üçün ən gözəl sözlərdən bir çələng bağlamaq arzusuyla.**

# Səfər Alışarlı: "Bəzi Qərb dairələri erməni diaspor təbliğatını körükləyərək..."

**"Gəncəni, Bərdəni, ümumiyyətlə müharibədən uzaqda yerləşən dinc Azərbaycan şəhərlərini vurmağın əmrini ordu komandlığı verir. O orduya da rəhbərlik edənlərdən biri də Araik Arutyunyan idi və yəqin ki, o qorxusundan yalan danışır və özünü məsuliyyətdən kənara qoymaq istəyir"**



Bunu Adalet.az-a açıqlamasında yazıçı Səfər Alışarlı deyib. S.Alışarlı Bakıda saxlanılan separatçıların saxlanma şəraitinin dünya ictimaiyyətinə təqdim edilməsinin həm də vacib olduğunu bildirib: "İstənilən halda Araikin günahı təkcə Azərbaycan şəhərlərinin vurulmasında yox, separatçılığa başçılıq etməyindədir. Əsas ittiham bu olmalıdır. Şəhərlərimizin vurulması işin kriminal tərəfidir. Amma separatçılığa başçılıq etmək artıq dövlətə qarşı ideoloji təxribatdır. Bunlar arqument kimi düşünürəm ki, mütəxəssislər tərəfinən araşdırılır və irəli sürülür. Söhbət heç bunda da deyil. Araikin həyat yoldaşının və qızlarının Bakıya gəlməsi düşünürəm ki, ona edilən güzəşt kimi qiymətləndirilməlidir. Onlar gəlsinlər, qoy bunun saxlanma şəraiti ilə tanış olsunlar və burada onlara qarşı heç bir zorakılığın baş vermədiyini, ümumiyyətlə beynəlxalq standartlara uyğun olaraq nəzarət altında qalmasına bilavasitə şahidlik etsinlər. Bu indiki halda Azərbaycan hakimiyyəti üçün mühüm məsələdir. Çünki bildiyiniz kimi bəzi Qərb dairələri erməni diaspor təbliğatını körükləyərək Azərbaycana qarşı qarayaxma kampaniyası aparır. Hətta gördüyünüz kimi nüfuzlu Qərb ölkələrinin təzyiqi ilə Azərbaycana qarşı bəzi addımlar atılır. Ona görə indiki halda Bakıda istintaqa cəlb edilmiş separatçıların saxlanma şəraitlərinin dünyaya göstərilməsi və onların könüllü şəkildə ifadə verməsini beynəlxalq aləmə çatdırmaq mühüm məsələdir. Odur ki, burda heç bir narahatçılıq keçirmək lazım deyil. Onların ailə üzvləri Bakıya gəlib-gedə bilərlər. O ki, qaldı onların Azərbaycanda yaşamasına, bu zaman məsələsidir. Araikin və başqa ermənilərin istəyindən asılı deyil. Hələ demək olmaz kim harda yaşayacaq"-deyə yazıçı bildirib.

**Qeyd edək ki, mətbuatda Araik Arutyunyanın ailəsini Bakıya gətirməsiylə bağlı məlumat yayılıb. Həmçinin o, ifadəsi zamanı Gəncə və Bərdə şəhərlərinin birbaşa Paşinyanın göstərişi ilə vurulduğunu bildirib.**

**Vasif Əlihüseyn**

# Qəzzada dəhşətli görüntü: "Öldürdükləri insanların orqanlarını da oğurlayırlar"

**Oktyabrın 7-dən bu yana Qəzzada 15 mindən çox insanı qətlə yetirən İsrail ordusunun ölən fələstinlilərin orqanlarını da oğurladığı iddia edilib.**



Adalet.az xəbər verir ki, tibb mütəxəssisləri Qəzzada bəzi cəsədləri araşdırarkən qaraciyər, böyrək və ürək kimi həyati vacib orqanların əskik olduğu müəyyən edilib. Euro -Med Human Rights Watch təşkilatı İsrail ordusunu Qəzzada ölülərin orqanlarını oğurlamaqda günahlandırıb və müstəqil beynəlxalq araşdırmaya çağırıb.Euronews-un məlumatına görə, Euro-Med Human Rights Watch təşkilatı verdiyi açıqlamada Qəzzada bəzi cəsədləri müayinə edən tibbi ekspertlərin hesabatlarından sonra Fələstin cəsədlərindən orqanların oğurlanması ilə bağlı narahatlıqların olduğunu bildirib. Təşkilat İsrail qüvvələrinin Qəzzanın şimalındakı Əl-Şifa və İndoneziya xəstəxanalarından və cənubdakı digər xəstəxanalardan onlarla cəsədi ələ keçirdiyini sənədləşdirdiyini iddia edib.

O, həmçinin qeyd edib ki, İsrail ordusu Əl-Şifa xəstəxanasının həyətində qazılmış kütləvi məzarlıqdan cəsədləri çıxarıb və müsadirə edib.

Tibbi ekspertlər tərəfindən müayinə edildikdən sonra qaraciyər, böyrək və ürək kimi həyati vacib orqanlar, eləcə də koklea və buynuz qişanın çatışmadığı aşkarlanıb və bu, potensial orqan oğurluğunun sübutu kimi qiymətləndirilib. Euro-Med-in məlumatına görə, Qəzzada müxtəlif xəstəxanaların həkimləri bildiriblər ki, orqan oğurluğu yalnız məhkəmə-tibbi ekspertiza ilə sübut edilə bilməz, çünki ölümdən əvvəl birdən çox cəsəd əməliyyat olunub.

**Euro-Med həmçinin İsraili oktyabrın 7-dən Qəzzada apardığı hərbi əməliyyatlar zamanı həlak olan onlarla fələstinlinin cəsədini saxlamaqda ittiham edib. İsrailin ən azı 145 fələstinlinin cəsədini morqlarında, təxminən 255 fələstinlinin cəsədini isə İordaniya sərhədinə yaxın qeyri-ictimai ərazidə saxladığı iddia edilir.**

# BMT baş katibi çağırış etdi: Buna son qoyun!

**Antarktidada səfərdə olan Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibi Antonio Quterreş gələn həftə Birləşmiş Ərəb Əmirliklərində qurumun İqlim Sammitində (COP28) iştirak edəcək ölkələrin liderlərinə qlobal temperaturun artımını 1,5 dərəcə selsiyədək məhdudlaşdırmaq, insanları iqlim xaosundan müdafiə etmək və yer altından çıxarılan yanacaq epoxasına son qoymaq üçün tədbirlər görməyə çağırıb.**

**Adalet.az bildirir ki, bu barədə BMT-nin saytında qeyd olunub.**

**"Antarktidanı yatmış nəhəng adlandırırlar, lakin indi iqlim böhranı ilə əlaqədar o, ayıla bilər. Antarktidada baş verənlər Antarktidada qalmayacaq. Yüz mil uzaqda baş verənlər buraya bilavasitə öz təsirini göstərir", - Quterreş bildirib. Onun sözlərinə görə, Qrenlandiyanın buz lövhəsi də sürətlə əriyərək, ildə 250 giqatondan çox buz itirir:**

**"Biz əsrin sonunadək temperaturun 3 dərəcə selsi artımına doğru hərəkət edirik. Bu, Qərbi-Antarktik buz lövhəsinin təxminən yarısının itkisi və dəniz səviyyəsinin 5 metrədək qalxması deməkdir. Çünki buz günəş şüalarını əks etdirir, onun itməsi ilə atmosfer tərəfindən daha çox isti udulur və nəticədə bütün dünyada qasırğaların, daşqınların, yanğınların və quraqlıqların şiddətlənməsi baş verir".**

## İnsanlar necə baxsın axı sizin eqonuzun tavana çıxmasına?!

**İradə İsaqdan aparıcılara etiraz**



**"Əgər ağıllısınızsa səhvlərinizin belə mənası var".**

Xeyli müddətdir TV-lərdə görünməyən keçmiş aparıcı, telejurnalist İradə İsaq aparıcılara səslənib.

"Baxıram efirə, deməyəcəm hansına. Niyə biz özümüzü olduğumuzdan da ağıllı göstərməyə çalışırıq? Niyə ölürük çərçivələr üçün? Rus TV-lərində ağıllı adamlar zarafat edir, rahat gülür-danışır, səmimi olur, hətta rahat səhvlər edir. Anlayın artıq. Əgər ağıllısınızsa sizin zaraftlarınız da, gülüşünüz də məntiqli olacaq. Əgər ağıllısınızsa səhvlərinizin belə mənası var. Rahat danışın gerçəkləri, olanları. Ay camaat, tullayın bu 5 kitabdan öyrəndiyiniz ibarəli, xüsusi səylə qurduğunuz cümlələri. Tamaşaçı sizin səmimiyyətinizi istəyir, hiss edir. Sonra deyirsiniz ciddi verilişlərə niyə baxmırlar? Əsnədim vallah! İnsanlar necə baxsın axı sizin eqonuzun tavana çıxmasına?!".

## Mövcud deyil, amma ayda 11 min dollar qazanır



**Aitana Lopez 25 yaşlı, çəhrayılı saçlı model qızdır. Dünyada belə bir insan mövcud deyil. O, İspaniyada bir modelləmə agentliyi tərəfindən süni intellekt əsasında yaradılıb.**

Hazırda instagramda 164 mindən çox izləyicisi olan Aitana influnser kimi fəaliyyət göstərir və 10 ildir kontent hazırlayıb. Onun aylıq qazancı 11 min dollardır.

Agentlik bildirir ki, biz bu modeli ona görə yaratmışıq ki, sadəcə "poza verərək" çoxlu pul qazanan eqoist influnserdən asılı olmayaq.

## Bu iki xəstəliyin çarəsi tapıldı - Tibbdə yeni era başlayır



**Xatırlayırsınızsa, keçən il insanın ilk gen xəritəsi tamamlanmışdı. Başadüşülən formada desək, artıq genetikamızda nəyin harada olduğunu bilirik və xəstəlikləri müalicə etmək üçün hissələri dəyişdirməyə başlaya bilərik.**

Genomun dəyişdirilməsi texnologiyası CRISPR adlanır. Adalet.az xəbər verir ki, Birləşmiş Krallıq CRISPR ilə 2 xəstəliyin müalicəsinə rəsmi olaraq icazə verdi. Bu tibbdə çox önəmli bir andır, tarixdir. Həmin xəstəliklər qan xəstəlikləridir: Oraq hüceyrəli anemiya və Talassemiya. Hər ikisi irsi xəstəlikdir.

Oraq hüceyrəli anemiya - qırmızı qan hüceyrələrinin anormal formada oraq formasını alaraq kiçik damarların tıxanmasına səbəb olur.

Talassemiya - genetik defekt nəticəsində hemoqlobin sintezinin pozulmasıdır. Talassemiya zamanı hemoqlobin istehsalında zülal çatışmazlığı baş verir.

CRISPR ilə genomun düzülüşündə dəyişikliklər ediləcək, lazım olan hissələr kəsiləcək və milyonlarla insan müalicə ediləcək. Həmin kəsmə proses "Cas9" adlı ferment ilə edilir (molekulyar qayçı).

Son kliniki araşdırmalar göstərir ki, bu üsul ilə 42 xəstədən 39-da işə yarayıb və 29 xəstədən 28-də 1 il boyunca hər hansı bir şiddət ağrı yaşanmayıb.

Qeyd edək ki, bu müalicənin çox bahalı olacağı deyilir.

**Eminquey**

## Elnarə: "İnsanları mahnılar yaşatmalıdır"



**Müğənni Elnarə Xəlilova açıqlaması ilə diqqət çəkib.**

Adalet.az bildirir ki, müğənni səhnədə daha çox sənət göstərməyin tərəfdarıdır:

"Səhnədə o qədər adam var ki, səsini- sənətini yox, özünü göstərməyə can atır. Konkretləşdirmək istəmirəm. Mən həmkarlarımıza çağırış etdim ki, daxilimiz zəngin olsun, sənət göstərək. Mən anlayıram ki, səhnə estetika, etik tələb edir. İnsan həm də performans göstərməlidir. Ancaq bu, qədərində olmalıdır. İnsanları mahnılar yaşatmalıdır. Geyindiyimiz geyimlər, platsik əməliyyat olunan "saxta paxlavalar" yox."

## İlahə İbadova kimlərin sənətini bəyənmir?



**İlahə İbadova sənətini bəyənmədiyi müğənnilərin adlarını çəkib.**

Adalet.az xəbər verir ki, şou -proqramların birində aparıcı Zaur Nəbioğlunun ona verdiyi sualı belə cavablandırıb:

"Şəxsiyyət olaraq heç kəslə işim yoxdur. Mən müğənninin oxuduğuna qiymət verirem. Vəfa Şərifova, Nəfəs, Şəbnəm Tovuzlunu məndən soruşursunuz, mən də deyirəm ki, mahnılarını sevmirəm. Efirdə oxduqları mahnılar ürəyimcə deyil."

**ƏNTİQƏ**

# İstanbul "2024-cü ildə səyahət etmək üçün ən yaxşı 50 yer" siyahısındadır



**İstanbul "Travel + Leisure (T+L)" təşkilatının "2024-cü ildə səyahət üçün ən yaxşı 50 yer" siyahısına daxil edildi və növbəti il üçün tövsiyə olunan səyahət məkanı oldu. "T+L" səyahət jurnalı redaktorları cəlb edici və unikal səyahət arzusunda olanlar üçün gediləcək istiqamətləri, şəhərləri və müxtəlif təcrübələri əks etdirən "2024-cü ildə səyahət üçün ən yaxşı 50 yer" siyahısını təqdim edib.**

Daha az tanınan istiqamətlər və İstanbul kimi dünyanın ən məşhur turistik yerlərini əhatə edən siyahı, səyahətçiləri dünyamızı yeni yollarla kəşf etməyə ruhlandırmaq məqsədi daşıyır. Şəxsi təcrübələrinə əsaslanaraq, iyirmidən çox səyahət mütəxəssisi tövsiyələrini aşağıdakı kateqoriyalar üzrə qruplaşdırıblar: "Mənəvi doyum", "Yeməklər və içkilər", "Böyük şəhər həyəcanı", "Su üzərindəki anlar", "Təbiət sevənlər", "Çimərlik əhval-ruhiyyəsi" və "Macərapərəst səyahətçilər". İstanbulun iki qitədə keçmiş və bu günü birləşdirən müasir teksturası, onu "2024-cü ildə səyahət etmək üçün ən yaxşı 50 yer"in "Böyük şəhər həyəcanı" kateqoriyasında ən yaxşı səyahət istiqamətlərindən biri kimi yerləşdirib.

İstanbul: Türkiyənin Lüks və Stil şəhəri

Tarixi yerlərini, multikultural quruluşunu əks etdirən memarlığı, canlı mədəniyyət və sənət səhnəsi, heyrətamiz və bənzərsiz zövqləri və geniş çeşidli alış-veriş alternativləri ilə çoxsaylı təcrübələr təqdim edən dünyanın ən məşhur şəhərlərindən biri olan İstanbul "T+L" məqaləsində ətraflı təsvir edilmişdir.

Məqalədə İstanbulun 2023-cü ildə "T+L" oxucuları tərəfindən Avropanın ən yaxşı şəhəri seçildiyi və gözəl metropolün niyə ziyarət edilməli olduğu təfərrüatları ilə vurğulanır.

**Məqalədə məşhur memar Renzo Piano tərəfindən İstanbul Boğazının sularından ilhamlanaraq dizayn edilmiş İstanbul Modern, İstanbul Rəsm və Heykəl Muzeyi və İstanbul Yarımadası haqqında geniş məlumat yer alır.**

**Məqalədə İstanbulun dəbdəbəli otelləri, müasir incəsənət dayanacaqları, Michelin Ulduzlu restoranları və müxtəlif alış-veriş təcrübələri ilə modernizm şəhəri olduğu vurğulanır.**

**İstanbul tarixi abidələri, canlı sosial həyatı, muzeyləri, incəsənət və mədəniyyət tədbirləri və bənzərsiz kullinariyası ilə səyahətçilərə möhtəşəm səyahət təcrübəsi təqdim edir. Türkiyənin ən dinamik və canlı şəhərlərindən biri olan İstanbul, Conde Nast Traveller, Forbes və Time Out kimi dünyanın aparıcı nəşrləri tərəfindən son illərdə müxtəlif kateqoriyalar üzrə tərtib edilən səyahət siyahılarına da daxil edilib.**

# Azərbaycan xalçaları erməni "brendi" kimi Varşava muzeyində

**Yəqin ki, yadınızdadır: 2021-ci il fevralın 15-də İrəvandakı Aleksandr Tamanyan adına Milli Memarlıq Muzey-İnstitutunda 2020-ci il noyabrın 1-də Şuşa Xalça Muzeyindən qanunsuz olaraq çıxarılmış xalçalardan ibarət sərgi açıldı.**

Mədəniyyət Nazirliyi və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə hazırladığı bəyanatda qeyd olundu ki, ümumilikdə, muzeydən 160 xalça oğurlanıb, lakin onlardan 71-i sərgidə nümayiş olunub. Oğurlanmış ən qədim xalçanın 350 yaşı var.

Ermənilər növbəti dəfə Azərbaycanın Qarabağ bölgəsini işğal edərkən mənimsədikləri Azərbaycan toxuma sənətinə məxsus xalçalarla bağlı hərəkətə keçib.

Adalet.az erməni mediasına istinadən xəbər verir ki, Varşavadakı Kral Qalasının xalça zalında "Polşada erməni xalçaçılıq ustad dərsləri" adlı maarifləndirici-mədəniyyət proqramının rəsmi açılış mərasimi olub.

Alınan məlumata görə, Ermənistan Təhsil, Elm, Mədəniyyət və İdman nazirliyi bildirir ki, proqram Təhsil və Mədəniyyət nazirliyinin maliyyə dəstəyi və Hovhannes Şarambeyan Xalq sənəti muzeyinin təşəbbüsü ilə həyata keçirilir.

Polşa-Ermənistan Fondu, Polşanın Varşava şəhərindəki Kral Qala-Muzeyi Spyurkla (diaspor) iş üzrə komissarı ilə əməkdaşlıq, Ermənistanın Polşa Respublikasındakı səfirliyinin himayəsi altında həyata keçirilib. Layihə çərçivəsində Yerevanın Hovhannes Şarambeyan



adına Xalq Sənəti muzeyinin ustaları müxtəlif yaşlı iştirakçılar üçün xalçaçılıq kursları keçirəcəklər.

Tədbirdə Ermənistan Respublikasının Polşadakı fövqəladə və səlahiyyətli səfiri Aleksandr Arzumanyan, Polşadakı Erməni Apostol Kilsəsinin ruhani keşişi Fr. Minas Abeqa Haxverdyan, Ermənistanın Lodzdakı fəxri konsulu Rafal Xoma, Polşadakı Spyurkla iş üzrə komissarı Diana Hovakimyan, eləcə də erməni icmasının nümayəndələri iştirak edib. Hovhannes Şarambeyan Xalq Sənəti muzeyinin direktor müavini Qayane Aslanyan tədbir iştirakçılarını salamlayaraq qeyd edib ki, proqramın əsas məqsədi Ermənistanın qeyri-maddi mədəni irsini, xüsusilə xalçaçılıq sənətini təbliğ etmək, mədəni irsin erməni xalqına çatdırılması, ötürülməsi və yayılmasıdır. Azərbaycan bu tarixi irsimizlə bağlı nə vaxt beynəlxalq məhkəmələrə müraciət edəcəkər. Oktyabrın 16-da Vyana Beynəlxalq Mərkəzinin Rotunda zalında "Keçmişin gələcəyi: Ermənistanın ənənəvi incəsənətinin dirçəlişinə dəstək verməklə qadın sahibkarların səlahiyyətlərinin artırılması" adlı sərgidə Ermənistan növbəti dəfə Azərbaycanın maddi-mədəni irsini mənimsəməyə cəhd edib. Belə ki, Ermənistanın daimi nümayəndəliyinin təşkil etdiyi sərgidə Azərbaycan xalça sənətinin müxtəlif məktəblərinə xas xalçalar erməni xalçaları kimi təqdim olunub. Maraqlısı odur ki, ermənilər sərgidə bəzi xalçaların özünü deyil, yalnız fotolarını nümayiş etdiriblər. Onlar Qarabağ, Qazax və Şirvan bölgələrinin klassik xalça kompozisiyaları əsasında toxunmuş "Çələbi", "Xətai", "Qasımuşağı", "Malıbəyli", "Bəhmənli", "Borçalı" və digər xalçalarını özününküləşdirməyə çalışıblar.

**Azərbaycanın Avstriyadakı səfirliyi sərgi ilə bağlı BMT-nin Vyana bölməsinin rəhbərinə rəsmi etiraz məktubu ünvanlayıb. Məktubda ermənilərin bu hərəkəti təxribat və tarixi saxtalaşdırmaq kimi qeyd edilib. Həmçinin Azərbaycan tərəfi BMT-nin Vyana bölməsinin rəsmilərini Ermənistanın Vyanadakı beynəlxalq təşkilatlardan öz siyasi məqsədləri və ölkəmizə qarşı əsassız iddialar naminə sui-istifadə etməsinin qarşısını almaq üçün təcili tədbirlər görməyə çağırıb. Onu da qeyd edək ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin ekspert komissiyası sərgidə nümayiş etdirilən xalça şəkillərinin Azərbaycan xalça sənətinin tərkib hissəsi olduğunu faktlarla sübuta yetirib. Beləliklə, ölkəmizin maddi-mədəni irsinin Ermənistan tərəfindən mənimsənilməsi cəhdi növbəti dəfə ifşa olunub.**

## Firuz Mustafa: "Süpürgəçiyə də, qapıçıya da mənzil düşür..."

**Xəbər verdiyimiz kimi Azərbaycan Yazıçılar Birliyinin bir qrup yazıçıya mənzil hədiyyə etməsindən sonra narazılıqlar başlayıb.**

Mənzil alan şəxslərdən biri də Əməkdar incəsənət xadimi Firuz Mustafadır. F.Mustafa Adalet.az-a açıqlamasında narazılıqların təbii olduğunu bildirib:

"Allah eləsin hamıya mənzil versinlər. Ulucaya da, o biri yazarlara da, hətta süpürgəçiyə də mənzil düşür hansı ki, axşama kimi oranı süpürür, qapıçıya da mənzil düşür. Mən o bölgüdə iştirak etməmişəm. Onsuz da Əliyə mənzil versələr, Vəli narazı olacaq. Həmişə belə olub. Hətta jurnalistlərə 600-ə yaxın mənzil verdilər və orda da narazılıq yarandı. Amma indi bir də var ki, 20-21 adama mənzil verilib. Məncə, mənzil verilməsində ədalət prinsipi gözlənilib. Düzdü, siyahıda texniki işçilər də var və onlar da on illərdir ki, işləyirlər və onların da yaşamaq hüququ var. Qaldı ki, məni tanıyanlar bilir ki, nə Sovet dönəmində, nə ondan sonrakı müstəqillik dövründə mənim evim olmayıb. Düzdü, küçədə yaşamamışıq. Hamı bilir ki, mənim evim yoxdur, uzun illər kirayədə yaşadım, sonra qardaşımın evində qaldım"-deyə yazıçı bildirib.



**Vasif Əlihüseyn**

## Nekrofil qatil edam edildi - O, azyaşlı qızları qaçırıb öldürürmüş

**Yaponiyada yaşayan və 2008-ci ildə edam edilən Tsutomu Miyazaki adlı qatil 4 nəfərə işgəncə verib, öldürüb və yeyib. Atası ilə böyük bacısı arasındakı cinsi münasibətindən doğulan qəddar qatil həm də qeyri-adi dərəcədə uzun və sümüklü əlləri ilə tanınırdı.**

Anime həvəskarı Miyazaki həm də nekrofiliyaya düşkün idi və edam olunana qədər törətdiyi şok edici cinayətlərə görə peşman olmayan adamyeyən idi. Onun xəstəliyi 1988-ci ildə, cəmi 26 yaşında ikən başlayıb.

Onun ilk qurbanı Tokioda öz avtomobilində qaçırdığı dörd yaşlı Mari Konno idi. Konnonu öldürdükdən sonra ona cinsi təcavüz edib, cəsədini parçalara ayırıb və fotoşəkillər çəkdirib. Cəsədin yanında polis "Mari. Yandırıldı. Sümüklər. Tədqiq etmək. Sübut et." yazılı bir qeyd tapdı. Qısa müddətdən sonra o, yeddi yaşlı Masami Yoshizawa-nı eyni yerə apardı, ritualı təkrarladı və onun cəsədini Marinin cəsədindən bir az aralıya atdı.



1988-ci ilin dekabrında gənc Erika Nambanı ələ keçirdi və eyni prosesi təkrarladı. Miyazakinin dördüncü və sonuncu qətli bəlkə də onun ən sarsıdıcı və şiddətli qətli idi. O, beş yaşlı Ayako Nomotonu avtomobilində onun şəkillərini çəkməsinə icazə verdikdən sonra qaçırıb.

Altı həftə sonra, Miyazakinin xəstə hərəkətləri nəhayət, beşinci uşağı öldürməzdən bir neçə dəqiqə əvvəl sona çatdı.

Məhkəməsi zamanı Miyazaki, "xeyirxahlıq" olduğunu iddia etdiyi xəstə fəaliyyətlərinə görə məsuliyyəti öz üzərinə götürməkdən imtina etdi və işgəncələrə görə ikinci şəxsiyyəti olan "Siçan Adam"ı günahlandırdı. İşgəncə verən və qatil 1997-ci ildə ölüm cəzası alıb və cəzası 2008-ci ildə həyata keçirilib.

Ölümündən illər sonra da tez-tez gündəmdə olan Miyazaki həm populyar mədəniyyətdə, həm də sosial mediada qorxu yaratmağa davam edir. Britaniya mətbuatı qorxunc qatilin hekayəsini yayıb və oxucularına çatdırıb.

İngilis tabloidi Daily Star xəbər verir ki, "Nosferatu seriyalı qatil hücumlarında özünün "Siçan Adam" adlandırdığı alt şəxsiyyətini günahlandırıb. O, "Kiçik qızlara dəhşətli işgəncə verdi" başlığını işlədib. Qəzet bu xəbərin əvvəlində "narahatedici məzmun" ifadəsini işlətməklə oxucularına xəbərdarlıq edib.

**Eminquey**

*Eminquey*

## Rəqslərdəki «kriminal» elementlər, itib-batan milliliyimiz

**Uşaqlarınızı qızlı-oğlanlı aparıb qoyursuz rəqsə. Dıydıx "rəqs müəllimləri" də kriminal kultun nə ki sərsəm hərəkətləri var, rəqsə yükləyib yeridirlər qızlarınıza, oğlanlarınıza.**

**Nədir də bu tendensiya?!**

**Uşaqlarınız normal rəqs etməyi bacardı bəs etmir sizə?**

**Bu gədə-güdənin öyrətdiyi Azərbaycan rəqsi deyil axı!?**

**Əvvəllər kişilər rəqs edəndə yer silkələnirdi, indi isə özləri silkələnir, əzaları lərzəyə gəlir.**

**Əvvəllər qadın durna kimi süzürdülər, indi isə onlar da indiki kişilər kimi silkələnməklə məşğuldurlar.**

**Allahaqqı, illah da qızların o əllərini ovcuna aparıb nəşə eşməyi, sonra ağızlarına aparmağı, nəşəxorlar kimi əllərini yanlarına sürtüb səkkiz formasında oynamaqları biabırçılıqdır.**

**İndi "əşşi, əyləncədir də, rəqsdir də" deyib keçirsiniz, 15-20 il sonra başqa geydirmə bir millətə çevriləcəksiniz.**

**Üzünüzdəki mimikalarınızı dəyişirsiniz, dalınızı dəyişirsiniz, qabağınızı dəyişirsiniz, dilinizi dəyişirsiniz, rəqsinizi dəyişirsiniz, ruhunuzu dəyişirsiniz, mənəviyyatınızı dəyişirsiniz.**

**Özünüzdən və özümüzdən heç nə qalmayacaq bu gedişlə.**

## Günay Əfəndiyeva Qırğız Respublikasının Prezidentinin Fəxri Fərmanı ilə təltif olunub



**Türk Mədəniyyəti və İrsi Fondunun Birinci Prezidenti Günay Əfəndiyeva Qırğızıstanın mədəniyyətinin və irsinin Türk Dünyasında yayılmasında xidmətlərinə görə Qırğız Respublikasının Fəxri Fərmanı ilə təltif olunub. Fəxri Fərmanı Günay Əfəndiyevaya Qırğız Respublikasının Prezidenti Sadır Japarovun adından ölkənin xarici işlər naziri Jeenbek Kulubayev təqdim edib.**

24 noyabr 2023-cü il tarixində Bakıda Qırğız Respublikasının Xarici İşlər Naziri Jeenbek Kulubayev və Türk Mədəniyyəti və İrsi Fondunun Birinci Prezidenti Günay Əfəndiyeva arasında görüş keçirilib.

Görüş zamanı nazir Jeenbek Kulubayev Fondun qırğız xalqının mədəni irsinin tanıdılmasında aktiv fəaliyyətini qeyd edib. O, Fond tərəfindən tanınmış Azərbaycan şairi Adil Cəmilin "Manas" dastanının tədqiqinə həsr olunmuş kitabının, eləcə də Türk Akademiyası ilə birgə qırğız manasçısı Rısbay İsakovun redaktorluğu ilə eposun Sağımbay Orozbakov variantının nəşr olunmasını vurğulayıb.

Fondun 2018-ci ildə 90, cari ildə isə 95 illik yubileylərinin qeyd olunması çərçivəsində görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun irsinin təbliği yönündə gördüyü işlər yüksək qiymətləndirilib.

Günay Əfəndiyeva Fondun rəhbəri vəzifəsini icra etdiyi müddətdə göstərilən dəstəyə və etimada görə minnətdarlığını bildirərək, Qırğızıstanın mədəniyyətinin, irsinin təbliği və inkişafı sahəsində Fondun fəaliyyətlərindən bəhs edib. Bildirilib ki, Fondun təşkil etdiyi çoxsaylı multikultural tədbirlərdə qırğız xalqının ədəbiyyatı, epik irsi, incəsənəti geniş şəkildə təmsil olunub.

## "Şeytan kilsəsi"nin sirri çözüldü

**Finlandiyanın şərqində yerləşən "Şeytan kilsəsi" qədim zamanlarda ritual məkan kimi istifadə olunub.**

Adalet.az xəbər verir ki, tədqiqatçılar kilsənin niyə bu məqsədlə istifadə edildiyini araşdırıblar.

Finlandiyanın şərqindəki Koli Milli Parkında yerləşən Pirunkirkko və ya adətən Şeytan kilsəsi adlandırılan qədim abidə haqqında Helsinki Universitetindən arxeoloq Riitta Rainio və Şərqi Finlandiya Universitetindən mədəniyyət tədqiqatları üzrə tədqiqatçı Elina Hytönen-Ng tərəfindən yeni bir araşdırma aparılıb. Araşdırmada kilsədə keçmişdə şaman inanclarından niyə istifadə edildiyi araşdırılıb.Şeytan kilsəsində uzunluğu 34 metr olan dəhlizə bənzər mağara var.



Rəvayətə görə şaman inancına malik insanlar mağaraya keçmişdə ruhlar aləmi ilə əlaqələrin qurulduğu bölgə kimi baxıblar. Tədqiqatçılar Rainio və Hytönen-Ng mağaranın akustikasına diqqət yetirərək, onun mistik əhəmiyyətini araşdırdıblar.

Şeytan kilsəsinin dəhlizə bənzər arxa hissəsində aparılan akustik ölçmələr zamanı mağaranın müəyyən tezlikdə səsi gücləndirən və uzadan akustik rezonansa malik olduğunu ortaya qoydu. Bu rezonansa görə, kilsənin keçmişdə şəfa mərasimləri və nağara çalmaq üçün istifadə edildiyi düşünülür.

Məlum olub ki, bölgədə Kinolainen adlı şəxs mağaradan xəstələrini sağaltmaq və şeytanla ünsiyyət qurmaq üçün ayinlər yerinə yetirmək üçün istifadə edib.

Rainio deyir ki, bu rituallar tez-tez yüksək səslə qışqırmaq və güllələməkdən ibarətdir.

Mağaranın hamar divarlı hissələri xüsusi bir ton yaradır. Bu ton səsləri daha güclü və uzun edir. Rituallar zamanı yaranan səslər mağaranın rezonansı sayəsində güclənir və mistik ab-hava alır. Bu səbəbdən insanların təsirləndiyi düşünülür.

**Vasif**


**Talıbov Elmir Şükür oğlunun adına verilmiş Binəqədi rayonu Xocəsən qəsəbəsi, yeni massiv, bina 13, mənzil 18-ə aid akt sənədi itdiyi üçün etibarsız sayılır.**

***

**Göygöl (Xanlar) rayon Hərbi Komissarlığı tərəfindən Əliyev Rauf Həmdəm oğlunun adına verilmiş 10.12.1984-cü il tarixli A456814 saylı vəsiqə itdiyi üçün etibarsız sayılır.**



Təsisçi və baş məsləhətçi: **Aqil ABBAS**

Baş redaktor: **İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 157**
Çapa imzalanmışdır: 30.11.2023